Xalqın qəzeti!

# Xalq qəzeti

№ 103 (30797) 20 may 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Geosiyasi reallığın diktəsi və milli diplomatiyanın qələbəsi




## Macarıstan Türk dünyasına qədim tarixi köklərlə bağlıdır

*Bu gün Budapeştdə TDT-nin qeyri-rəsmi Zirvə görüşü keçirilir*




**Türk Dövlətləri Təşkilatının katibliyindən verilən məlumatda bildirilir ki, mayın 20-21-də Macarıstanın paytaxtı Budapeşt şəhərində Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının qeyri-rəsmi Zirvə toplantısı keçiriləcək. “Şərq və Qərbin görüş nöqtəsi” adlanan bu tədbirdə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistan dövlət başçıları iştirak edəcək. Eləcə də, təşkilatın müşahidəçi üzvləri olan Şimali Kipr Türk Respublikası və Türkmənistan da zirvəyə qatılacaq. Bildirilir ki, qeyri-rəsmi zirvə görüşü dövlət başçılarına prioritet sahələrdə əməkdaşlığı inkişaf etdirmək, regional və qlobal miqyasda ümumi məsələləri həll etmək üçün mühüm imkan yaradacaq. Bundan başqa, tədbirdə təşkilatın ümumi strategiyasını və dünyaya baxışını ifadə edən Budapeşt bəyannaməsinin qəbul ediləcəyi də gözlənilir. Uğurlar olsun!**

Xatırladaq ki, bu barədə qərar TDT-nin ötən il noyabrın 5-də Bişkekdə keçirilən sammitindən əvvəl qəbul edilmişdi. Qırğızıstan Prezidenti Sadır Japarov Macarıstanın Baş naziri Viktor Orbanla görüşü zamanı demişdi ki, biz artıq sizin təşəbbüsünüzü dəstəkləmişik və çox şadıq ki, qeyri-rəsmi Budapeşt sammiti TDT-yə sədrliymiz çərçivəsində keçiriləcək. Öz növbəmizdə, sədrlik edən tərəf kimi bu sammitin uğurla keçirilməsi üçün əlimizdən gələni etməyə hazırıq”.

*(ardı 3-cü səhifədə)*

**Artıq yerli ekspertlər Azərbaycan–İran münasibətlərində yeni eranın başlandığını əminliklə dilə gətirirlər. Doğrudan da, ikitərəfli münasibətlərdəki enişli-yoxuşlu dövrün səmimi qonşuluq, qarşılıqlı etimad atmosferinə köklənən yeni əməkdaşlıq yoluna qədəm qoymasını müşahidə etməkdəyik. Fikrimizcə, burada ən vacib məqam hər iki tərəfin münasibətlərin yalnız faydalı perspektivə hesablanmış müstəviyə köklənməsinə meyillənməsidir.**

## Azərbaycan–İran: sükutdan dinamizmə

*Əməkdaşlığın təməlində liderlərin siyasi iradəsi dayanır*



Mayın 18-19-da Tehranda keçirilən Dialoq Forumu Cənubi Qafqazdan tutmuş Yaxın Şərqə, Orta Asiyadan Avropaya qədər müxtəlif ölkələrdən nümayəndələrin iştirakı ilə regional və qlobal məsələlərin müzakirə olunduğu siyasi platformaya çevrildi. İran Prezidenti Məsud Pezeşkianın açdığı forumda dünyanın 53 ölkəsindən rəsmilər, tanınmış ekspertlər və jurnalistlər iştirak edirdi. “Bu gün regionda sülh üçün ideal şərait yaradılıb. Hətta deyə bilərik ki, regionda faktiki sülh və sabitlik hökm sürür. Azərbaycan əlindən gələni edəcək ki, regionda tam və yekun sülh bərqərar olsun”. Bu sözləri Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Tehran Dialoq Forumunun panelində deyib. Bu barədə, o, həmçinin “3+3” formatının əhəmiyyətini, bölgədə regional təşkilatların funksionallığının artırılmasının vacibliyini qeyd edib. Tehran Dialoq Forumundakı çıxışında iki ölkə arasında tərəfdaşlıq üçün birlikdə modellər yaradıb inkişaf etdirilməsini xüsusi vuğulayan H.Hacıyev, həmçinin Azərbaycanda həyata keçirilən iqtisadi islahatlardan və beynəlxalq əhəmiyyət daşıyan infrastruktur layihələrdən söz açıb. Bu əsnada, o, Avrasiyanın nəqliyyat dəhlizinə yeni çalarlar qatacaq Şimal–Cənub layihəsinin əhəmiyyətinə toxunub: “Özümüz üçün yeni təhlükəsizlik arxitekturası qurmağa çalışmalıyıq və həyata keçiriləcək layihələri müəyyənləşdirməliyik”.

*(ardı 5-ci səhifədə)*

## Dünya beşdən böyükdür

*Bəs BMT bu gerçəkliyə hazırdırmı?*

**Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş katibi Antoniu Quterreşin son çıxışları bir daha təşkilatın dərin böhran içində olduğunu sübut edir. İdarəetmə strukturunun optimallaşdırılması, xərclərin azaldılması və effektivliyin artırılması ilə bağlı bəyanatlar verilsə də, bu, əslində, aysberqin yalnız görünən hissəsidir. Reallıq odur ki, BMT-nin problemi nə təkcə maliyyədir, nə də bürokratiya. Əsas məsələ – bu qurumun qlobal və regional münaqişələrin həllində təsirli olmaması, siyasi iradəsizlik və ədalətsiz təmsilçilik mexanizmidir.**




Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan BMT-yə qarşı sərt və cəsarətli tənqidlər səsləndirən liderlərdir. Onlar illərdir beynəlxalq münasibətlərdə mövcud olan ədalətsizliklərə, xüsusilə də BMT sistemindəki struktur problemlərə diqqət çəkirlər. Türkiyə Prezidentinin “Dünya beşdən böyükdür” deyimi qlobal ədalətsizliyin və beynəlxalq sistemin dəyişməsinə olan çağırışın simvoluna çevrilib. Ərdoğan bu ifadə ilə İkinci dünya müharibəsindən sonra formalaşan və bugünədək dəyişməyən BMT Təhlükəsizlik Şurası strukturunun XXI əsrin tələblərinə cavab vermədiyini açıq şəkildə vurğulayır.

*(ardı 4-cü səhifədə)*

## Hindistan “düşməninin dostu”nu “düşmən”ə çevirmək istəyir




## Ermənistan faşizminin kökünü kəsmək üçün...

*Sarkisyan və Koçaryan Bakıya gətirilməli, Oskanyan isə layiq olduğu yerə göndərilməlidir*




## TRACECA – Avropanı Asiya ilə qovuşduran Qafqaz yolu



# Azərbaycan Respublikası vətəndaşlarının 2025-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

*Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

**1.** 2007-ci ildə doğulmuş və çağırış günündək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1995–2006-cı illərdə doğulmuş, yaşı 30-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2025-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

**2.** “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2025-ci il iyulun 1-dən 30-dək ehtiyata buraxılsınlar.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 may 2025-ci il**

# Sahibə Qafarova İspaniyada



**Milli Məclisin sədri Sahibə Qafarova İspaniya Krallığına rəsmi səfəri çərçivəsində həmin ölkə Senatının sədri Pedro Rollanla görüşüb.**

Görüş zamanı Senat sədri Pedro Rollan ölkələrimiz arasında münasibətlərin daha da genişləndirilməsində maraqlı olduqlarını söyləyib.

Senatın sədri Azərbaycanın iqtisadi inkişaf göstəricilərini təqdir edərək, ispan şirkətlərinin ölkəmizdə, xüsusilə nəqliyyat sahəsində fəaliyyətini dəstəklədiklərini vurğulayıb. O, ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığı da yüksək qiymətləndirdiklərini söyləyib.

Milli Məclisin sədri Sahibə Qafarova öz növbəsində Azərbaycanla İspaniya arasında bir sıra sahələrdə əməkdaşlığın uğurlu inkişafını qeyd edib. Milli Məclisin sədri son dövrlərdə siyasi əlaqələrin inkişafında müsbət dinamikanın müşahidə olunduğunu bildirərək, İspaniya Krallığı Hökumətinin sədri Pedro Sançezin COP29 çərçivəsində ölkəmizə səfəri, Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü və həmin görüş zamanı əlaqələrin inkişafı üzrə əldə olunmuş razılıqları qeyd edib.

Söhbət zamanı spiker Sahibə Qafarova parlamentlər arasında əməkdaşlığın inkişafının əhəmiyyətini vurğulayıb. Bu çərçivədə parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin önəmi diqqətə çatdırılıb. Görüşdə, eyni zamanda, parlament komitələri arasında əməkdaşlığın qurulması barədə də fikir mübadiləsi aparılıb.

Görüşdə multikultural dəyərlərə hörmətin Azərbaycanla İspaniyanı birləşdirən xüsusiyyətlərdən biri olduğu da vurğulanıb.

***XQ***

# Azərbaycan heyəti Kazanda Beynəlxalq İqtisadi Forumda



**Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin başçılıq etdiyi nümayəndə heyəti “Rusiya–İslam dünyası: Kazan Forum-2025” XVI Beynəlxalq İqtisadi Forumunda iştirak edib.**

Builki forum “Rəqəmsallaşma: yeni reallıq və əməkdaşlığın genişləndirilməsi üçün əlavə imkanlar” mövzusuna həsr olunub. Kazan Forumunun müxtəlif platformalarında beynəlxalq tərəfdaşlıq, maliyyə və investisiyalar, nəqliyyat logistikası, turizm, təhsil, tibb sahələri üzrə əməkdaşlıq məsələləri müzakirə edilib.

Azərbaycan Baş nazirinin müavini plenar iclasda iştirak edib və Azərbaycanda rəqəmsallaşmanın inkişafı, ölkədə bu sahədə həyata keçirilən layihələr barədə ətraflı məlumat verib.

Səfər çərçivəsində Şahin Mustafayev yüksəkvəzifəli rəsmi şəxslərlə bir sıra ikitərəfli görüşlər keçirib. Rusiya Baş nazirinin müavini Aleksey Overçuk, Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov, Özbəkistan Baş nazirinin müavini Cəmşid Xocayev, həmçinin “DP World” şirkətlər qrupunun sədri və baş icraçı direktoru Sultan Əhməd bin Sulaim ilə danışıqlar aparılıb.

Görüşlərdə ölkələr arasında iqtisadi əməkdaşlığın perspektivləri, o cümlədən ikitərəfli və çoxtərəfli əlaqələrin inkişafı, nəqliyyat-logistika imkanlarının genişləndirilməsi, regional qurumlar arasında qarşılıqlı əlaqələrin gücləndirilməsi məsələləri müzakirə olunub. Ticarət, investisiya və rəqəmsal texnologiyalar sahələrində birgə təşəbbüslərə xüsusi diqqət yetirilib.

Nümayəndə heyəti Forum çərçivəsində məhsul və xidmətlər sahəsində milli nailiyyətlərin nümayiş etdirildiyi “Russia Halal Expo” beynəlxalq sərgisində təqdim olunan Azərbaycan stendinə də baş çəkib.

***XQ***

# Hikmət Hacıyev Tehran Dialoq Forumunda

*Prezidentin köməkçisi məclisdə iştirak edib, görüşlər keçirib*



**Mayın 18-də Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Tehranda keçirilən Dialoq Forumu çərçivəsində İranın Milli Təhlükəsizlik üzrə Ali Şurasının sədri Əli Əkbər Əhmədian ilə görüşüb.**

Görüşdə qarşılıqlı əlaqələrin inkişafı və regional təhlükəsizlik məsələləri müzakirə olunub.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*




Azərbaycan ilə İran iqtisadi əməkdaşlıq əlaqələrini davam etdirməli və gücləndirməlidir. Biz Avrasiya regionunda inkişaf edən xoşbəxt ölkəyik. Bizim Türkiyə, Rusiya və İran ilə çoxtərəfli əməkdaşlıq əlaqələrimiz var.

Bu sözləri Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Dialoq Forumunda çıxış edərkən deyib.

Bu xüsusda o, 3+3 formatının əhəmiyyətinə toxunub. Bölgədə regional təşkilatların funksionallığının artırılmasının vacibliyini qeyd edərək, İqtisadi Əməkdaşlıq Təşkilatının, AQEM-in və İslam Əməkdaşlıq Təşkilatının fəaliyyətini vurğulayıb. “Biz İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində də İranla əməkdaşlıq edirik. Çünki İslam həmrəyliyi prinsipi bizim üçün vacibdir”, - deyə H.Hacıyev əlavə edib.

Azərbaycan ilə İranın ortaq tarixi keçmişə malik olduqlarını söyləyən Prezidentin köməkçisi bildirib: “Biz tərəfdaşlıq üçün birlikdə modellər yaradıb inkişaf etdirə bilərik. Kimlərinsə bizim üçün nizam yaratmasına imkan verməməliyik, özümüz firavanlıq, inkişaf haqqında düşünməliyik”.

Hikmət Hacıyev, həmçinin Azərbaycanda həyata keçirilən iqtisadi islahatlardan və beynəlxalq əhəmiyyət daşıyan infrastruktur layihələrdən danışıb. Vurğulayıb ki, biz özümüzə və tərəfdaşlarımıza fayda vermək üçün real imkanlardan istifadə etməliyik.



Bu xüsusda o, Avrasiyanın nəqliyyat dəhlizini yenidən tərtib edən Şimal-Cənub layihəsinin əhəmiyyətinə toxunaraq deyib: "Özümüz üçün yeni təhlükəsizlik arxitekturası qurmağa çalışmalıyıq və həyata keçiriləcək layihələri müəyyənləşdirməliyik”.

H.Hacıyev Fələstinlə bağlı suala cavabında isə qeyd edib: "İslam Əməkdaşlıq Təşkilatı mövcud olan ən mühüm təsisatlardan biridir. Azərbaycan da ədalətə və beynəlxalq hüquqa əsaslanan İslam həmrəyliyini dəstəkləyir. Biz Fələstin məsələsinin BMT-nin qərarları və qətnamələri əsasında "iki dövlət" prinsipi əsasında həllini dəstəkləyirik.

Azərbaycan malik olduğu fərqli geosiyasi kimliyi əsasında fərqli regionlarda aktiv diplomatik fəaliyyət aparır - Cənubi Qafqaz, Xəzər və Qara dəniz hövzəsi, postsovet məkanı, Mərkəzi Asiya, Yaxın Şərq və sair”.

Azərbaycan ilə Ermənistan arasında sülh sazişinə də münasibət bildirən Prezidentin köməkçisi vurğulayıb: “İndi Azərbaycan regionda yeni status-kvo və reallıq yaradıb. Sülh üçün münbit şərait var. Qazandığımız Qələbə xalqımızın qanı bahasına başa gəlib. Azərbaycanla Ermənistanın münasibətlərində hərbi elementlər - xüsusilə hərbi təcavüz və işğal gündəlikdən çıxarılıb. İşğala hərbi-siyasi vasitələrlə son qoyulub.

Azərbaycan regionu sülh və sabitliyə doğru aparmaq istəyir. Biz bilirik ki, konstitusiya hər bir ölkənin daxili işidir, bir şərtlə ki, başqa ölkə üçün təhlükə yaratmasın, ərazi iddiaları olmasın. Ermənistanın konstitusiyasında Azərbaycanla bağlı ərazi iddiası hələ də var və bu müddəa oradan çıxarılmalıdır. Regional məsələlər region ölkələrinin özləri tərəfindən həll olunmalıdır. Təəssüf ki, bəzi xarici qüvvələr regiona müdaxilə etməyə, geosiyasi intriqalar aparmağa cəhd edirlər. Müasir dövrdə beynəlxalq münasibətlər sistemində gərginliklər və qeyri-konstruktiv proseslər müşahidə edilir".

*

Prezidentin köməkçisi – Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev “X”dəki hesabında İran İslam Respublikasında keçirdiyi görüşlərlə bağlı paylaşımlar edib. Paylaşımda bildirilir:

“Tehran Dialoq Forumunda "təkbətək" formatında çıxış etməkdən və Prezident Məsud Pezeşkianın Azərbaycana səfəri çərçivəsində yeni qlobal nizam, regional məsuliyyət və inklüzivlik, Azərbaycan-İran ikitərəfli əməkdaşlığının daha da möhkəmləndirilməsi və keyfiyyətcə yeni səviyyəyə qaldırılması və Cənubi Qafqaz regionunda sülhün və sabitliyin möhkəmləndirilməsi barədə danışmaqdan məmnunam”.

H.Hacıyev İran Prezident Administrasiyasının siyasi şöbəsinin müdir müavini Mehdi Sənai ilə görüşü barədə yazıb: “Həmkarım Mehdi Sənai ilə və İranın Milli Təhlükəsizlik Şurasının katibi Dr. Əkbər Əhmədianla İran Prezidentinin Azərbaycana səfərinin davamı olaraq ölkələrimiz arasında ikitərəfli dostluq əlaqələrinin hazırkı vəziyyətini və gələcək inkişaf perspektivlərini nəzərdən keçirdik”.

***XQ***

# Milli QHT Forumunun media hesabatı

**Dünən Azərbaycan Milli QHT Forumunun İdarə Heyəti 1 illik fəaliyyətinə dair ictimai hesabat xarakterli mətbuat konfransı keçirib.**



İdarə Heyətinin sədri Ramil İskəndərli ötən il mayın 15-də keçirilmiş Azərbaycan Milli QHT Forumunun Ümumi Yığıncağının təsisatın həyatında tamamilə yeni səhifə açdığını, keyfiyyət mərhələsi yaratdığını bildirərək deyib: “Milli QHT Forumu vətəndaş cəmiyyətinin ideya generatoruna çevrilib. Bu qurum beynəlxalq miqyasda da yaxşı tanınan və qəbul edilən nüfuzlu təşkilatdır. İdarə Heyətinin 2 üzvü son parlament seçkilərində Milli Məclisin üzvləri seçiliblər”.

Toplantıda Azərbaycan Milli QHT Forumunun Qlobal Cənub QHT Platformasının təsis olunması barədə çağırışına 120 ölkənin yer aldığı Qoşulmama Hərəkatı regionunun 116 ölkəsinin dəstək verdiyi, bu ölkələrin hər birindən aparıcı QHT-lərin iştirakı ilə 2025-ci il aprelin 28-də Bakıda Qlobal Cənub QHT Platformasının təsis olunduğu vurğulanıb.

Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin üzvü Zaur İbrahimli Qlobal Cənub QHT Platformasının Qoşulmama Hərəkatının QHT şəbəkəsi adını daşımağa tam haqqı olduğunu qeyd edib. İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvanə Vəliyeva xatırladıb ki, Qlobal Cənub QHT Platforması məhz COP29-un qalıcı töhfəsidir.

İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Azər Allahverənov, bildirib ki, Milli QHT Forumu 2026-cı ildə Bakıda keçiriləcək Dünya Şəhərsalma Forumuna da ciddi hazırlaşır. Forumun təşəbbüsü ilə 2025-ci il martın 12-də “WUF13 QHT Koalisiyası” təsis olunub. Hibrid formatda keçirilən təsis konfransına 18 ölkədən 25 xarici QHT qatılıb. İdarə Heyətinin üzvü Xatirə Vəliyeva söyləyib ki, Forum QHT-lərlə əlaqədar qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində də iş aparır, ictimai müzakirələr təşkil edir.

Sonda Milli QHT Forumunun İdarə Heyəti qarşıdakı dövrdə yerli və beynəlxalq miqyasda vətəndaş cəmiyyətinin inkişafına yeni töhfələr veriləcəyini vurğulayıb.

***XQ***

# Macarıstan Türk dünyasına qədim tarixi köklərlə bağlıdır

**Macarıstan bizim Avropa İttifaqındakı bir nömrəli tərəfdaşımızdır və bəzi hallarda Azərbaycana qarşı əsassız ittihamlar irəli sürüləndə birinci bizim müdafiəmizə Macarıstan qalxır. Bilirəm ki, buna görə Macarıstan da bəzi Avropa ölkələri tərəfindən təzyiqlərlə üzləşir. Ancaq Macarıstanın prinsipial mövqeyi, haqqın, ədalətin yanında olması, beynəlxalq hüquqa hörmətlə yanaşması onun beynəlxalq nüfuzunu böyük dərəcədə artırır.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**



*(əvvəli 1-ci səhifədə)*

Təbii ki, beynəlxalq aləmdə davam edən ictimai-siyasi proseslər fonunda, xüsusən, sonu görünməyən münaqişələrin müəmmalı sabahı haqqında bədbin proqnozların baş alıb getdiyi günlərdə bu qəbildən olan tədbirlərin keçirilməsinin Türk dünyası üçün olduqca böyük əhəmiyyəti var. Elə tədbirdən əvvəl yayılan məlumatlarda da qeyd edilir ki, zirvə görüşü çərçivəsində üzv ölkələr arasında iqtisadi, siyasi və mədəni əlaqələrin inkişafı, o cümlədən regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılacaq. Təşkilatın gələcək fəaliyyət istiqamətləri və birgə layihələrlə bağlı qərarların qəbul ediləcəyi gözlənilir. Bəzi ekspertlərin fikrincə, bu zirvə görüşü hamıdan çox Macarıstan üçün maraqlıdır. Çünki Macarıstan 2018-ci ildən bəri Türk Dövlətləri Təşkilatında müşahidəçi statusuna malikdir və son illərdə təşkilatla əlaqələrini daha da gücləndirir.

Elə Budapeştdə də etiraf edirlər ki, yeddi il TDT-də müşahidəçi dövlət kimi çıxış edən Macarıstan Türk dünyası ilə Avropa arasında körpü, ənənəvi sərhədləri aşan dialoq və əməkdaşlıq üçün qapı rolunu oynayır. Türk Dövlətləri Təşkilatının Macarıstan nümayəndəliyinin icraçı direktoru Balazs Hendrich Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin təşkilatçılığı ilə Türkçülük Günü münasibətilə keçirilən "Dildə, fikirdə, əməldə birlik: Türk Dünyasının gələcəyi" adlı panel iclasında deyib ki, Macarıstanın Türk Dövlətləri Təşkilatındakı iştirakı dərin tarixi, dil və mədəni əlaqələrə əsaslanır: "Budapeştdəki nümayəndəliyimiz, sadəcə olaraq, inzibati bir qurum deyil. O, həm də mədəni mübadilə, iqtisadi tərəfdaşlıq və akademik əməkdaşlıq üçün mərkəzdir. Bu nümayəndəlik Macarıstanın Türk dünyasının dəyərlərinə və gələcəyinə sadiqliyini və TDT-nin coğrafi hüdudlardan kənara çıxan inklüziv baxışını nümayiş etdirir. Budapeşt ofisi Türk dünyasından kənarda yaradılmış ilk belə mərkəzdir və TDT üzv dövlətləri ilə Avropa İttifaqı arasında iqtisadi və ticarət tərəfdaşlıqlarının asanlaşdırılması, mədəni və təhsil mübadiləsinin təşviqi, o cümlədən təqaüdlər, birgə tədqiqatlar və gənclər proqramlarını, türk diasporunu dəstəkləк, Avropadakı türklər arasında icma ruhunu gücləndirmək məqsədini daşıyır".

Azərbaycanda isə hamıya məlumdur ki, rəsmi Budapeştin Türk Dövlətləri Təşkilatında oynadığı rol, bu ölkənin Türk dünyasına inteqrasiyası cənab Baş nazir Viktor Orbanın qətiyyəti və müstəqil siyasət yürütmək əzmi nəticəsində mümkün olmuşdur.

Heç kəsin yadından çıxmayıb. TDT-nin ötən ilin iyul ayında Şuşada keçirilən qeyri-rəsmi sammitində Viktor Orbanın da iştirak etməsi Qərbdə olduqca böyük qıcıqla qarşılanmışdı. Hətta Avropa İttifaqının xarici işlər üzrə komissarı Cozep Borrell bəyanat vermişdi ki, Viktor Orbanın Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi sammitində təmsil etmək səlahiyyəti yoxdur. Ancaq politoloqlar deyirlər ki, cənab Orban TDT tədbirində Avropa İttifaqının təmsilçisi kimi deyil, TDT-da müşahidəçi statusuna malik olduğuna görə həmin görüşdə iştirak etmişdir. Üstəlik, Avropa İttifaqının üzv ölkələrə başqa təşkilatda təmsil olunmağı qadağan edən hüququ yoxdur.Yəni, ona qarşı irəli sürülən ittihamlar tamamilə əsassız və yersizdir.

Avropa İttifaqı rəsmisinin həmin hikkə dolu iddiasına səbr və təmkinlə cavab verən Viktor Orban demişdi: "Bəlkə sizdən soruşmalıyıq, cənab Borrell, harada nahar edəcəyik? Türk Dövlətləri Təşkilatında görüşmək Macarıstanın strateji maraqlarına uyğundur".

Yeri gəlmişkən, mütəxəssislər yazırlar ki, Macarıstan XVI əsrə qədər Avropada əsas aparıcı siyasi güc idi. Görünən odur ki, aradan keçən 500 ildən sonra rəsmi Budapeşt Viktor Orbanın timsalında Avropa siyasətində istiqamət verməyə və aparıcı güc olmağa qərarlıdır. O, bütün hallarda Avropada real işlər görməyi bacaran nadir liderlərdəndir.

Xatırladaq ki, əvvəlki adları Türk Şurası, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası olan TDT 2009-cu il oktyabrın 3-də Naxçıvanda təsis edilmişdi. O zaman "Biz birlikdə daha güclüyük!" şüarı ilə yaradılan qurumun təsisçiləri Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan dövlətləri idi. Sonra (2018-ci ildə) Özbəkistan da bu quruma üzv oldu. Daha sonra isə Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikası da bu quruma müçahidəçi üzv statusu ilə qoşulmuşdur.



Bu gün Türk Dövlətləri Təşkilatının üç mərkəzi var. Bunlar İstanbul, Bakı və Astanadır. İstanbul ümumi katibliyin, Bakı parlamentar assambleyanın, Astana isə Beynəlxalq Türk Akademiyasının mərkəzidir. Daha maraqlı olan məqamlardan biri də odur ki, bu qurumun bayrağı 22 avqust 2012-ci ildə Bişkekdə təşkil olunan Türk Şurasının II Zirvə görüşündə qəbul edilmişdir. Həmin bayraq 12 oktyabr 2012-ci ildə isə İstanbulda üzv ölkələrin bayraqları ilə birlikdə dalğalandırılmışdır. Bayrağın dizaynı üzv ölkələrin bayraqlarında olan elementlərin bir araya gətirilməsi ilə yaradılmışdır. Belə ki, həmin bayrağın dizaynı zamanı Azərbaycan bayrağının ulduzundan, Qazaxıstan bayrağının rəngindən, Qırğızıstan bayrağının Günəşindən və Türkiyə bayrağının ayparasından istifadə edilmişdir.

Bu sətirləri Azərbaycan Prezidenti İlham Əliyevin Türk dünyası barədə söylədiyi fikirlərlə yekunlaşdırırıq. Dövlət başçımız 2022-ci il noyabrın 11-də Türk Dövlətləri Təşkilatının Səmərqənddə keçirilən IX Zirvə görüşündəki nitqində demişdir: "Türk dünyası 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə edir və böyük iqtisadi potensiala, enerji resurslarına, nəqliyyat yollarına və müasir hərbi imkanlara malikdir. Türk dünyası böyük bir ailədir. Bir-birimizin milli maraqlarını nəzərə alaraq bundan sonra da qarşılıqlı dəstək və həmrəylik göstərməliyik. Siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə və müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığımızı fəallaşdırmalıyıq".

***İttifaq MİRZƏBƏYLİ***

# Ermənistan faşizminin kökünü kəsmək üçün...

## *Sarkisyan və Koçaryan Bakıya gətirilməli, Oskanyan isə layiq olduğu yerə göndərilməlidir*

**Ermənistandakı faşizmin kökü kəsilməlidir. Belə bir fikri həm Prezident İlham Əliyev vurğulayıb, həm də ümumən Azərbaycan ictimaiyyətinin qənaəti bundan ibarətdir. Hay cəmiyyətində, eləcə də siyasi mühitində yaşananlar da məsələyə həssas yanaşılmasının vacibliyini göstərir. Hesab edirik ki, mövcud məqama, bütövlükdə dünya birliyi də eyni həssaslıqla yanaşmalıdır. İkinci dünya müharibəsindən sonra alman nasizminin və onunla bağlı hər şeyin məhvinə prinsipial yanaşdığı kimi.**





Deməli, Ermənistanın sabiq xarici işlər naziri Vardan Oskanyan yenə yuyulmamış çömçə kimi ortaya düşüb. Onun "fəallaşmasına" səbəb isə Azərbaycan və Ermənistan liderlərinin Avropa Siyasi Birliyinin Tiranada keçirilmiş 6-cı sammitindəki təmasları və bu təmaslar fonunda müsbət mənzərənin müşahidə edilməsi, habelə Cənubi Qafqazda sülh gündəliyinin önə çıxmasıdır. Hiss olunur ki, Vardan durumdan çox narahatdır. O narahatdırsa, deməli, bütövlükdə Ermənistandakı revanşist-şovinist kəsimin, həmçinin bu kəsimin xaricdəki havadarlarının kürklərinə birə düşüb.

Əlqərəz, V.Oskanyanın sərsəmləmələrinə diqqət yetirəcəyik. Diqqət yetirəcək və sonda Ermənistandakı faşizmin məhvi ilə bağlı əvvəldə irəli sürdüyümüz fikrin zəruriliyini vacib edən daha bir məqamdan söz açacağıq. Hələlik isə bildirək ki, sabiq erməni XİN rəhbərinin dedikləri Paşinyanın Tiranadakı davranışının Ermənistan üçün alçaldıcı durum formalaşdırdığını vurğulamağa söykənib. Bu yolla V.Oskanyan daxildəki revanşistləri qızışdırmaq niyyətindədir. O bildirib ki, Paşinyan Tiranada "Bakıda saxlanılan erməni məhbuslar məsələləsindən", "Qarabağın erməni əhalisinin deportasiyasından", onların geri qayıdış hüququndan söz açmadı və acizlik göstərdi. Həqiqətən, ASB-nin kluarlarında ənənəvi erməni klişeləri üzərinə nəinki gəlinmədi, ümumən "köhnə qitə"nin erməni təəssübünü xarakterizə edən kiçik bir detal belə nəzərə çarpmadı və mövcud durum, şübhəsiz, Azərbaycanın böyük uğurudur.

Ümumən, "erməni kartı"nın gündəmdə olmamasına hazırkı hay iqtidarının səriştəsizliyi kontekstində yanaşıla bilər. Amma belə qiymətləndirmə tam obyektiv olmaz. Çünki Azərbaycan tamam fərqli ampluadadır. Hərbi qüvvə nisbəti baxımından Bakı ilə İrəvan arasında böyük fərq olduğu kimi, eyni fərq diplomatik və siyasi müstəvidə də özünü göstərməkdədir. Həm erməni iqtidarı, həm də bütövlükdə erməni cəmiyyəti və siyasi kəsimi durumla barışmalıdır və bu, ən optimal variantdır.

Oskanyan və onun kimilərin dilə gətirdikləri tezislər isə necə deyərlər, divara kəllə atmaq kimi bir şeydir. Belələri "erməni kitabı"nın bağlandığını anlamaq istəmirlər. Az-çox reallığı görən Paşinyan və onun komandasıdır ki, bu düşərgənin üzvlərinin də müxtəlif xarici vədlər qarşısında illüziyaya qapıldığını görürük. Erməni hakim komandasının Oskanyan kimilərinin uydurduqları saxta klişelərlə hərəkət etdikləri də diqqətdən yayınmır.

Oskanyanların xüsusi pafosla, ucuz "populizm zəngiləri" ilə vurğuladıqları budur ki, Ermənistan vəziyyətlə barışmamalı, Azərbaycana qarşı mübarizə aparmalıdır. Görünür, hay nasistləri indiyədək olanlardan, minlərlə erməni gəncinin özgə torpağında – Qarabağda canını tapşırmasından nəticə çıxarmır, miflərdə və əsatirlərdə yaşayaraq, ətrafa tipik erməni xəstəliyinə xas simptomları yayırlar. Guya, ədalətli sülh axtarırlar. Ədalətli sülh isə Qarabağın erməni varlığının olmasında imiş. Böyük ölçüdə bölgənin erməniləşməsində, gələcəkdə Ermənistanın tərkibində yer almasında. Bir sözlə, siyasi xəstələr yığını üçün ədalətli sülh 1988-ci ilin "Miatsum" sərsəmliyinə əsaslanır.

Oskanyan onu da bildirib ki, Paşinyanın aciz davranışı Azərbaycanı ruhlandırır. Halbuki, ölkəmiz ya Nikolun, ya da onun komandasındakı kiminsə aciz duruma düşməsindən dividend qazanmağı hədəflәmir. Bəsit yanaşma yalnız Oskanyanın saxta diplomatiyasının məhsulu ola bilər. Digər tərəfdən, Vardanın "diplomatikliyinin" məqsədi başqadır. Yəni, onu Ermənistan və ölkənin gələcəyi düşündürmür. Bu məxluqu düşündürən, nəyin bahasına olursa-olsun, Nikolu devirməkdir. Ona görə "Paşinyan siyasi gələcəyini xilas etmək üçün təcili olaraq sülh sazişi imzalamalıdır" kimi fikri qabardır. Sən demə, Azərbaycan sülh istəmirmiş, çünki ölkəmiz barış sazişinin erməni xalqı ilə deyil, Paşinyan hakimiyyəti ilə imzalandığının fərqinə varırmış...

Nəhayət, V.Oskanyan "İndiki şəraitdə sülhdən danışmaq məğlubiyyətlə barışmaqdır. Erməni xalqının yaralarına, deportasiyasına, onlara qarşı törədilmiş cinayətlərə məhəl qoymayan hansısa sağlam düşüncəli rəhbər belə bir sənədi necə barışıq yolu kimi təqdim edə bilər? Qanuni hakimiyyət ədalətdən məhrum olan sənədə necə imza ata bilər?", – deyərək özünün əsl niyyətini ortaya qoyub. Onun daha nələri bildirməsindən söz açmağa lüzum görmürük. Çünki, prinsipcə, tutuquşu kimi həmişə səsləndirdiklərini təkrarlayır. Bu səbəbdən bilavasitə əvvəldə üzərində dayandığımız zərurətdən söz açaq. Yəni, Ermənistandakı faşizmin məhvinə duyulan ehtiyacdan. Söz açaq və xatırlayaq.

Prezident İlham Əliyev bu il yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində diqqəti Ermənistanın, faktiki olaraq, bölgə üçün təhdid mənbəyi olduğuna yönəltmiş və bildirmişdi ki, müstəqil Ermənistan dövləti, əslində, faşist dövlətdir. Çünki ölkəyə 30 ilə yaxın müddətdə bu ideologiyanın daşıyıcıları rəhbərlik ediblər və onlar cəmiyyəti özləri kimi formalaşdırıblar. Azərbaycanın faşist dövlətlə qonşu olduğunu və faşizm təhlükəsinin sovuşmadığını xatırladan Prezident Əliyev bunları da vurğulamışdı: "Ona görə faşizm məhv edilməlidir. Bunu ya Ermənistan rəhbərliyi məhv edəcək, ya da biz məhv edəcəyik. Bizim başqa çarəmiz yoxdur".

Birmənalı şəkildə demək olar ki, V.Oskanyan da erməni faşizminin nümayəndələrindəndir. Hesab edirik ki, yalnız belə sərsəm ideologiyanın daşıyıcısı olan biri bu cür fikir səsləndirə bilərdi: "Demokratik legitimliyə malik olan və milli maraqları rəhbər tutan Ermənistanın gələcək hökumətinin, şübhəsiz ki, bu sənədə (Azərbaycan və Ermənistan arasındakı sülh sazişi nəzərdə tutulur – red.) yenidən baxmağa hər cür hüquqi və mənəvi haqqı olacaq. Müharibə təhlükəsi, işğal altında və xalqın hüquqlarına tam məhəl qoymadan imzalanmış müqavilələr sülh müqaviləsi deyil. Bunlar məcburiyyət alətləridir. Onlar sülh gətirmir, ancaq ədalətsizliyi qanuniləşdirir. Paşinyanın ümidsizliyi sülh istəyi deyil. Bu, xəyanətdir: tarixə, fədakarlığa və erməni dövlətçiliyi ideyasına xəyanətdir. Həqiqətən öz adına layiq olan sülh sazişi tabeçilik deyil, bərabərliyə əsaslanmalıdır".

Yəni, Oskanyan deyir ki, sabah Paşinyan hakimiyyətdən getsə, onun yerinə gələcək yeni lider Nikolun Azərbaycanla imzaladığı sülh müqaviləsini tanımayacaq. Bəli, bir daha məlum olur ki, Prezident İlham Əliyevin erməni faşizminin məhvinə dair vurğuladıqları məqamlar yerində imiş. Sonda qeyd edək ki, oskanyanların və digər onun kimi avantürist zehniyyət daşıyıcılarının Ermənistanda qalmaları, onlara hansısa formada meydan verilməsi böyük təhlükədir. Yəni, Paşinyan hakimiyyəti belələri, eləcə də onların ağaları – sarkisyanlar və koçaryanlar barədə ciddi tədbir görməli, mövcud istiqamətdə prinsipial yol tutmalıdırlar. Bu yol tutulmursa və ya acizlik göstərilirsə, deməli, Azərbaycan regionun aparıcı qüvvəsi kimi, bütövlükdə, Cənubi Qafqazı təhdid edən, bölgənin inkişafının qarşısında sədd çəkən erməni faşizmini tarixin arxivinə gömmək haqqını özündə saxlayır. Oskanyan balaca fiqurdur, rəsmi İrəvan, faşizmlə mübarizəyə sabiq prezidentlər – Xocalı cəlladları Serj Sarkisyanı və Robert Koçaryanı Azərbaycana təhvil verməklə başlamalıdır. Tam aydındır ki, son zamanlar xüsusi "fəallıq" göstərən bu "balıqların" sıradan çıxarılması Vardan kimi çömçəquyruqları çıxdıqları siçan dəliklərinə geri qaytaracaq.

***Ə.RÜSTƏMOV***
***XQ***

(əvvəli 1-ci səhifədə)

Azərbaycan Prezidenti İlham Əliyev isə öz çıxışlarında bu mövqeyi daha da konkretləşdirərək BMT-nin xüsusilə Təhlükəsizlik Şurasının tərkibinin dəyişməsinin zəruriliyini önə çıxarır. O, xüsusilə 2019–2023-cü illərdə Azərbaycan Respublikasının Qoşulmama Hərəkatına uğurlu sədrliyi çərçivəsində bu platformadan istifadə edərək beynəlxalq təşkilatlarda təmsilçilik prinsipinin genişləndirilməli olduğunu bəyan edib. İlham Əliyevin təklifi təkcə tənqidə yox, eyni zamanda, alternativ həll yollarına əsaslanırdı. O, BMT Təhlükəsizlik Şurasında rotasiya əsaslı şəkildə Afrika İttifaqına, Qoşulmama Hərəkatına və İslam Əməkdaşlıq Təşkilatına daimi yerlərin ayrılmasını təklif edib. Ən diqqətçəkən məqamlardan biri isə bu yerlərə veto hüququnun verilməsi təklifidir ki, bu da



# Dünya beşdən böyükdür



qlobal Cənub ölkələrinin səsini daha güclü və təsirli şəkildə çatdırmaq üçün mühüm addım ola bilər.

İlham Əliyevin və Ərdoğanın yanaşmaları, eyni zamanda, prinsipial və realistdir. Onların çıxışlarında ideoloji baxışlarla yanaşı konkret təkliflər də yer alır. Belə bir islahat modeli BMT-nin iflic vəziyyətinə düşmüş mexanizmlərini yenidən canlandıra bilər. Çünki Təhlükəsizlik Şurası müasir dünyanın çoxqütblü və qarşılıqlı asılılıqlarla dolu reallığını əks etdirmədikcə, təşkilatın legitimliyi və effektivliyi getdikcə azalacaq. Elə bu baxımdan da rotasiya əsaslı, daha inklüziv və daha ədalətli nümayəndəlik mexanizmi həm etik, həm də funksional baxımdan labüddür.

1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən dörd qətnamə – 822, 853, 874 və 884 nömrəli sənədlər – Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ və ətraf rayonlarından dərhal, qeyd-şərtsiz və tam şəkildə çıxmasını tələb edirdi. Həmin qətnamələr beynəlxalq hüququn əsas prinsiplərinə, xüsusilə də, dövlətlərin suverenliyi və ərazi bütövlüyü prinsipinə əsaslanırdı. Ancaq bu sənədlər heç zaman icra olunmadı. Daha acınacaqlısı isə odur ki, beynəlxalq ictimaiyyət, xüsusilə də Təhlükəsizlik Şurasının daimi üzvləri bu qətnamələrin yerinə yetirilməsi üçün real siyasi və ya diplomatik təzyiq göstərmədilər.

Səssizlik və passivlik nəticə etibarilə Ermənistanın işğalını bir növ faktiki legitimliyə yaxınlaşdırdı. Yəni, BMT-nin hərəkətsizliyi, münaqişənin dondurulmasına və status-kvonun qorunmasına xidmət etdi. Halbuki, beynəlxalq hüquq və BMT-nin öz Nizamnaməsi münaqişələrin ədalətli və hüquqa uyğun şəkildə həll edilməsini nəzərdə tutur. Reallıqda isə bu prinsiplər kağız üzərində qalaraq, əmələ tətbiq olunmadı.

Azərbaycan beynəlxalq hüququn tələblərinə arxalanaraq və BMT qətnamələrinə əsaslanaraq 2020-ci ildə İkinci Qarabağ müharibəsi ilə öz ərazi bütövlüyünü hərbi yolla bərpa etmək məcburiyyətində qaldı. Azərbaycanın Qələbəsi nə BMT-yə qarşı bir addım idi, nə də beynəlxalq hüquqa zidd. Əksinə, Azərbaycanın bu addımı beynəlxalq hüququn qorunması və BMT qətnamələrinin gec də olsa reallıqda həyata keçirilməsi anlamına gəlirdi. Azərbaycan hərbi yolla etdiyi bərpa əməliyyatı ilə əslində, BMT-nin yerinə icraçı rolunu öz üzərinə götürdü.

Burada isə ciddi və haqlı bir sual meydana çıxır: Əgər BMT-nin qəbul etdiyi qətnamələr belə icra edilmirsə, bu təşkilatın funksional və hüquqi mahiyyəti nə ilə izah olunur? Yəni, kağız üzərində beynəlxalq hüququn təcəssümü olan bir qurum praktikada necə bu qədər təsirsiz ola bilər? Elə bu sual da təkcə Azərbaycanın yox, bir çox digər ölkələrin beynəlxalq hüquqa və beynəlxalq təşkilatlara inamını sarsıdan əsas məsələdir. Əgər BMT Təhlükəsizlik Şurası yalnız beş daimi üzvün siyasi maraqları çərçivəsində fəaliyyət göstərirsə, onda bu təşkilatın "qlobal təhlükəsizliyin təminatçısı" kimi qəbul olunması artıq sual altına düşür.

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası bugünkü forması ilə 1945-ci ildə İkinci Dünya müharibəsindən sonra formalaşmış beynəlxalq düzənin bir məhsuludur. O dövrdə müharibənin qalibi olan beş böyük dövlət – ABŞ, SSRİ (indiki Rusiya Federasiyası), Çin, Fransa və Birləşmiş Krallıq – bu orqanda daimi üzvlük və veto hüququ ilə təltif olundu. Onda bu yanaşma müharibədən çıxmış dünyanın stabilləşdirilməsi üçün keçici bir həll kimi qəbul edilə bilərdi və bu struktur dövrün geosiyasi reallıqları ilə formalaşmışdı, lakin bu günün çoxqütblü və dinamik beynəlxalq sisteminə cavab vermir.

2025-ci ilin dünyasında vəziyyət kökündən fərqlidir. Artıq nə müstəmləkə sistemləri mövcuddur, nə də dünya beş güc mərkəzi ilə məhdudlaşır. Yeni iqtisadi, siyasi və mədəni mərkəzlər yaranıb: Hindistan, Braziliya, Nigeriya, İndoneziya kimi ölkələr regional və qlobal məsələlərdə əsas söz sahiblərindən birinə çevrilib. Lakin bütün bu ölkələr, o cümlədən, bütöv Latın Amerikası, Afrika qitəsi və İslam dünyası Təhlükəsizlik Şurasında daimi təmsilçilikdən məhrumdur ki, bu da onların beynəlxalq qərar qəbuletmə prosesində səsini eşidilməz edir.

Nəticə isə aydındır: BMT TŞ "qlobal ədalət" prinsipi ilə deyil, "qlobal imtiyaz" loqikası ilə işləyir. Veto hüququna malik daimi üzvlər istədikləri qərarı keçirmək gücünə malikdir, istəmədiklərini isə bloklaya bilirlər. Mövcud vəziyyət BMT-nin əsas missiyası olan qlobal sülh və təhlükəsizlik təminatını faktiki olaraq monopoliyaya çevirir. Beynəlxalq ictimaiyyətin taleyi bu "qapalı klub"un siyasi iradəsinə bağlı qalır.

Ukrayna münaqişəsi, Yaxın Şərqdəki humanitar fəlakətlər, Qarabağ məsələsindəki uzunmüddətli passivlik – bütün bu nümunələr BMT Təhlükəsizlik Şurasının təsirsizliyini və qeyri-funksionallığını açıq şəkildə ortaya qoyur. Şura və konsensus əldə edə bilmir, ya da daimi üzvlərdən birinin vetosu səbəbindən heç bir real addım ata bilmir. Elə bu səbəbdən də dünya ictimaiyyətində BMT-yə olan inam sürətlə azalır, təşkilat isə daha çox formallıqlar üzərində dayanan, lakin nəticəsiz qalan bir struktur təsiri bağışlayır.

Əgər Təhlükəsizlik Şurası bu şəkildə fəaliyyətini davam etdirərsə, qlobal idarəetmə mexanizminin legitimliyi sual altına düşəcək və yeni alternativ platformaların yaranması qaçılmaz olacaq.

Antoniu Quterreşin "ağrılı və çətin qərarlar" ifadəsi, əslində, BMT-nin qarşıdakı islahatlarının yalnız texniki və struktur səviyyədə – büdcə, idarəetmə və texnoloji dəyişikliklər çərçivəsində aparılacağına işarə edir. Lakin dünya ictimaiyyəti artıq simvolik və səthi islahatlarla kifayətlənmək niyyətində deyil. Çağdaş beynəlxalq münasibətlər sistemi daha cəsarətli və mahiyyətcə transformativ dəyişikliklər tələb edir.

Əgər BMT yenidən nüfuzlu, etibarlı və funksional bir təşkilata çevrilmək istəyirsə, bu, yalnız forma deyil, məzmun dəyişiklikləri ilə mümkün olacaq. Təhlükəsizlik Şurasının tərkibində əks olunan 1945-ci ilin geosiyasi mənzərəsi bu günün reallıqlarına uyğunlaşdırılmalı, qlobal qərar qəbuletmədə daha geniş və ədalətli iştirak təmin olunmalıdır. Belə qənaətə gəlmək olar ki, bu yeni daimi üzvlərin əlavə olunması, regionların və inkişaf edən ölkələrin daha güclü təmsilçiliyi, eyni zamanda, veto hüququnun ya məhdudlaşdırılması, ya da daha inklüziv mexanizmlərlə yenidən tənzimlənməsi kimi addımlarla mümkün ola bilər.

Əslində, bu, təkcə təşkilati dəyişiklik deyil – bu, beynəlxalq ədalət və legitimliyin bərpası üçün bir fürsətdir. Əgər belə bir dönüş baş verməzsə, BMT-nin gələcəyi, onun təsir dairəsi və etibar qazanma şansı getdikcə zəifləyəcək, qlobal sabitlik üçün ciddi risklər yaranacaq.

Bugün BMT seçimin astanasındadır – ya köhnə status-kvonu qorumaqla inamsızlığı və təsirsizliyi ilə tarixdə qalacaq, ya da özünü yeniləyərək həqiqətən qlobal ədalətin tribunasına çevriləcək. Çağırışı ilk səsləndirənlərdən biri Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan oldu. Onların dediyi kimi, "dünya beşdən böyükdür" və gələcəyi bu beş dəyişməz qalacaqsa, dünya daha ədalətsiz və təhlükəli olacaq. BMT-nin taleyi indi təkcə dövlətlərin deyil, eyni zamanda, xalqların da gözlədiyi ədalət meyarının sınaq nöqtəsindədir.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Geosiyasi reallığın diktəsi və milli diplomatiyanın qələbəsi

## Azərbaycanın Avropa kursunda yeni mərhələ

**2025-ci il mayın 16-da Albaniyanın paytaxtı Tiranada keçirilən VI Avropa Siyasi Birliyi Zirvə toplantısı həm beynəlxalq münasibətlər kontekstində, həm də Azərbaycan diplomatiyasının uğurları baxımından mühüm əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin bu tədbirdə iştirakı təkcə rəsmi Bakının Ümumavropa siyasi platformasında fəal rol oynadığını deyil, həm də Avropa İttifaqı ilə münasibətlərdə yeni, daha dərin və praqmatik mərhələyə qədəm qoyduğunu göstərdi.**



Zirvə görüşü çərçivəsində Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel, Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayen və digərləri ilə keçirdiyi görüşlər Azərbaycanın artan geosiyasi rolunun təsdiqi oldu. Bu görüşlərdə Avropa enerji təhlükəsizliyində Azərbaycanın əvəzsiz rolu, Mərkəzi Asiya ilə Avropanı birləşdirən Orta Dəhliz layihəsindəki aparıcı mövqeyi və regiondakı sabitliyin qorunmasında ölkəmizin töhfəsi xüsusi vurğulandı.

Əgər bir neçə il öncə Avropa İttifaqı ilə münasibətlərdə müəyyən gərginlik müşahidə olunurdusa, bu gün artıq situasiya tamamilə dəyişib. Vaxtilə Avropa Parlamenti və bəzi digər Avropa təsisatları Ermənistanın maraqlarına xidmət edən, qərəzli və əsassız ittihamlarla çıxış edirdilər. Mart ayında qəbul edilən bəzi qətnamələr, xüsusilə də "qeyri-qanuni saxlanılan ermənilər" barədə tələblər, Azərbaycanın suveren hüquqlarına açıq müdaxilə idi. Hətta bəzi dairələr Bakıya qarşı enerji sahəsində sanksiyaların tətbiqini təklif edirdilər. Lakin bu cəhdlər Azərbaycanın prinsipial və ardıcıl mövqeyi qarşısında iflasa uğradı.

Bu kontekstdə Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Kaya Kallasın Azərbaycana səfəri xüsusi əhəmiyyət daşıyır. Son doqquz ildə bu səviyyədə ilk rəsmi ziyarət olan bu səfər Aİ-nin Azərbaycana münasibətdə yeni yanaşmalar axtardığını, əlaqələrin yenidən formatlandığını göstərdi. Kaya Kallasın Azərbaycana qarşı yürüdülən anti-təbliğata rəğmən, bu səfəri həyata keçirməsi və ölkəmizi enerji tərəfdaşı kimi dəstəkləməsi Brüsselin dəyişən mövqeyinin göstəricisidir.

Tiranada baş tutan ən diqqətçəkən epizodlardan biri də Prezident İlham Əliyevlə Fransa prezidenti Emmanuel Makron arasında baş tutan qısa, lakin simvolik söhbət oldu. Qeyd edək ki, bu dialoqun təşəbbüskarının məhz Fransa Prezidenti olması Parisin də münasibətlərin soyuq səviyyədən çıxarılmasına və yeni başlanğıca maraqlı olduğunu göstərdi. Bu isə o deməkdir ki, Azərbaycanla hesablaşmaq indi seçim yox, zərurətdir.

Zirvə çərçivəsində imzalanmış və müzakirəyə çıxarılmış sənədlər içərisində Xəzər dənizindən bərpaolunan enerji daşıyıcılarının ötürülməsi, Qazaxıstan və Özbəkistanla bağlanan üçtərəfli razılaşma, Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsi kimi layihələr Avropanın enerji təhlükəsizliyində Azərbaycanın həlledici rolunu bir daha sübut etdi.

Hazırda Azərbaycan 12 ölkəyə təbii qaz ixrac edir ki, onların 10-u Avropa ölkəsidir, 8-i isə birbaşa Aİ üzvüdür. Bu fakt özü-özlüyündə Azərbaycanın etibarlı enerji tərəfdaşı statusunu təsdiqləyir və uzunmüddətli strateji maraqlar baxımından onun vazkeçilməz mövqeyini ortaya qoyur.

Əlbəttə, Azərbaycanın diplomatik fəaliyyəti yalnız Avropa ilə məhdudlaşmır. Cənubi Qafqazın lider dövləti olan Azərbaycan paralel olaraq Çin, Mərkəzi Asiya və Yaxın Şərq dövlətləri ilə də əlaqələrini uğurla inkişaf etdirir. 2025-ci il aprelin 23-də Prezident İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri bu baxımdan xüsusi önəm daşıyır. Çin lideri Si Cinpinlə aparılan yüksək səviyyəli danışıqlar, iki ölkə arasında strateji tərəfdaşlığın gücləndirilməsi istiqamətində atılan mühüm addımlar bu səfərin nəticələrində özünü göstərdi.

Mart ayında isə Azərbaycanın D-8 (İnkişafda olan səkkizlər) təşkilatına tamhüquqlu üzv kimi qəbul olunması regional deyil, artıq qlobal güc mərkəzlərindəki mövqeyimizin göstəricisidir. Azərbaycanın bu təşkilata daxil olması, eyni zamanda, İslam dünyasında və inkişaf etməkdə olan ölkələr içərisində nüfuzunun daha da artmasına yol açdı.

Beləliklə, VI Avropa Siyasi Birliyinin Zirvə toplantısı Azərbaycan üçün, sadəcə olaraq, iştirak formatı deyildi. Bu platforma rəsmi Bakının siyasi təsir imkanlarının genişləndiyini, enerji və logistik sahələrdə təşəbbüskar rola sahib olduğunu və həm Şərqlə, həm də Qərblə strateji körpülər qurduğunu sübut etdi.

Bu reallıq bir daha göstərdi ki, Prezident İlham Əliyevin yürütdüyü müstəqil, prinsipial və balanslı xarici siyasət sayəsində Azərbaycan artıq yalnız regional deyil, qlobal güc mərkəzləri ilə eyni masada otura biləcək aktora çevrilib. Və bu dəyişiklik təkcə Azərbaycanın milli maraqlarının müdafiəsi deyil, həm də regionun sabitliyi və beynəlxalq sistemin daha ədalətli qurulması baxımından vacibdir.

*Oğuz ARİF*

# Qarabağ Zəfəri: Ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası

**Dünən Naxçıvanda "Konstitusiya və Suverenlik İli" çərçivəsində Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı və Naxçıvan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "8 Noyabr Zəfəri suverenliyimizin qarantıdır" mövzusunda konfrans keçirilib.**

Naxçıvan Dövlət Milli Dram Teatrında təşkil edilən məclisdə açılış nitqi ilə çıxış edən Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Cabbar Musayev ulu öndər Heydər Əliyevin 1993-cü ildə başladığı ordu quruculuğu islahatlarını bu gün Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uğurla davam etdirdiyini bildirib, Silahlı Qüvvələrimizin qazandığı 8 Noyabr zəfərinin tarix önəmini vurğulayıb.

İcra başçısı daha sonra qeyd edib ki, məhz bu tarixi zəfər Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini təmin etməklə yanaşı, regionda uzunmüddətli sülh və etibarlı təhlükəsizlik üçün geniş perspektivlər açıb. Hazırda dövlətimizin işğaldan azad edilən ərazilərdə böyük abadlıq-quruculuq işləri apardığına diqqət çəkən icra başçısı, tarixi Zəfərin, bu zəfərin baş memarı Prezident İlham Əliyevin, şəhidlərimizin və qazilərimizin şücaətinin əsrlər sonra da ehtiram hissi ilə xatırlanacağını bildirib.

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, polkovnik Cəlil Xəlilov 8 Noyabr zəfərinin Cənubi Qafqaz regionunda uzun müddətdir ki, davam edən status-kvonu köklü şəkildə dəyişdirdiyini, yeni reallıqlar yaratdığını bildirib: "8 Noyabr zəfəri Azərbaycan hərb tarixinin ən şanlı səhifəsi, xalqımızın milli qürur günüdür. Məhz bu tarixi gündə Prezident İlham Əliyevin rəhbərliyi ilə erməni faşizmi üzərində parlaq qələbə qazanan Azərbaycan Silahlı Qüvvələri yeni tarix yazmış, uzunmüddətli erməni işğalına son qoymuşdur. 8 Noyabr zəfəri uzun fasilədən sonra bizə ərazi bütövlüyümüzü və suverenliyimizi təmin etməyə imkan vermişdir".



Milli Məclisin deputatı Ülviyyə Həmzəyeva, Naxçıvan MR Ali Məclisinin deputatı, Vətən müharibəsi əlili Təbriz Zeynalov, Vətən müharibəsi əlili Mirkənan Kərimov, NDU hüquq fakültəsinin tələbəsi Yusif Mirzəzadə, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Naxçıvan təşkilatının sədri Firudin Süleymanov da çıxış edibərək 8 Noyabr zəfərinin hərbi-siyasi, tarixi-mənəvi önəmindən danışıblar.

Tarixi zəfərin suverenliyimizin qarantı olduğunu vurğulayan konfrans iştirakçıları, dövlətimizin Qarabağda həyata keçirdiyi geniş abadlıq-quruculuq işlərinə də diqqət çəkib, Azərbaycanın qalib lideri Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün müstəvilərdə yeni uğurlara imza atacağına inamlarını ifadə ediblər.

*S.HƏSƏNOV*
*XQ*

# Azərbaycan–İran: sükutdan dinamizmə



## Ekspert rəyi



*Cavid VƏLİYEV,*
***Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi xarici siyasət şöbəsinin müdiri***

– Bakı və Tehran həm çoxtərəfli əməkdaşlığı, həm də qarşılıqlı etimadı gücləndirməyin yollarını aramaqdadır. Azərbaycan Prezidentinin verdiyi bütün mesajlarda bunu görə bilərik. Bəli, Bakı bölgədə yaratdığı yeni geosiyasi reallıq çərçivəsində İranı da birgə əməkdaşlığa cəlb etməyə çalışırdı. Araz çayı üzərindəki körpünü "Dostluq körpüsü" adlandıran dövlətimizin başçısının mesajlarına İranın yeni lideri Pezeşkianın reaksiyalarında müəyyən istiliyi görürük.

Məhz bunun nəticəsində iki ölkə arasında müsbət atmosferin yaranmağa başladığını deyə bilərik. Xüsusilə də iqtisadi, nəqliyyat, enerji sahələrində, o cümlədən hərbi seqmentdə də əlaqələrin intensivləşdiyini müşahidə edirik. Keçən ilin noyabrında, bu günlərdə isə işğaldan azad olunmuş Qarabağda birgə hərbi təlimlərin keçirilməsi irəliyə atılan mühüm addımlardır.

Prezidentin köməkçisi Hikmət Hacıyevin İrana səfəri, Tehran Dialoq Forumu çərçivəsində həm İİR Prezidentinin müşaviri, həm də Milli Təhlükəsizlik üzrə Ali Şuranın rəhbəri ilə görüşlərində qarşılıqlı pozitiv mesajların verilməsi uğurlu perspektivlər vəd edir. Yaxın aylarda Məsud Pezeşkianın İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə iştirak etmək üçün Xankəndiyə gələcəyi gözlənilir. Bunun özü çox böyük siyasi hadisə sayılır.

Azərbaycan–İran əməkdaşlığının inkişafı üçün ciddi potensial mövcuddur. Xüsusilə, "Qız qalası" və "Xudafərin" bəndlərinin inşası ilə bağlı imzalanmış müqavilələrin yerinə yetirilməsi, Araz dəhlizi layihəsinin reallaşdırılması fürsəti yarandı. Hətta tərəflər arasında strateji tərəfdaşlığa dair bəyannamənin imzalanması yönündə müzakirələr aparılır. Yəni, münasibətləri daha da inkişaf etdirməkdən ötrü tərəflərdə siyasi iradə var. Bu, olduqca vacib amildir. İran Prezidentinin Bakı səfərindən sonra verdiyi müsbət mesajlar münasibətlərin uğurlu perspektivini vəd edir.

*(əvvəli 1-ci səhifədə)*

"Ermənistanla münasibətlərin normallaşdırılması məsələsində sülh müqaviləsinin əsasını təşkil edən beş prinsip və hətta bu sənədin mətni də Azərbaycan tərəfindən tərtib olunaraq Ermənistana təqdim edilib. Bu, Azərbaycanın regional sülh gündəliyinə nə qədər sadiq olduğu, onu nə qədər dəstəklədiyinin növbəti bariz təcəssümüdür". Bu sözləri Prezidentin köməkçisi İranın "Tasnim" agentliyinə müsahibəsində söyləyib.

O, eyni zamanda, Bakı və İrəvan arasında sülh sazişinin mətni üzrə işin yekunlaşdığını xatırladıb: "Müsbət bir haldır ki, sülh müqaviləsinin mətni yekunlaşıb. Amma bununla bərabər, Ermənistanla ikitərəfli əsaslarda olan açıq məsələlər var. Biz düşünürük ki, Ermənistan konstitusion əsasda Azərbaycana qarşı bütün ərazi iddialarına son qoymalıdır ki, regionda davamlı, qəti sülhə nail olaq". Onun fikrincə, hazırda Cənubi Qafqaz regionunda sülh üçün əlverişli şərtlər formalaşıb: "Məmnunluqla deyə bilərik ki, Azərbaycanla Ermənistanın müstəqilliyini əldə etməsindən bu yana bu gün regionda sülh üçün ideal şərait yaranıb. Həqiqətən, regionda sülh var, sabitlik var. Hətta deyə bilərik ki, de-fakto regionda sülh var. Bunun hüquqi çərçivəyə salınması istiqamətində də Azərbaycan öz üzərinə düşəni edəcəkdir ki, regionda tam şəkildə qəti sülh bərqərar olsun".

"Tasnim"ə müsahibəsində Azərbaycanın öz ərazi bütövlüyünü tam bərpa etdiyini, regionda sülh üçün əlverişli şəraitin formalaşdığını nəzərə çatdıran H.Hacıyev Cənubi Qafqazda yeni status-kvonun və reallığın yarandığını deyib: "Bu yeni status-kvo artıq işğala, təcavüzə deyil, beynəlxalq hüququn norma və prinsiplərinə, qanuna və ədalətə əsaslanan münasibətlərə əsaslanır". Azərbaycan Prezidentinin köməkçisi qeyd edib ki, Ermənistanla münasibətlərin normallaşdırılmasına dair sülh müqaviləsinin əsasını təşkil edən beş prinsip, hətta bu sənədin mətni Azərbaycan tərəfindən hazırlanıb və Ermənistana təqdim edilib: "Bu, Azərbaycanın regional sülh gündəliyinə nə qədər sadiq və dəstəkləyici olmasının bariz təzahürüdür. Müsbət fakt odur ki, sülh müqaviləsinin mətni tamamlanıb, amma, eyni zamanda, Ermənistanla ikitərəfli münasibətlərdə açıq suallar qalıb. Biz hesab edirik ki, Ermənistan Azərbaycana qarşı konstitusiya əsasında bütün ərazi iddialarına son qoymalıdır ki, regionda davamlı, yekun sülhə nail ola bilək".

Daha sonra Azərbaycan–İran münasibətlərinə toxunan H.Hacıyev bildirib ki, bu münasibətlər özünün yeni inkişaf mərhələsinə qədəm qoyub: "İran Prezidenti Məsud Pezeşkianın Azərbaycana rəsmi səfəri zamanı Prezident İlham Əliyevin onunla apardığı müzakirələr, eləcə də nümayəndə heyətlərii səviyyəsində baş tutan müzakirələr İran–Azərbaycan əlaqələrinin inkişafına yeni təkan, yeni nəfəs verdi. Buna əsaslanaraq, İrandan olan həmkarlarımızla bizim vəzifəmiz bu əlaqələri daha da inkişaf etdirməkdir".

Yeri gəlmişkən, "Araz-2025" birgə təliminə İrandan cəlb olunan heyətin Bakıya səfəri, iki ölkənin təlim rəhbərləri və digər yüksək səviyyəli üzvləri arasında görüşün keçirilməsi Azərbaycan–İran əlaqələrinin normallaşmasına dəlalət edir.

Azərbaycanın erməni işğalından azad edilmiş ərazilərində İranın iştirakı ilə keçirilən hərbi təlimlər regionda yeni geosiyasi prosesin başlanğıcı ola bilər. Bu, eyni zamanda, bölgə ölkələrinə mühüm mesajdır: rəsmi Tehran artıq Azərbaycanla münasibətləri Ermənistanla tarixi balans üzərindən deyil, regiondakı mövcud reallıqların əsasında qurmağa və inkişaf etdirməyə qərar verib. Xüsusilə azad olunmuş torpaqlarda – yəni Qarabağda İran ordusunun iştirakı ilə keçirilən hərbi təlimlər rəsmi Bakının etimad göstərdiyi az ölkələrdən biri kimi Tehranın yeni rolunu ortaya qoyur. "Araz-2025" təlimləri təkcə iki ölkənin hərbi əməkdaşlığının güclənməsi deyil, eyni zamanda, bölgədə yenidən formalaşan güc balansının bariz nümunəsidir.

Onu da qeyd etməyi vacib sayırıq ki, rəsmi Tehranın Bakı ilə yaxınlaşmaya dəlalət edən təşəbbüsləri uzun müddət Ermənistan üzərindən yürütdüyü geosiyasi manipulyasiya siyasətindən tədricən uzaqlaşması anlamına gəlir. Yəni, Azərbaycan Prezidentinin köməkçisinin Tehran Dialoq Forumundakı çıxışı, eləcə də İİR-in yüksək çinli siyasiləri ilə keçirdiyi görüşlər və bu zaman müxtəlif sahələr üzrə sıx əməkdaşlığın gələcəyinə yönəlik pozitiv mesajların səslənməsi, eyni vaxtda "Araz-2025" birgə təlimlərin azad Qarabağda keçirilməsi İranın daşnakçı-revanşist Ermənistan hakimiyyətinin məkrli planlarına real və konkret cavabı, həmin qüvvələrə vurulan "solaxay sillədir".

***İmran BƏDİRXANLI***
***XQ***

## Ekspert rəyi



***Tofiq ABBASOV,***
***siyasi şərhçi***

– Azərbaycan–İran münasibətlərinin bütün müstəvilərdə irəliyə getməsi yaxın qonşuların bir-birinə bağlılığını daha da gücləndirir. Bu bağlar bilavasitə insanların taleyi ilə əlaqədardır. Çünki ticari əlaqələrdə, yarmarkalarda, biznes-forumlarda həm o tərəfdən, həm də bizim nümayəndələr iştirak edirlər. Bu ünsiyyət və dialoqlarda bir-birini yaxından tanımaq fürsəti yaranır. Digər tərəfdən, həmin birbaşa əlaqələr üçüncü tərəflərin müdaxiləsinin qarşısını alır. O təsirlər isə yalnız korporativ maraqlara söykənən yanaşmalardır. Xeyirləri olmasa, belə bizim münasibətlərimizi daim gərginlikdə saxlamağa səy göstərirlər. Bu sırada tək Ermənistan yer almır, başqa ölkələr də var. Yəni, hər cür fitnə-fəsaddan istifadə edirlər ki, münasibətlərimizin normal inkişafına mane olsunlar.

Amma bizə elə gəlir ki, artıq o böhranlı dönəmlər arxada qalıb. Bu baxımdan, İran Prezidenti Məsud Pezeşkianın Bakıya rəsmi səfərində imzalanmış müqavilələrin hamısı gələcək perspektiv üçün nəzərdə tutulub. Həmin müqavilələr bizi bir-birimizə daha da yaxınlaşdıracaq və faydalarını ikimiz də görəcəyik. Mental baxımdan da İranla Azərbaycan arasında elə böyük fərq yoxdur. Ümumiyyətlə, Şərq xalqları qonşuluq siyasətlərində bir-birinə bələd olma amilinə söykənirlər. Əlbəttə ki, bu işdə siyasi liderlərin də öz rolu var. Hər iki ölkənin liderləri Bakıda bir-birinə "Qardaş!" deyə müraciət etdilər. Bizim hərbi əməkdaşlığımız da güclənir.

Ən vacib məsələ kommunikasiyalardan səmərəli istifadə etməkdir. Şimal–Cənub marşrutunun işə düşməsi, Fars körfəzi ilə Qara dənizin birləşməsi yüklərin ən qısa və ucuz yollarla ünvanlara çatdırılması deməkdir. Ermənistanın da bu layihələrə maraq göstərdiyini, "zamanın çağırışına qoşulmaq" meyillərini görürük. Amma bu əlverişli dəhlizlərdə heç bir potensialı olmayan İrəvanın iştirakı mümkün deyil. İran və Azərbaycan isə əməkdaşlığın platformalarını şaxələndirməklə bundan yalnız fayda götürəcəklər.

# Hindistan "düşməninin dostu"nu "düşmən"ə çevirmək istəyir

## *Yaxud Çaudharinin bəyanatında gizlənən siyasi motivlər*

**Hindistanda Azərbaycan və Türkiyənin boykot edilməsinə dair isterik çağırışlar səngimək bilmir. Boykot çağırışı edənlər buna səbəb kimi Azərbaycan və Türkiyənin sonuncu Hindistan–Pakistan qarşıdurmasında İslamabadın mövqeyini dəstəkləməsini göstərirlər. Halbuki, Bakı və Ankaranın bu məsələyə dair mövqeyi beynəlxalq hüquqa əsaslanır.**

Rəsmi Bakının mövqeyini bir neçə gün öncə jurnalistlərə müsahibəsində Xarici işlər naziri Ceyhun Bayramov bir daha açıqlamışdı. Nazir bildirmişdi ki, son gərginliyin başlama səbəbi Pakistan ərazisinə zərbələr endirilməsi olub: "Azərbaycan tərəfinin mövqeyi bundan ibarətdir ki, bir dövlətin digər dövlətin ərazisinə zərbələr endirməsi qəbuledilməzdir. Biz bunu söylədik. Bizim hər iki tərəfə çağırışımız bu gərginliyə ən qısa zamanda son qoymaq, problemin siyasi və diplomatik müstəvidə həll edilməsidir".

C.Bayramov Hindistan tərəfindən Azərbaycana qarşı boykot çağırışlarına münasibət bildirərkən demişdi: "Kimsə bizim mövqeyimizdən narazıdırsa, buna daha diqqətlə baxsın. Biz burada çox məntiqli yanaşma sərgiləyirik".

Beləliklə, aydın olur ki, Hindistandan edilən boykot çağırışları təkcə son eskalasiya ilə bağlı deyil və kökü daha dərindədir. Bu çağırışlar əsasən Ermənistanla bağlı geosiyasi məsələlər, 2020-ci ildəki İkinci Qarabağ müharibəsi və Hindistan–Ermənistan yaxınlaşması kontekstində güclənib. Hindistanda bəzi millətçi və sağçı çevrələr, xüsusən hindutva ideologiyasına bağlı qruplar Ermənistanı hər zaman açıq şəkildə dəstəkləyiblər. İndi isə buna qarşı çıxan ölkələrə, yəni Azərbaycan və Türkiyəyə qarşı boykot çağırışları səsləndirirlər.

Yeri gəlmişkən, qeyd edək ki, hindutva hindu millətçiliyinin mədəni əsaslandırılmasını və çoxmillətli, çoxkonfessiyalı dövlət olan Hindistan daxilində hindu hegemonluğunun qurulmasına inamı əhatə edən siyasi ideologiyadır. 1922-ci ildə Vinayak Damodar Savarkar tərəfindən tərtib edilmiş ideologiya "Raştriya Svayamsevak Sanqx" yarımhərbi könüllülər birliyinin, "Vişva Hindu Parişad" sağçı təşkilatının, hazırkı hakim "Bharatiya Canata Parti" (Hindistan Xalq Partiyası) və digər təşkilatlar tərəfindən istifadə olunur. Avropa faşizmindən ilhamlanan hindutva hərəkatı əksər analitiklər tərəfindən sağçı ekstremizmin bir variantı, homogenləşdirilmiş çoxluq və mədəni hegemonluq anlayışına sadiq qalaraq klassik mənada, demək olar ki, faşist və separatçı ideologiya kimi təsvir edilir. Bəzi analitiklər isə hindutvanın faşizmlə eyniləşdirilməsi məsələsində mübahisə edir və onu mühafizəkarlığın və ya etnomillətçiliyin ifrat forması adlandırırlar.



***

Ötən sayımızda Ümumhindistan Ticarətçiləri Konfederasiyasının (CAIT – The Confederation of All India Traders) Türkiyə və Azərbaycanla ticarətin bütün formalarını və kommersiya əlaqələrini boykot etmək qərarı verdiyini bildirmişdik. Qeyd etmişdik ki, qərar Hindistanın 24 ştatının ticarət dairələri nümayəndələrinin milli konfransında qəbul olunub. CAIT-in baş katibi və parlamentin üzvü Şri Pravin Handelval iclas zamanı demişdi: "Təəssüf ki, təbii fəlakət zamanı Hindistanın xoşməramlılığından, yardımından və strateji dəstəyindən yararlanan (?) Türkiyə və Azərbaycan indi terrora dəstəyi ilə dünyada tanınan Pakistanın yanında dayanmağa qərar verib. Onların mövqeyi Hindistanın suverenliyinə və milli maraqlarına zərər vurmaqla (?) yanaşı, həm də hinduların hisslərini birbaşa təhqir edir". Azərbaycan və Türkiyənin ədalətli, beynəlxalq hüquqa uyğun davranışını CAIT-in baş katibi "nankorluq və düşmənçilik" adlandırmışdı.

Dünən isə Şri Pravin Handelval konfransın qərarının əksini tapdığı qəzet səhifəsini skan edərək "X" hesabında paylaşıb. Onun paylaşımını bu sözlər müşayiət edib: "Milli maraqlar biznes maraqlarından üstündür. Türkiyə və Azərbaycanla heç bir ticarət və turizm yoxdur. Hindistanlı tacirlər birləşib və qərarlıdırlar".

Pakistanı dəstəklədiyinə görə Azərbaycan və Türkiyənin ünvanına daha bir tənqid Hindistanın kənd təsərrüfatı və fermerlərin rifahı üzrə dövlət naziri Bhaqirat Çaudharidən gəlib. "Ölkədə terrora və onu dəstəkləyənlərə qarşı qəzəb var. Türkiyə Pakistana açıq şəkildə dəstəyini ifadə edib. Mərmər və qranitlə məşğul olanlar da daxil olmaqla, bütün sektorlardan terroru dəstəkləyən (?) ölkələri boykot etməyə çağırışlar var" – deyə Çaudhari müsahibəsində bildirib.

Nazir, həmçinin qeyd edib ki, ticarət sahəsində də müvafiq tədbirlər həyata keçirilib: "Türkiyə və Azərbaycanla ticarət dayandırılıb. CAIT-də üç qərar qəbul edilib. Əvvəla, biz heç nə idxal və ixrac etməyəcəyik. İkincisi, biz Türkiyəyə turizmin əleyhinəyik. Üçüncüsü, milli səviyyədə rejissorlar, prodüserlər və kinematoqraflar Türkiyədə və ya Azərbaycanda film çəkməyəcəklər".

Hindistanlı nazirin Pakistanla bağlı şəxsi və milli qəzəbini Azərbaycan və Türkiyə kimi dövlətlərə yönəltməsi həm emosional manipulyasiya, həm də siyasi məsuliyyətsizlik nümunəsidir. Onun dediyi "terroru dəstəkləyən ölkələrə qarşı boykot çağırışları" ifadəsi, əslində, heç bir hüquqi və diplomatik əsas daşımır və Hindistanın rəsmi xarici siyasət xətti ilə də üst-üstə düşmür.

Türkiyə və Azərbaycan Pakistanla tarixi, mədəni və strateji əlaqələrə malik ölkələrdir. Bu əlaqələrə görə onları "terroru dəstəkləyən ölkə" kimi damğalamaq diplomatik etikadan kənardır. Əgər bir ölkə Pakistanla dostdursa, bu, onu ekstremizmi dəstəkləyənə çevirmir. Bu, diplomatik münasibətlərə siyahı mentaliteti ilə yanaşmaqdır – ya bizimləsən, ya bizə qarşısan! Hindistan rəsmisinin açıq-aşkar, əsaslandırılmamış ittihamlarla başqa dövlətləri terrorla əlaqələndirməsi, ölkəsinin dünyada "inkişaf edən demokratiya və artan iqtisadi güc" imicinə ziddir. Belə ritorika Hindistanın Cənubi Qafqazla münasibətlərini çətinləşdirə, həm də müsəlman ölkələri ilə dialoqu zəiflədə bilər.

Nazirin iqtisadi sektorlara çağırışı isə qeyri-ciddi və təhlükəli yanaşmadır. "Mərmər və qranitlə məşğul olanlar da daxil olmaqla, bütün sektorlardan boykot" çağırışı siyasətin iqtisadi sferaya kobud müdaxiləsidir. Bu kimi qeyri-ciddi çağırışlar Hindistan iqtisadiyyatında fəaliyyət göstərən bir çox firmaları qeyri-sabitlik təhlükəsi ilə üz-üzə qoyur və sərmayəçilərə mənfi siqnal ötürür.

Azərbaycanın özü 30 ilə yaxın müddət ərzində beynəlxalq hüququ pozan, Hindistanın müttəfiqi – işğalçı keçmişə malik Ermənistanla və erməni terror təşkilatları ilə mübarizə aparmış ölkədir. Azərbaycanın terroru dəstəklədiyini demək tarixi və faktları saxtalaşdırmaqdır.

Nazir Türkiyə və Azərbaycanla ticarət əlaqələrinin, guya, dayandırıldığını, turizmə və mədəni sahədə əməkdaşlığa qarşı çıxdığını bəyan etməklə Hindistanın dövlət siyasətindən çox, radikal dairələrin təzyiqi ilə danışan bir siyasətçini xatırladır. Bu çıxış, əslində, müasir dövrün inteqrasiya ruhuna, qarşılıqlı hörmətə və qlobal mədəni dialoqa zidd bir ritorikadır. Xüsusilə, "ticarət dayandırılıb" iddiası – faktlara əsaslanmayan populizmdir. Hindistanın xarici ticarəti hökumət və iqtisadi maraqlar üzərində qurulur, fərdi siyasətçilərin emosional çağırışları ilə yox. Türkiyə və Azərbaycanla Hindistan arasında rəsmi olaraq ticarət əlaqələrinin dayandırıldığına dair heç bir hökumət qərarı yoxdur. CAIT adlı qeyri-hökumət platformasının qəbul etdiyi qərarların heç biri hüquqi və məcburedici xarakter daşımır. Bu, sadəcə kiçik ticarət qruplarının daxili çağırışıdır və dövlət siyasətinə çevrilə bilməz.

Digər tərəfdən turizmə qarşı çıxmaq xalqlar arasında dialoqa zərbədir. Turizm təkcə iqtisadi deyil, həm də mədəni körpüdür. Türkiyə turizmi qlobal miqyasda tanınan brendə çevrilib. Ona qarşı çıxmaq – milyonlarla insanın şəxsi seçimlərinə qarışmaq, Hindistan vətəndaşlarının səyahət hüququnu məhdudlaşdırmağa cəhd etmək deməkdir. Həmçinin, Hindistanın öz turizm sektorunun Türkiyə və Azərbaycan kimi ölkələrlə əlaqələrdən əldə etdiyi gəlirlərə də zərbə vurmuş olur.

Onu da bildirək ki, Hindistanın "The Print", "OpIndia", "Svarajya" kimi sağ yönümlü onlayn media resurslarında Türkiyə və Azərbaycanla ticarət və diplomatik münasibətlərə yenidən baxılmasına dair fikirlər yayılıb. Ancaq Hindistan hökuməti rəsmi səviyyədə bu ölkələrlə münasibətləri kəsmək və ya boykot etmək yönündə konkret addım atmayıb. Hərçənd ki, Ermənistanla yaxınlaşma fonunda Azərbaycan və Türkiyə ilə münasibətlərdə bir qədər məsafəli ritorika müşahidə olunur. Türkiyə və Azərbaycanın reaksiyasına gəldikdə isə hər iki ölkənin səfirlikləri bu çağırışlara birbaşa reaksiya verməkdən çəkiniblər, lakin diplomatik kanallarla Hindistanla əlaqələrin qorunub saxlanmasına önəm verildiyi bildirilib.

İnanmaq istərdik ki, Nyu–Dehli boykot çağırışlarının ikitərəfli əlaqələrin ruhuna zidd olduğunu dərk edərək onların dayandırılmasına dair göstəriş verəcək. Çünki bu cür emosional və məsuliyyətsiz çağırışlar nə Hindistanın strateji maraqlarına, nə də beynəlxalq müstəvidə formalaşdırdığı "müdrik və balanslı tərəfdaş" imicinə uyğun gəlir. Diplomatiya nə zamansa qurulmuş dostluq körpülərini yıxmaq üçün yox, onları qorumaq və möhkəmləndirmək üçün var. Ticarət, turizm və mədəni əməkdaşlıq sahəsində bu cür məhdudiyyətlərə çağırışlar isə yalnız münasibətlərə deyil, xalqlar arasında yaranmış qarşılıqlı rəğbətə də xələl gətirə bilər. Nyu–Dehli bu ritorikanın Hindistanın regionda və İslam dünyasında nüfuzuna hansı zərbələr vurduğunu nə qədər gec deyil, anlamalıdır.

***Səxavət HƏMİD***
***XQ***

## Ekspert rəyi



**Yeganə HACIYEVA,**
**politoloq**

– Hindistan qeyri-müəyyən gələcəyi olan ölkədir. Beynəlxalq arenada bəyan edilən bütün ambisiyalara baxmayaraq, ölkənin təhsil, səhiyyə, sosial müdafiə kimi göstəriciləri dünya üzrə elan edilmiş standartlardan xeyli geridə qalır. Azərbaycan və Türkiyəyə qarşı indiki boykot kampaniyasına gəlincə, bu, açıq-aydın süni xarakter daşıyır və kənardan körüklənir. Bütün əlamətlər onun ssenarisinin Hindistanda yazılmadığına işarə edir. Bu, ölkəmizin beynəlxalq aləmdə imicini sarsıtmağa yönəlmiş daha geniş informasiya və siyasi strategiyanın bir elementidir. Lakin Hindistanın siyasi dairələri bu vəziyyətdən öz maraqları naminə – həm Azərbaycan dövlətinə qarşı mövcud ritorikaya haqq qazandırmaq, həm də gələcək xarici siyasətin əsasını formalaşdırmaq üçün fəal şəkildə istifadə edirlər. Bu cür kampaniyalar onlara Bakıya qarşı mümkün addımları əvvəlcədən əsaslandırmağa və ictimai rəyi yönəltməyə imkan verir.



# Elm siyasəti və milli elmi elita

**III MƏQALƏ**

## Elita

"Elita" sözü fransızcada "ən yaxşıları", "seçilmişlər", latıncada isə "seçirəm" mənalarını verir. Adətən, "elita" dedikdə "seçilmiş qrup" və ya "seçilmiş təbəqə" nəzərdə tutulur. Yəni, bu terminin kollektiv mövcudolma məsələsinə daha çox aidiyyəti vardır. Sosiologiyada və politologiyada elita cəmiyyətin ən nüfuzlu, imtiyazlı, təsirli xüsusiyyətlərə malik olan və özəl təşkilati keyfiyyətlərə sahib "insanlar qrupu" kimi dərk edilir. Alimlər elitanın əsas olaraq siyasi, iqtisadi, hərbi, informasion, inzibati, elmi və ideoloji növlərini ayırırlar.

Beləliklə, qısa olaraq elita hər hansı cəmiyyətin və ya millətin ən yaxşı (seçilmiş) nümayəndələrinin imtiyazlı, təsirli, nüfuzlu xüsusi qrupudur. Elita müxtəlif sferalarda – siyasətdə, iqtisadiyyatda, mədəniyyətdə, elm və incəsənətdə formalaşa bilər. Elm tarixində elitanı V.Pareto, Q.Mosk və R.Mixelsonun sistemli araşdırdıqları haqqında fikir vardır. Onlar elitanı, adətən, iki qrupa bölürlər – idarəedən (hakim) elita və kontrelita (idarəedilən, lakin hakim olmağa can atan qrup). Əslində, bu məsələni müxtəlif aspektlərdə çox sayda alim araşdırmışdır.

## İntellektual elita

"Bilik elitası" (knowledge elite) elm, təhsil və KİV sahəsində yüksək statusa malik qrupdan təşkil olunur. Macar alimi P.Tamaşın fikrincə, "bilik elitası" cəmiyyətdə rəmzlər, mədəniyyət, dəyərlər, miflər sisteminin formalaşmasına nəzarət edirlər ki, onun əsasında ortaq ideoloji xətt müəyyənləşir. Bununla ictimai şüur stimullaşdırılır və strateji məqsədlərə nail olmaq üçün toplum səfərbər edilir. "İntellektual elita" "bilik elitası"na sinonim kimi bir sıra ölkələrdə (məsələn, Rusiyada) işlədilir. Bütün hallarda bilik elitası (və ya intellektual elita) dövlətin elm siyasətinin formalaşmasına ciddi təsir edir.

## Milli elita

Milli elita hər bir millətin tərkibində ictimai həyatın bütün tərəflərinə daha fəal təsir edən qrupdur. Cəmiyyət elitanın milli olmasını bir növ sifariş etməlidir. Bu, elmi olaraq, özlüyündə mürəkkəb prosesdir və təhlili xüsusi yanaşma tələb edir.

Azərbaycan xalqı keçən əsrin 90-cı illərində Heydər Əliyevi hakimiyyətə dəvət etməklə ilk növbədə ölkənin layaqət və peşəkarlıqla idarəsində ciddi marağının olduğunu nümayiş etdirmişdir.

Bu prinsip elitanın bütün növlərinə aid edilməlidir. Toplum iqtisadiyyat, siyasi həyat, elm, mədəniyyət və digər sferaların layiqli inkişafı naminə milli elitanın formalaşmasında maraqlı olmalıdır. Onu da vurğulayaq ki, milli elitada var-dövlət toplamaq və xüsusi imtiyaza sahib olmaq istəyənlər hər bir cəmiyyətdə mövcud olur. Bundan sığortalanmağın xüsusi mexanizmləri də nəticəverici işləməlidir. Belə olmasa, milli birliyə təhlükə yarana bilər. Deməli, milli elitanın formalaşmasında institutlaşma prosesinin yeri və rolu ayrıcadır.

## Milli elitanın institutlaşması

"İnstitutlaşma" hər bir cəmiyyət və dövlət üçün strateji məsələdir. O, latınca "institutum" sözündəndir və "müəssisə" deməkdir. Substantiv və funksional olaraq institutlaşma yeni, epizodik sosial praktikaların, yenilik və təsəvvürlərin dayanıqlı, uzun müddət fəaliyyət göstərə bilən sosial struktura çevrilməsidir. Bu prosesin yekun formalaşma növü sosial institutlardır. İnstitutlaşma mövcud olanın təkmilləşməsi, onun dəyişməsi və ya yenisinin yaradılması üsulu ilə baş verə bilər. Onun üçün mühüm tələblərdən biri cəmiyyətin bu cür dəyişmələri dərk etməsi və ona tələbatının yaranması ilə bağlıdır.

Məsələn, xalq yığıncaqlarının parlamentə çevrilməsi bu tələbdən qaynaqlanır. Bununla cəmiyyət ənənəvi toplanma üsullarının əvəzinə, dövlətin idarə edilməsində mühüm rol oynayan qanunvericilik qanadının formalaşmasını "sifariş edir". O baxımdan Azərbaycan xalqının XX əsrin ikinci onilliyində demokratik respublikanın parlamentini yaratmaqla böyük tarixi addım atmışdır!

Milli institutlaşma, hər şeydən öncə, bir prosesdir, statik və ya fiksasiya olunmuş sosial hadisə deyildir. Ona normalar, dəyərlər və institusional strukturlar daxildir. İnstitusional strukturlar təşkilatları, adətləri və qanunları əhatə edir. İnstitutlaşma o zaman milli olur ki, normaları, dəyərləri və institusional strukturları milli özşüurun ayrılmaz hissəsinə çevrilərək və bu keyfiyyətdə ictimai davranışa təsir edirlər. Milli institutlaşma milli özşüurun tərkibi kimi milli ideya ilə sıx bağlıdır. O cümlədən, milli ideyanın reallaşmasında milli institutlaşma çox ciddi rol oynayır. Dolayısı ilə milli elmi elitanın formalaşması milli ideyanın həyata keçməsində prinsipial yeri və rolu olan faktordur. Bu məntiq daxilində "milli elmi elita" anlayışına baxaq.

## Milli elmi elita

Milli elmi elita ölkə elmi və texnologiyasına ən çox töhfə vermiş, hazırda həmin töhfəni verən və gələcəkdə verəcək alimlər (ziyalılar) qrupudur. Onlar yüksək peşəkarlıq, kompetensiya və avtoritetə malik ən yaxşı elm və təhsil sferasının nümayəndələrindən formalaşır.

Bunlardan başqa, elmi ədəbiyyatda milli elmi elitanın formalaşmasında elmin institutlaşmasının böyük rol oynadığı ayrıca vurğulanır. Elmin institutlaşması akademiyaların, universitetlərin, elmi cəmiənin və başqa elmi müəssisələrin yaranması formasında reallaşır. Daha geniş kontekstdə bu proses alimlərin fəaliyyətini tənzimləyən sosial dəyərlər və normalar sisteminin formalaşması kimi təsəvvür edilir. Bizim üçün məsələnin məhz bu tərəfi çox önəmlidir. Bununla bağlı dünya təcrübəsində kifayət qədər fakt və onlar haqqında elmi fikirlər mövcuddur.

Beləliklə, milli elmi elitanın formalaşmasında yaradıcılıqla elmi idarəetmənin, fəaliyyətin institutlaşması həlledici rol oynayır. Burada dövlət üçün başlıca məsələ milli elitanı ölkənin marağı daxilində optimal model üzrə formalaşdırmaq kursunu seçməkdən ibarətdir. Burada isə təcrübə, ənənə və yeniliyin sintezi problemi meydana çıxır. Həmin sırada milli elmi elitanın formalaşmasının təşkilati aspektində sistemin təşkil edilməsinə, yaxud özünütəşkilinə üstünlük verilməsi seçimi çox aktuallaşır. Birinci seçim milli elmi elitanın kənardan formalaşdırılmasına apararır. İkinci seçim isə ölkənin elmi mühitinin elə özünüinkişafetdirən, özünütəşkiledən sistem halına gətirilməsidir ki, ilk təkandan sonra həmin sistem özünü təkrar-təkrar yaradır, yəni zaman-məkan kontinuumunda daim özünü reaktuallaşdırır. Birinci seçim dayanıqlı mühit yarada bilir, lakin ona gələcək inkişaf potensialı verə bilmir. İkinci seçim isə həssas faktorları avtomatik aktuallaşdırmaqla və onlar arasında nisbətin dinamikasını yeniləşməyə istiqamətləndirməklə harmonik inkişafı təmin edir.

AMEA-nın yeniləşmə kursu və strateji inkişaf konsepsiyasının substantiv və funksional aspektlərinin sintezi göstərir ki, təşkilat ikinci seçimə üstünlük vermişdir. Problemin bu tərəfi üzərində bir qədər geniş dayanaq.

## Elmi varislik və təşkilati yenilik

AMEA rəhbərliyi təşkilatın ölkənin strateji inkişaf kursu çərçivəsində yeniləşməsinin bazasında ulu öndər Heydər Əliyevin dövlət-elm-cəmiyyət münasibətlərini tənzimləyən mükəmməl kursunu görür. Təşkilatın rəhbəri bu barədə dəfələrlə elmi əsaslandırma ilə bəhs etmişdir. AMEA bu məsələyə elmi yaradıcılıqla elmi fəaliyyətin institutlaşması aspektlərinin vəhdətində baxır. Əsas məqamlardan biri Ulu öndərin AMEA-ya faktiki olaraq Azərbaycan elmində tədqiqat aspektində aparıcı təşkilati struktur kimi yanaşması ilə bağlıdır. Bu anlamda Azərbaycanda milli elmi elitanın formalaşmasında AMEA aparıcı rol oynamışdır və bu ənənə davam etməlidir.

Biz nəzəri olaraq bu tezisi tam əsaslandıra bilərik, lakin o, geniş yanaşma tələb edir. Burada başlıca arqument ondan ibarətdir ki, istənilən tarixi dönəmdə, istənilən ölkədə milli elmi elitanın yeniləşməsi çoxaspektli prosesdir. Onu uğurlu aparmaq üçün mövcud elmi strukturların islahatları hazırkı sistemi tam dağıtmağa deyil, tədrici yeniləməyə istiqamətlənməlidir. Mövcud sistemin hər hansı hissəsində (məsələn, orta kəsimində) ən yaxşı ideya belə uğursuluğa aparacaq.

Məsələn, ali təhsilə kadrlar orta məktəblərdən gəlir, elmi tədqiqata isə ali məktəblərdən. Bu zəncirdə orta və ali məktəbləri tələb olunan səviyyədə yeniləşdirmədən elmi-tədqiqat səviyyəsində heç bir islahat milli elmi elita yaradılmasına xidmət etməyəcək. Deməli, AMEA-nın milli elmi elitanın formalaşmasındakı aparıcı statusu təmin edilməlidir.

Milli elmi elitanın formalaşmasının nəzəri aspektinə gəldikdə isə burada təməl tezis milli müstəqil dövlət quruculuğu ilə azərbaycançılığın daxili məntiqi və mənə bağlantılarının elmi nümunəsini yaratmaq şərti ilə əlaqəlidir.

Akademiyanın Azərbaycanşünaslığın mərkəzinə çevrilməsinin təşkilatın yeniləşməsinin 7 əsas prioritetindən biri kimi müəyyən edilməsi fəlsəfəsinin bünövrəsində həmin məqam dayanır. Birinci prioritet belədir: "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin andiçmə mərasimində ifadə olunmuş azərbaycançılıq ideyasının elmi-nəzəri və tarixi-fəlsəfi əsaslarının işlənib hazırlanması və bütün istiqamətlər üzrə həyata keçirilməsi ölkə elminin, Azərbaycan Milli Elmlər Akademiyasının qarşısında duran əsas vəzifələrdəndir. AMEA-nı ölkəmizin əsas Azərbaycanşünaslıq Mərkəzinə çevirmək bizim əsas vəzifəmizdir".

Sosial və humanitar elmlər üçün, bu, başlıca prioritetdir. Milli elmi elita XXI əsrdə müstəqil dövlət quruculuğundan və azərbaycançılıqdan kənarda formalaşmamalıdır. Bu mövzuda silsilə məqalələrdə gətirdiyimiz ABŞ, Avropa və Rusiyaya aid olan və elm siyasətinə, elmi elitanın formalaşmasını əks etdirən başlıca müddəalar, uyğun faktlar göstərir ki, dövlətin inkişaf etməsi üçün elmi elita milli olmalıdır. Bu tezis də elm siyasətinin hansı model üzrə qurulmasından asılı deyildir. Yəni bütün hallarda uğurlu inkişaf etmək üçün elmi elita millətin, dövlətin və cəmiyyətin maraqlarına xidmət etməlidir.

Hazırda Azərbaycan üçün əsas strateji məqsəd yüksək inkişaf etmiş qüdrətli müstəqil hüquqi dövlət və yüksək rifah cəmiyyətinin formalaşmasından ibarətdir. Bu məqsədə çatmağın yolu, qətiyyən şübhə etmirik ki, elm yoludur. Bu yolun bir "sərhədi"ni müstəqil dövlətçilik, digər "sərhədi"ni isə azərbaycançılıq təşkil edir! Həmin çərçivədə dövlətin, cəmiyyətin və millətin ölkə rəhbərliyinə və dövlətçiliyə sədaqətli milli elmi elitası böyük töhfələr verə bilər. AMEA-nın strateji inkişaf konsepsiyası və Yol Xəritəsi prizmasında mənzərə bu cür görünür!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Xuntaçıların məhkəməsi**

# Ermənistanın ərazilərimizdə etnik təmizləmə cinayətləri təsdiq edilir

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası mayın 19-da davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmədə Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli tərəfindən Ermənistan ordusunun Azərbaycan ərazilərini işğal etməsi ilə bağlı videomateriallar nümayiş olunub.

Videomateriallarda 1993-cü ildə Ermənistan ordusunun Kəlbəcərdə Azərbaycan mövqelərinə hücum etməsi, Ağdərə istiqamətində irəliləməsi və hücum hazırlıqlarına başlaması, həmçinin bir neçə istiqamətdən zərbə endirilməsinin planlaşdırılmasından danışılır.

Qeyd olunur ki, Ermənistan silahlı qüvvələri düşməni (azərbaycanlıları - red.) Ağdərədən çıxartdı, yüksəklikləri və əsas yolları nəzarətə keçirdi. Kadrlarda yerdə öldürülmüş azərbaycanlıların nəşləri görünür.

Digər videomaterialda Ermənistan ordusunun Sərsəng su anbarını alması (işğal etməsi – red.) və Ağdərəyə çatması barədə məlumat verilir.

Növbəti videomaterial Seyran Saroyan haqqındadır. Qeyd olunur ki, Seyran Saroyan Kəlbəcərin işğalında iştirakına görə Ermənistanın ilk müdafiə naziri Vazgen Sarkisyan tərəfindən medalla təltif edilib.

Daha sonra Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyanın 1993-cü il iyulun 23-də "Yerkrapa" terror təşkilatının üzvləri ilə görüşündə etdiyi çıxışının videosu nümayiş olunub. Kadrlarda Levon Ter-Petrosyan Ermənistan silahlı qüvvələrinin Azərbaycanın suveren ərazilərinin işğal olunmasının niyyəti, həmçinin məqsədi və səbəbləri barədə danışır.

Videomaterialda tarixi "qələbələr"i qeyd etdiklərinə görə məmnun olduğunu bildirən L.Ter-Petrosyan 1988-ci ilə qədər Ermənistanda 170 min azərbaycanlının olduğunu xatırladıb. O deyib: "Qarabağ hərəkatını başlatmağın nə mənası var idi? Bu beş il ərzində nə qədər qan töküldü, nə qədər insan həlak oldu, amma heç bir nəticəyə gəlinmədi", - deyə bəzi şəxslər irad bildirirlər. Həttа həmin dövrdə Ermənistan hakimiyyəti... İndi isə həmin əməliyyatlarda iştirak etməyən müxalifət nümayəndələri və digər partiyalar bizim fəaliyyətimizə kölgə salmağa çalışırlar.

Üstəlik, deyirlər ki, o vaxt erməni hərəkatının, "miatsum, miatsum" deyib meydana çıxmağın nə mənası var idi? İndi də Qarabağın tanınmasından yayınırlar. Onların mövqeyi dəyişməyib. Deyirlər ki, əgər bu hərəkat 1988-ci ildə başlamasaydı da, onsuz da Sovet İttifaqı 1991-ci ildə dağılırdı və biz hər halda müstəqillik əldə edəcəkdik. Amma məsələ burasındadır ki, əgər biz 1988-ci ildə fəaliyyətə başlamasaydıq, 1991-ci ildə bizim bu üçillik təcrübəmiz olmayacaqdı və nəticədə nəinki Qarabağ, heç Ermənistanın özü də bu qədər hazırlıqlı olmayacaqdı. Hətta Qarabağ olmayacaqdı".

Məhkəmədə təqdim olunan videoda Ermənistanın keçmiş prezidenti deyib: "Birincisi, bu hərəkat sayəsində Ermənistan və Qarabağ erməni xalqının 600 ildir həll edə bilmədiyi bir problemi həll etdi. Ermənistan və Qarabağ digər xalqlardan tamamilə təmizləndi. Bu, 600 illik problemdir və erməni xalqı növbəti 600 ildə də onun əhəmiyyətini hiss edəcək. Təsəvvür edin ki, əgər bu gün Ermənistanda, 1988-ci ilə qədər burada yaşayan digər millətlərdən olan 170 min insan yaşamaqda davam etsəydi, bu gün bizim dövlətimiz olmazdı. Biz nə şimal rayonlarımızı, nə də Göyçə (Sevan) rayonunu qoruya bilməzdik.

Unutmayın, yadınıza salım ki, Vardenis (Basarkeçər), Masis (Zəngibasar) və Amasiya bölgələrində azərbaycanlılar çoxluq təşkil edirdi və Zəngəzur bölgəsində də əhalinin böyük hissəsini təşkil edirdilər. İndi bu problem həll olunub. Bu problemi biz öz hərəkatımızla həll etdik. Bu, xalqımızın milli azadlıq mübarizəsi, erməni milli hərəkatı və onun hərbi qanadı, özünümüdafiə birləşmələrimiz və yerli Qarabağ bölmələrimizin fəaliyyəti ilə mümkün oldu.

Qarabağ da həmçinin. Bu gün Qarabağın bütün ərazisi, üstəlik daha böyük bir hissə ermənilərin əlindədir".

Daha sonra kadrlarda L.Ter-Petrosyan deyir: "…Yekun olaraq bir məqamı da qeyd etməyə bilmərəm: Qeyd edirəm ki, bütün qələbələrimizin tacı olaraq qüvvələrimiz dünən gecə və bu səhər Ağdama daxil olublar".

Ardınca təqsirləndirilən şəxs Bako Sahakyan işğal olunmuş Azərbaycan ərazilərində Şuşanın işğalından sonrakı fəaliyyəti, hansı dəstədə xidmət etməsi, hansı komandirlərlə görüşməsi və nələri müzakirə etməsi ilə bağlı dövlət ittihamını müdafiə edən prokurorların, zərərçəkmiş şəxslərin nümayəndələrinin suallarını cavablandırıb.

O, 1993-cü ilin iyun ayından arxa xidmət qərargah rəisi olduğunu deyib.

Təqsirləndirilən şəxsin dindirilməsi zamanı nümayiş olunan videoda Bako Sahakyan da görünüb. Kadrlarda stol arxasında oturan hərbçilərin sənədlər və xəritə üzərində müzakirələr aparması əksini tapıb. Videodan və B.Sahakyanın ifadələrindən məlum olub ki, müzakirələr zamanı orada müxtəlif komandirlər iştirak edib.

B.Sahakyan nümayiş olunan videoda özünü, general Kristapor İvanyanı, Samvel Karapetyanı, Movses Akopyanı, Samvel Babayanı, Vitali Balasanyanı, Vaçaqan İsxanyanı və digərlərini tanıyıb.

Vaxtilə Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən yaradılan qondarma rejimə "rəhbərlik etmiş", hazırda isə Azərbaycana və xalqımıza qarşı çoxsaylı cinayət əməlləri törətməkdə təqsirləndirildiyi üçün Bakıda mühakimə olunan Ermənistan vətəndaşı Bako Sahakyan açıq məhkəmə iclasında dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavabında suveren ərazilərimizin vaxtilə Ermənistan tərəfindən işğal edilməsi üçün keçirilən hərbi əməliyyat və döyüş tapşırıqlarının hazırlanmasında və müzakirəsində iştirakını etiraf edib.

Baş Prokurorluğun dövlət ittihamçısı Fuad Musayevin suallarına cavab verən Bako Sahakyan Monte Melkonyanı, Arman Levonyanı və digər komandirləri tanıdığını və onlarla tez-tez təmaslarda olduğunu, onlarla hərbi əməliyyatlar barədə və dostyana söhbətlər etdiyini deyib.

Məhkəmədə nümayiş olunan fotoşəkillərdə Bako Sahakyanın Robert Köçəryanla, Monte Melkonyanla, Samvel Babayanla birlikdə olduğu görünüb, təqsirləndirilən şəxs onları tanıyıb.

O, şəklin Xankəndidən uzaq olmayan yerdə, 1993-cü ilin iyun ayına qədər çəkildiyini bildirib. Əlavə edib ki, həmin vaxt "müdafiə ordusu"nun arxa xidmət rəisinin müavini olub.

Nümayiş olunan digər şəkildə isə o, Kristapor İvanyan, Artur Karapetyan və Avram Abramyan ilə birlikdə görünüb.

Təqsirləndirilən şəxs Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin BMT Təhlükəsizlik Şurasının qətnamələrinin Ermənistan tərəfindən niyə yerinə yetirilməməsi barədə sualına cavab verməkdən yayınıb.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli Levon Ter-Petrosyanın azərbaycanlılara qarşı etnik təmizləmə fikirləri ilə bağlı suallarına cavab verən Bako Sahakyan onunla bir neçə dəfə Qarabağ münaqişəsi ilə bağlı müzakirələr apardığını etiraf edib, lakin Ermənistanın keçmiş prezidentinin fikirlərini dəstəkləmədiyini söyləyib.

Dövlət ittihamçısı Təranə Məmmədovanın "Yerkrapa" terror təşkilatı barədə sualına cavab verən təqsirləndirilmiş şəxs təşkilat üzvlərinin Azərbaycan ərazilərinin işğalı zamanı müxtəlif döyüşlərdə iştirak etdiyini deyib.

Daha sonra məhkəmədə Davit İşxanyanın Azərbaycanın vaxtilə işğalda olmuş ərazilərindəki fəaliyyətini, döyüş əməliyyatlarında iştirak etməsini sübut edən videomaterial nümayiş olunub.

Videomaterialda D.İşxanyanın döyüş yoldaşları və onu tanıyanlar təqsirləndirilən şəxs barədə danışırlar.

Alik Sarqsyan onun əlinə ilk silah götürənlərdən biri, ilk könüllülər dəstəsinin təsisçilərindən, həmçinin ilk bölük və tabor komandirlərindən biri olduğunu vurğulayıb: "O, tarixi bir tapşırığı yerinə yetirib, bunu belə demək olar".

Videoda Movses Akopyan isə əminliklə deyib ki, "erməni ordusunun yaradılmasının əsasını (və ya bünövrəsini) qoyanlardan biri bizim döyüş yoldaşımızdır – Davitdir".

Videomaterialda Araz Koçaryan deyib: "Bir gün təsadüfən qarşılaşdıq və təəccübləndim, Davit İşxanyanın boynunda "sərkərdə Andranikin" medalyonu asılmışdı.

Hmayak Haroyan onların "Aşan" bölüyü və Monte Melkonyan ilə birlikdə Gülablını mühasirəyə aldığını, nəticədə isə azərbaycanlıların mühasirəyə düşdüyünü vurğulayıb.

Abrik Hayrapetyan da deyib ki, "Avo" ləqəbli Monte Melkonyan qoşunda, tabor komandiri kimi, Daviti yüksək səviyyədə dəyərləndirib.

Ermənilər tərəfindən çəkilən kadrlarda Davit İşxanyan "azadlıq uğrunda mübarizə aparan tələbə hərəkatı" qabaqcıllarından biri, "Aşan" kəndinin "özünümüdafiə dəstəsi"nin komandiri, "özünümüdafiə ordusu"nun 28-ci taborunun komandiri, müharibədən sonra isə ictimai və siyasi xadim kimi təqdim edilir.

Kadrlarda Davit İşxanyan bildirib: "Artıq çoxları tərəfindən hiss olunurdu və nəzərə çarpırdı ki, bu hərəkat öz məntiqi sonluğuna yalnız silahlı toqquşmalar və müharibə yolu ilə çatacaq. Çalışırdıq ki, azərbaycanlılar üçün o dəhşəti atmosferi yaradaq. Bizim əsas tapşırığımız müdafiə xəttini təmin etmək idi. Biz o əməliyyatda iştirak etməyi çox arzulayırdıq, lakin bizim tapşırığımız başqa idi. Monte Melkonyan tərəfindən Abdal Gülablı əməliyyatı təşkil olundu, lakin çox təəssüf ki, o gün biz 6 döyüş yoldaşımızı itirdik. Onların sırasında, həmçinin Armen Avakyan da var idi. Bundan sonra çox ağır bir dövr oldu. 1992-ci il sentyabrın 4-5-də o kəndi azad edə bildik. Qarşımıza qoyulan tapşırıq Xocavənd bölgəsində qüsursuz yerinə yetirildi və Ağdam bizim ümumi nəzarətimizə keçdi. Azadlıq uğrunda döyüşlər bitdikdən sonra taborun uşaqları Ağdərə rayonunda gedən döyüşlərdə də iştirak etdilər və demək olar ki, 1994-cü ilin may ayında atəşkəs təsdiq olunana qədər davam edən döyüş əməliyyatlarında iştirak etdilər".

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarını cavablandıran D.İşxanyan Abdal Gülablının, Füzulinin Aşağı Veysəlli ilə Cardar arasındakı təpənin, Ağdərənin işğal olunması əməliyyatlarında iştirak etdiyini təsdiq edib.

Məhkəmə prosesi mayın 22-də davam etdiriləcək.

# Startaplar innovasiya lokomotivi, iqtisadi təkan mənbəyidir

## *O, sahibkarlıq və yaradıcı düşüncə mədəniyyəti formalaşdırır*

**İnnovasiyaların əsas mənbəyi olan startaplar texnologiyaların tətbiqini asanlaşdırır. Startaplar xüsusilə gənclər, İKT, marketinq və analitika üzrə mütəxəssislər üçün iş yerləri yaradır. Onlar xaricdən "beyinlərin" qaytarılmasını da asanlaşdırır, sahibkarlıq və yaradıcı təfəkkür mədəniyyətini formalaşdırır. Bütün bunlarla bərabər, startapların inkişafı özəl sektora marağı artırır, dövlət sektorundan və neft gəlirlərindən asılılığı azaldır.**



Müasir dövrdə texnologiyanın sürətlə inkişaf etməsi yeni iqtisadi modellərin formalaşmasına zəmin yaradır. Bu kontekstdə startaplar – yəni innovativ ideyalara əsaslanan və sürətlə inkişaf etmək qabiliyyətinə malik şirkətlər – xüsusilə ön plana çıxır. Startap ekosistemi yalnız iqtisadi innovasiyaların deyil, həm də sosial və institusional yenilənmənin əsas hərəkətverici qüvvələrindən birinə çevrilir. Azərbaycan da bu qlobal tendensiyadan kənarda qalmır.

Azərbaycanda son illərdə startaplara maraq artmaqda davam edir. Bu marağın arxasında dayanan əsas amillərdən biri iqtisadiyyatın şaxələndirilməsi və post-neft dövrünə hazırlıq strategiyasıdır. Startaplar ənənəvi sektorların mövcud olduğu şəraitdə yeni iqtisadi dinamika yaradır və İKT, maliyyə texnologiyaları (fintech), aqrotech, edtech və digər istiqamətlər üzrə innovasiyaları təşviq edir.

Ölkədə həyata keçirilən rəqəmsallaşma proqramları, "ASAN xidmət" modeli, "Elektron hökumət" infrastrukturu kimi layihələr, innovasiya ekosisteminin formalaşmasına müsbət təsir göstərib. Bu proseslər fonunda startaplar həm iqtisadi fəallığı artırıb, həm də dövlətin rəqəmsal transformasiya hədəflərinə önəmli töhfə verib.

Xatırladaq ki, Azərbaycanda dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində son illərdə əhəmiyyətli işlər görülüb, müvafiq hüquqi baza formalaşdırılıb. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər bürokratik əngəllərin və korrupsiya hallarının aradan qaldırılmasına öz müsbət təsirini göstərib. 2012-ci il iyul ayının 13-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması ilə bu sahədə mühüm islahata imza atılıb. Həmin ilin dekabrında isə Bakıda pilot layihə olan 1 saylı "ASAN xidmət" mərkəzi fəaliyyətə başlayıb. Sonra paytaxtın bir neçə rayonunda da "ASAN xidmət" sakinlərin istifadəsinə verilib. Bu proses regionları da əhatə edib.

Hazırda bu mərkəzlərə daxil olan müraciətlər arasında şəxsiyyət vəsiqələrinin alınması və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, notariat fəaliyyəti, eləcə də miqrasiya və əmlak məsələləri ilə bağlı olan xidmətlər üstünlük təşkil edir.

Bütün bunlar dövlət qulluqçusu – vətəndaş münasibətlərində yeni yanaşmanın formalaşmasında Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin mühüm tərkib hissəsidir. Bütün mərkəzlərdə internetə açıq olan kompüterlər qoyulub və vətəndaşların bütün növ elektron xidmətlərdən yararlanması üçün şərait yaradılıb.

"ASAN xidmət" mərkəzlərində vətəndaşların gözləməsi və vaxtını səmərəli keçirməsi üçün funksional yardımçı xidmətlər – bank, sığorta, hüquqi yardım və tərcümə mərkəzləri, laboratoriya, tibbi xidmət, poçt şöbələri, fotostudiya fəaliyyət göstərir. Xüsusi terminallar vasitəsilə mobil rabitə, internet, işıq, su, qaz və digər kommunal xidmətlərin, kredit və sığorta ödənişlərinin həyata keçirilməsi mümkündür. Xidmət sistemi müasir İP telefon və İP şəbəkə ilə təmin edilib.

"ASAN xidmət" mərkəzinin fəaliyyətinin məqsədi dövlət orqanlarının hüquqi xidmətlərinin göstərilməsində vətəndaşların razı salınması, şəffaflığın təmin edilməsi, korrupsiya hallarının tam aradan qaldırılması, müasir texnologiyaların, "bir pəncərə" prinsipinin tətbiq olunması, dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni düşüncə tərzinin – "dövlət qulluqçusunun vəzifəsi vətəndaşın hüququnu təmin etməkdir" yanaşmasının formalaşdırılmasıdır.

Startapların inkişafı Azərbaycanda gənclər üçün mühüm imkanlar açır. Gənc proqramçılar, marketoloqlar, dizaynerlər və data analitikləri öz bilik və bacarıqlarını yeni və yaradıcı sahələrdə sınaya bilirlər. Bu isə ənənəvi iş yerlərindən fərqli olaraq daha çevik və innovativ mühitdə işləməyə əlverişli şərait yaradır. Startap mədəniyyəti həm də risk almağa, təşəbbüskarlığa və komanda işinə əsaslanır ki, bu da yeni nəsil üçün mühüm inkişaf mühitidir.

Son illərdə ölkədə keçirilən "InnoWeek", "InnoFest", "Startup Grind", "Seedstars Baku" kimi tədbirlər gənclər arasında startap düşüncəsinin yayılmasına və şəbəkələşməyə şərait yaradıb. Bundan əlavə, "Startup Azərbaycan", "SUP VC", "SABAH.lab" və "INNOLAND" kimi innovasiya mərkəzləri bu sahədə həm mentorluq, həm də investisiya dəstəyi göstərir.

Startaplar yalnız daxili resursların səfərbər olunmasına deyil, həm də xaricdə yaşayan azərbaycanlı mütəxəssislərin ölkəyə qayıtmasına şərait yaradır. Son illərdə bir sıra uğurlu startap layihələrində, xüsusilə texnoloji sahədə, diaspor üzvlərinin fəal iştirakı müşahidə olunur. Bu proses həm Azərbaycanın intellektual potensialının geri qaytarılması, həm də beynəlxalq təcrübənin yerli mühitə transferi baxımından önəmlidir. Məsələn, "Whelp", "Keepface", "Nextsale" kimi beynəlxalq bazarlara çıxış əldə edən startapların arxasında azərbaycanlı beyinlər dayanır. Bu şirkətlər, həmçinin yerli mütəxəssislərlə əməkdaşlıq edərək səmərəli təcrübə mübadiləsi mühiti yaradır.

Startaplar klassik korporativ strukturlardan fərqli olaraq daha çevik, demokratik və təşəbbüskarlığa əsaslanan modellərlə fəaliyyət göstərirlər. Bu yanaşma ölkədə sahibkarlıq mədəniyyətinin formalaşmasına mühüm təsir göstərir. Yaradıcı düşüncə, problem həlletmə qabiliyyəti və məhsul yönümlü yanaşma yeni nəsil mütəxəssislər arasında daha geniş yayılmağa başlayıb.

Təhsil müəssisələrində və inkubasiya mərkəzlərində təşkil edilən startap düşərgələri, ideya müsabiqələri və "bootcamp"lər bu mədəniyyətin yayılmasında mühüm rol oynayır. Eyni zamanda, dövlətin təşviq etdiyi "Yenilikçi gənclər proqramı", "TechBridge", "Yeni fikir" kimi layihələr gəncləri öz biznes ideyalarını reallaşdırmağa ruhlandırır.

Startapların inkişafı ölkədə özəl sektora olan marağın artmasına səbəb olur. Gənclər və investorlar getdikcə daha çox texnologiya əsaslı biznes ideyalarına yönəlirlər. Bu isə, ümumilikdə, iqtisadiyyatda yeni bir sinifin – texnoloji sahibkarların formalaşmasına gətirib çıxarır.

Bununla paralel olaraq, startaplar dövlət büdcəsindən və neft gəlirlərindən asılılığın azalmasına da yardım edir. Texnologiya əsaslı kiçik və orta müəssisələrin artması, daxili ÜDM-də qeyri-neft sektorunun payının yüksəlməsi və ixracın diversifikasiyası kimi nəticələr artıq uğurla gerçəkləşir.

Azərbaycan hökumətinin 2022–2026-cı illər üçün təsdiq etdiyi milli prioritetlərdə də rəqəmsal iqtisadiyyat və innovasiya əsaslı inkişaf strategiyası əsas istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Ekspertlər tərəfindən isə dövlətin startap ekosistemi strateji inkişaf aləti kimi yüksək dəyərləndirilib.

Beləliklə, deyə bilərik ki, Azərbaycanda startapların inkişafı təkcə texnoloji irəliləyiş deyil, eyni zamanda, sosial-iqtisadi transformasiyanın mühüm hissəsidir. Gənclərin potensialının reallaşması, innovasiya mədəniyyətinin formalaşması, xaricdəki mütəxəssislərin ölkəyə cəlb edilməsi və özəl sektorun genişlənməsi baxımından startaplar gələcəyə yönəlik əsas vasitələrdən biridir. Bu prosesin davamlı olması üçün hökumət dəstəyi ilə yanaşı, investorların fəallığı, təhsil sisteminin yenilənməsi və beynəlxalq əlaqələrin gücləndirilməsi zəruridir. Azərbaycan isə innovasiyaya əsaslanan, dayanıqlı və rəqabətqabiliyyətli iqtisadi modelə doğru mühüm addımlar atmaqdadır.

# Azərbaycan əhalisinin yarısı əmək cəbhəsindədir

**2025-ci il mayın 1-i vəziyyətinə olan ilkin məlumatlara əsasən, Azərbaycanda iqtisadi fəal əhalinin sayı 5 milyon 323,3 min nəfər olub. Onlardan 5 milyon 39,6 min nəfərini məşğul əhali təşkil edib. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.**



Bildirilib ki, cari il aprelin 1-i vəziyyətinə muzdla çalışan işçilərin sayı 1 milyon 774,9 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 880,1 min nəfər, qeyri-dövlət sektorunda isə 894,8 min nəfər təşkil edib. İqtisadiyyatın neft-qaz sektorunda 31,5 min nəfər, qeyri-neft-qaz sektorunda isə 1 milyon 743,4 min nəfər çalışıb.

Komitənin məlumataına əsasən, müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 22,7 faizi məhsul istehsalı sahələrində, o cümlədən 7,6 faizi emal sənayesində, 6,6 faizi tikintidə, 2,6 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 2,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 1,8 faizi mədənçıxarma sənayesində, 1,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində məşğul olub.

Xidmət sahəsində işləyənlərin isə 18,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 18,6 faizi təhsil, 8,5 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,3 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,2 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 4,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,9 faizi peşə, elmi və texniki fəaliyyət, 3,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 3 faizi istirahət, əyləncə və incəsənət, 2,3 faizi maliyyə və sığorta fəaliyyəti, 2 faizi informasiya və rabitə, 1,1 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar və 1,1 faizi digər sahələrdə xidmətlərin göstərilməsi üzrə çalışıb.

2025-ci ilin ilk rübünün sonuna ölkə ərazisində haqqı ödənilən əmək fəaliyyətinə dair verilmiş və müddəti uzadılmış iş icazələrindən qüvvədə olanlara malik əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sayı 2067 nəfər təşkil edib. Onlardan 41,5 faizi tikintidə, 10,7 faizi emal sənayesində, 8,1 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 7,6 faizi mədənçıxarma sənayesində, 5,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 4,5 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi və 22,1 faizi digər sahələrdə məşğul olmaq üçün iş icazələrinə malik olub. Bu ilin yanvar-mart aylarında bir işçiyə düşən orta aylıq işlənmiş iş saatlarının miqdarı 135,8 saat təşkil edib.

# Minik avtomobilləri istehsalı 2 dəfə artıb

**Cari ilin yanvar-aprel aylarında Azərbaycanda 1824 minik avtomobili istehsal edilib. Bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 876 ədəd və ya 92,4 faiz çoxdur.**



Bununla belə hesabat dövründə ölkədə yük avtomobili və traktorların istehsalında kəskin azalma qeydə alınıb. Belə ki, cari ilin ilk 4 ayında avtomobil müəssisələri tərəfindən cəmi 33 yük maşını və 199 traktor istehsal olunub.

Qeyd edək ki, Azərbaycanda maşın və avadanlıqların, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində 2025-ci ilin yanvar-aprel aylarında 205,8 milyon manatlıq məhsul istehsal edilib. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə maşın və avadanlıqların istehsalı 26,6 faiz artıb, avtomobil, qoşqu və yarımqoşquların istehsalı isə 3,9 faiz azalıb.

**Azərbaycan Mərkəzi Bank tərəfindən ictimaiyyəti əsas statistik göstəricilər və analitik icmallarla operativ qaydada təmin etmək məqsədilə yeni "İnteraktiv statistik məlumat bazası" – naviqasiya yaradılıb.**

# "İnteraktiv statistik məlumat bazası"

## *Mərkəzi Bankda bu adda naviqasiya yaradılıb*



Qurumdan verilən məlumata görə, yeni naviqasiya sistemi daxili və xarici istifadəçilərin kritik məlumatlara çıxış imkanlarını genişləndirmək məqsədilə Azərbaycan və ingilis dillərində, funksional və müasir interfeysdə hazırlanıb. Hazırda Naviqasiya ana səhifə və 5 fərqli bölmədən (makroiqtisadi statistika, monetar statistika, maliyyə sektorunun statistikası, ödəniş sistemlərinin statistikası və xarici sektorun statistikası) ibarətdir. Hər bir bölmə üzrə məlumat tutumlu lövhələr, qrafiklər və cədvəllər yer almaqdadır. Bununla yanaşı, naviqasiya sistemində ana səhifədə xüsusi "Dinamik xəritə" bölməsi yaradılıb. Həmin bölmədə hər bir şəhər (rayon) üzrə ən vacib maliyyə göstəricilərini təhlil etmək mümkündür.

Qeyd edək ki, bu təşəbbüs elmi-tədqiqat işlərinin aparılması, proqnozlaşdırma, analitik arayışların hazırlanması və s. kimi məqsədlər üçün məlumat bazası rolunda çıxış edəcək. Növbəti dövrlərdə zərurət olduqda Naviqasiya sisteminin əhatəliliyinin artırılması imkanlarına da baxılacaq.

Artıq "İnteraktiv statistik məlumat bazası" Mərkəzi Bankın rəsmi internet səhifəsində statistika bölməsinə inteqrasiya edilib. "İnteraktiv statistik məlumat bazası"na isə https://navigation.e-cbar.az/ keçidi vasitəsilə daxil olmaq mümkündür.

# Energetikanın gəlirləri çoxalıb

**Bu ilin yanvar-aprel aylarında Azərbaycanda elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda 1 milyard 295,2 milyon manat dəyərində məhsul istehsal olunub və xidmətlər göstərilib. Bu isə illik müqayisədə 1,9 faiz çoxdur.**



Dövlət Statistika Komitəsinin məlumatına görə, hesabat dövründə ölkədə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal edilmiş məhsulların həcmi 197,6 milyon manat təşkil edib ki, bu da əvvəlki ilin müvafiq dövrünün göstəricisi ilə müqayisədə 3,7 faiz artım deməkdir.

Xatırladaq ki, 2024-cü il ərzində Azərbaycanda elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda 3 milyard 137,3 milyon manat dəyərində məhsul istehsal olunub və xidmətlər göstərilib.

Ötən il ölkədə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal edilmiş məhsulların həcmi isə 628,4 milyon manat təşkil edərək əvvəlki illə müqayisədə 2,7 faiz artıma nail olunub.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# TRACECA – Avropanı Asiya ilə qovuşduran Qafqaz yolu

**Azərbaycan coğrafi mövqeyi və nəqliyyat potensialı baxımından Avropa ilə Asiya arasında körpü rolunu oynayan mühüm bir ölkədir. Bu kontekstdə Avropa – Qafqaz – Asiya nəqliyyat dəhlizi – TRACECA Proqramı Azərbaycanın xarici iqtisadi siyasətində və nəqliyyat strategiyasında xüsusi yer tutur. TRACECA Proqramının əsas məqsədi üzv ölkələr arasında multimodal daşımaların inkişafı, tranzit imkanlarının genişləndirilməsi, eləcə də ticarət və iqtisadi əlaqələrin möhkəmləndirilməsidir. Bu proqramın təşəbbüskarlarından biri olan Ümummilli lider Heydər Əliyevin onun reallaşmasında və beynəlxalq aləmdə nüfuz qazanmasında mühüm rolu xüsusi diqqət çəkir.**

Xatırladaq ki, 1998-ci il sentyabrın 7-8-də Bakıda keçirilən və 13 ölkənin nümayəndələrinin iştirak etdiyi Beynəlxalq TRACECA Konfransı çərçivəsində “Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş” imzalanıb. Bu sənəd ötən müddətdə region ölkələrinin nəqliyyat infrastrukturunun uyğunlaşdırılması, gömrük prosedurlarının sadələşdirilməsi və dəhliz boyunca təhlükəsiz, rəqabətqabiliyyətli daşımaların təşviqi baxımından əsaslı önəm daşıyıb.

Qeyd edək ki, Azərbaycanın təşəbbüsü ilə 2001-ci il fevralın 21-də Bakıda TRACECA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin açılması isə ölkəmizin bu proqramdakı fəallığından irəli gəlib. Katibliyin məhz Bakı şəhərində yerləşməsi Azərbaycanın nəqliyyat qovşağı kimi strateji rolunu daha da gücləndirib.

TRACECA çərçivəsində son illərdə respublikamızda mühüm infrastruktur layihələri həyata keçirilib. Məsələn, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yenidən qurulmasına, Bakı – Tbilisi – Qars dəmir yolu xəttinin, avtomobil yollarının müasirləşdirilməsinə, beynəlxalq tələblərə uyğunlaşdırılmasına başlanılıb. Bundan başqa, Azərbaycanın gömrük və sərhəd idarəetmə sistemində rəqəmsallaşma və sadələşdirmə yönümlü islahatlar bu dəhliz ilə tranzit proseslərinin səmərəliyini və cəlbediciliyini yüksəldib. Bu addımlar nəticəsində ölkəmiz Şərq – Qərb və Şimal – Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində etibarlı tranzit tərəfdaşına çevrilib.

TRACECA Proqramı yalnız nəqliyyat layihəsi deyil, həm də regional sabitliyə, əməkdaşlığa və iqtisadi inkişafın təşviqinə yönələn genişmiqyaslı platformadır. Bu platforma çərçivəsində Azərbaycanın oynadığı rol təkcə milli maraqların deyil, həm də bölgə və qlobal nəqliyyat təhlükəsizliyinin təminatına xidmət edir.




Nəticə etibarilə, TRACECA proqramının icrası respublikamız üçün regional liderlik mövqeyini möhkəmləndirən, eyni zamanda, ölkənin qeyri-neft sektorunun və logistika imkanlarının inkişafına töhfə verən strateji istiqamət kimi daim diqqət çəkib. Bu istiqamətdə gerçəkləşdirilən məqsədyönlü siyasət Azərbaycanı Avrasiya məkanında dayanıqlı və səmərəli nəqliyyat qovşağına çevirib. Ümumiyyətlə, TRACECA Proqramı fəaliyyət göstərdiyi ötən illər ərzində üzv ölkələr arasında multimodal daşımaların təşviqi, tranzit daşımalar üçün əlverişli şəraitin yaradılması, ticarət-iqtisadi və nəqliyyat əlaqələrinin inkişaf etdirilməsi sahələrində əməkdaşlığın genişləndirilməsinə, eləcədə həmin ölkələrin iqtisadi potensialının artırılmasına mühüm töhfələr verib.

Azərbaycan Respublikası Avropa – Qafqaz – Asiya regionunda nəqliyyat dəhlizlərinin və əlaqəli infrastrukturun inkişaf etdirilməsinin vacibliyini nəzərə alaraq, bir sıra layihələrin həyata keçirilməsi üçün sərmayələr yatırır, ikitərəfli və çoxtərəfli əsasda əməkdaşlığı daim diqqətdə saxlayır. Bununla bağlı onu da bildirək ki, respublikamız region üçün vacib layihələrin təşəbbüskarı olmaqla yanaşı, həm də Bakı – Tbilisi – Ceyhan, Bakı – Tbilisi – Qars dəmir yolu, Cənub Qaz Dəhlizi kimi vacib beynəlxalq layihələrin əsas həmicraçısı, beynəlxalq nəqliyyat dəhlizlərində daşımaların, o cümlədən multimodal infrastrukturun təşviqinə dəstək verən Şərq – Qərb və Cənub – Qərb avtomobil yolları, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və digər yerli layihələrin icraçısıdır.

Yeri gəlmişkən, təkcə TRACECA deyil, digər beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində həyata keçirilən layihələr daşınan yüklərin həcminə öz müsbət təsirini göstərib. Dövlət Sttistika Komitəsinin məlumatına əsasən, 2025-ci ilin yanvar – mart aylarında nəqliyyat dəhlizlərində dəmir yolu nəqliyyatı ilə 3 milyon 672,1 min ton, dəniz nəqliyyatı ilə 1 milyon 763,9 min ton və avtomobil nəqliyyatı ilə 2 milyon 553 min ton yük daşınıb. Şərq – Qərb nəqliyyat dəhlizi ilə daşınan yüklərin həcmi 3 milyon 994,8 min ton, o cümlədən Avropa – Qafqaz –Asiya nəqliyyat dəhlizi ilə 1 milyon 875,4 min ton, Şimal – Cənub nəqliyyat dəhlizi ilə 2 milyon 441,1 min ton, Şimal – Qərb nəqliyyat dəhlizi ilə 1 milyon 418,4 min ton, Cənub – Qərb nəqliyyat dəhlizi ilə isə 1 milyon 34,7 min ton təşkil edib.

Sttistika Komitəsinin məlumatında o da bildirilir ki, cari ilin birinci rübündə TRACECA nəqliyyat dəhlizinin Azərbaycan hissəsi ilə daşınan yüklərin həcmi 1 milyon 875,4 min ton olub.

## Ekspert rəyi

*Aqil ƏSƏDOV,*
*İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri*



TRACECA-nın uğurları beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycanın əlverişli coğrafi mövqedə yerləşməsindən və ən azı onun qədər əhəmiyyət kəsb edən, həyata keçirilən düzgün siyasətdən qaynaqlanır. Belə ki, hələ uzun illər öncədən respublikamızda nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi istiqamətində qəbul edilən davamlı və sistemli qərarlar nəticəsində ölkə istənilən növ daşınmanı həyata keçirməyə, qəbul etməyə, saxlamağa və yola salmağa qadirdir.

Böyük İpək Yolunun bərpası istiqamətində davamlı işlər görən, layihələr həyata keçirən Azərbaycan Respublikası, nəhayət, 2005-ci ildə Şimal – Cənub Nəqliyyat Dəhlizinə də qoşuldu. Beləliklə, ölkənin Şərq – Qərb (Böyük İpək Yolu) və Şimal – Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində Avropa və Asiyanın mühüm nəqliyyat tranzit qovşağına çevrilmək imkanları daha da artdı. Onu da qeyd edək ki, Azərbaycan yeganə ölkədir ki, Şimal – Cənub və Şərq – Qərb nəqliyyat dəhlizləri layihələrinin hər ikisində də iştirak edir.

Bu gün “Dəmir İpək Yolu” adlandırılan BTQ dəmir yolu Çinin elan etdiyi, Azərbaycan da daxil olmaqla bir sıra ölkələrin dəstəklədiyi “Bir kəmər, bir yol” iqtisadi inkişaf strategiyasının tərkib hissəsinə çevrilib. BTQ-nin qarşısına isə Çindən və Cənub – Şərqi Asiyanın digər ölkələrindən Avropaya yüklərin daşınması əsas vəzifə kimi qoyulub. İnamla demək olar ki, bu dəmir yolu qitələrarası daşımalar üçün böyük imkanlar vəd edir. Beləliklə, Avrasiyanın nəqliyyat xəritəsini yeniləyən BTQ Azərbaycanı əhəmiyyətli tranzit daşımalar mərkəzinə çevirib və bu yol ilə gələcəkdə 15 milyon tonadək yük daşımaq mümkün olacaq.

Bünövrəsi Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan strategiyanın uğurla davam etdirilməsi nəticəsində Azərbaycan dünyanın əsas yük axını istiqaməti olan Çin – Avropa – Çin arasında əsas həlledici qüvvəyə çevrilib. Dünyada və regionda baş verən geosiyasi hadisələrin də rəvac verdiyi bir sıra səbəblərdən Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi – Orta dəhliz Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən keçməklə Avropa ilə Asiyanı birləşdirən ən qısa və rahat marşrutdur.

Onu da qeyd edək ki, Bakı Beynəlxalq Dəniz Ticarət Limanında azad iqtisadi zonanın yaradılması istiqamətində intensiv işlər aparılır. Bu da ölkəmiz üçün uzunmüddətli iqtisadi perspektivlər vəd edir. Orta Dəhlizin digər marşrutlara inteqrasiyası isə gözlənilən dividendləri daha da artıracaq. Orta Dəhliz marşrutu ilə daşınan yüklər həm də Azərbaycanın ərazisindən keçən Şimal – Cənub və Şərq – Qərb dəhlizlərinə inteqrasiya edilmiş yollarla daşına bilər. Eyni zamanda, 44 günlük Vətən müharibəsində işğaldan azad edilən Şərqi Zəngəzur regionunda da dəhlizin inkişaf etdirilməsi perspektivləri mövcuddur. Zəngəzur vasitəsilə Naxçıvandan Türkiyəyə, oradan isə daha geniş coğrafiyaya çıxış mümkündür. Başqa sözlə desək, Zəngəzur dəhlizi açıldıqdan sonra Azərbaycanın Orta Dəhliz vasitəsilə daşınma imkanları daha da genişlənəcək. Bu da bütün region dövlətləri üçün yeni fürsətlər yaradacaq.

Bu məqamda xüsusilə qeyd edək ki, “Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024–2026-cı illər üçün” Fəaliyyət Planının qəbulu zamanında verilən, yüksək siyasi-iqtisadi və strateji əhəmiyyətə malik bir qərardır.

# BP-nin ali təhsilə növbəti töhfəsi

## Şirkət AMİU-ya daha 3 laboratoriya hədiyyə edib

**Dünən BP şirkətinin Azərbaycan Memarlıq və İnşaat Universitetində yaratdığı tam təchiz edilmiş 3 yeni laboratoriyanın açılışı olub. Bu, şirkətin ölkəmizdə təhsilin inkişafına və innovasiya potensialının artırılmasına növbəti əhəmiyyətli töhfəsidir. Yeni laboratoriyalar BP-nin ali məktəbə hədiyyə etdiyi 3 laboratoriyaya əlavə olaraq universitetin texniki infrastrukturunun genişləndirilməsinə xidmət edəcək.**



Bu təşəbbüs şirkətin yerli universitetlərin tədris və tədqiqat imkanlarının müasirləşdirilməsinə dəstək öhdəliyinin bir hissəsi olmaqla təhsilin keyfiyyətinin artırılmasına və mühəndislik və tikinti sahələrində innovasiyaların təşviqinə yönəlib. Şirkətin təhsil müəssisəsinə hədiyyəsi olan ventilyasiya, su təchizatı və istilik texnikası laboratoriyası mühəndis sistemləri və qurğularının tikintisi kafedrasına, nasos və nasos qurğuları laboratoriyası meliorasiya və su təsərrüfatı tikintisi kafedrasına, daxili yanma mühərrikləri və hidravlik intiqal laboratoriyası isə texnoloji maşın və avadanlıqlar kafedrasına təqdim edilib.

Laboratoriyaların açılış tədbirində çıxış edən BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli ixtisaslaşdırılmış tədris obyektlərinin, infrastrukturun və avadanlıqların mövcudluğu tədris prosesinin müasirləşdirilməsində əsas rol oynadığını diqqətə çatdırıb: “Bu, ölkə üçün yeni nəsil memar və inşaat mühəndislərinin yetişdirilməsinə zəmin yaratmaqla, qabaqcıl beynəlxalq təcrübələrdən, rəqəmsal vasitələrdən və müasir texnologiyalardan istifadə edərək yeni tədris və təlim metodlarının tətbiqinə imkan verir. Çox məmnunuq ki, Memarlıq və İnşaat Universitetinin texniki imkanlarının artırılmasını dəstəkləmək, ümumilikdə isə Azərbaycanda yüksək keyfiyyətli təhsilin və elmi tədqiqatların inkişafına töhfə vermək imkanımız var.”

Qeyd edək ki, Layihənin ümumi dəyəri 170 min 245 manat (təxminən 100 min 144 ABŞ dolları) təşkil edir. Bu məbləğə bütün laboratoriya avadanlıqlarının alınması, çatdırılması və quraşdırılması, eləcə də yeni qurğu və texnologiyalardan səmərəli istifadəni və onlara lazımi texniki xidmətin göstərilməsini təmin etmək üçün universitet heyətinə hərtərəfli təlimin keçilməsi daxildir.

# TAP ilə 3,8 milyard kubmetr qaz nəql olunub

**Cari ilin əvvəlindən may ayının 10-dək Trans-Adriatik Boru Kəməri (TAP) ilə 3,82 milyard kubmetr qaz nəql olunub. Bu barədə boru kəmərinin operatoru olan TAP AG şirkəti məlumat yayıb.**

Bildirilib ki, təbii qazın 3,15 milyard kubmetri İtaliyaya, 0,35 milyard kubmetri Yunanıstana, 0,29 milyard kubmetri isə Bolqarıstana ixrac olunub. Ümumilikdə isə, kommersiya istismarının başlanğıcından bu il may ayının 10-dək isə TAP ilə 46,5 milyard kubmetrdən çox təbii qaz nəql edilib.

Xatırladaq ki, Trans-Adriatik Boru Kəmərinin tikintisi 2020-ci ilin oktyabrında başa çatıb. TAP-ın ümumi uzunluğu 878 kilometr təşkil edir ki, bunun da 550 kilometri Yunanıstanın şimal hissəsindən, 215 kilometri Albaniya ərazisindən, 105 kilometri Adriatik dənizinin dibi ilə, 8 kilometri isə İtaliya ərazisindən keçir. Azərbaycan qazının TAP vasitəsilə İtaliya, Yunanıstan və Bolqarıstandakı istehlakçılara tədarükünə isə 2020-ci il dekabrın 31-dən başlanılıb.




Azərbaycan və Avropa İttifaqı arasında əldə edilən razılaşmaya əsasən, 2027-ci ilə qədər Azərbaycan qazının tədarükü ildə azı 20 milyard kubmetrə çatmalıdır. TAP-ın genişləndirilməsinin birinci mərhələsi çərçivəsində İtaliya 1 milyard kubmetr, Albaniya isə 200 milyon kubmetr Azərbaycan qazı alacaq.

# “Gilar” qızıl yatağı tam işə düşdü



**Azərbaycanda qızıl, gümüş və mis hasilatı ilə məşğul olan “Anglo Asian Mining Plc.” (AAM) şirkəti mayın 19-da Daşkəsən rayonunda yerləşən “Gilar” qızıl yatağında tammiqyaslı hasilata başladığını elan edib.**

Bu barədə məlumat yayan Böyük Britaniya şirkətindən bildirilib ki, hazırda hasilat sözügedən yatağın “4-cü zona” adlandırılan ərazidə aparılır. Əvvəlcə filiz dore ərintisi şəklində qızılın çıxarılması üçün qələvi üsulu ilə, sonra isə mis konsentratı əldə etmək üçün flotasiya metodu ilə emal ediləcək. “Anglo Asian Mining” yatağın tammiqyaslı işlənməsi çərçivəsində gündəlik, təxminən, 2 min ton filiz çıxarmağı planlaşdırır. Bütövlükdə isə, şirkətin orta səviyyəli mis istehsalına keçidi kontekstində mühüm aktivi sayılan “Gilar” yatağında istehsal prosesinin tədricən artırılmasından sonra hasilat ayda 50–60 min ton filizə çatdırılacaq.

“Anglo Asian Mining”in baş direktoru Reza Veziri deyib: “Gilar”da tam miqyaslı hasilatın başlanması barədə məlumat verməkdən məmnunuq. 54 min tondan çox mis və 255 min unsiya qızıl ehtiyatları ilə “Gilar” orta səviyyəli mis istehsalına keçid strategiyamızda mühüm rol oynayacaq”.

Yeri gəlmişkən, “Gilar” yatağında ilk filiz hasilatına bu ilin mart ayında başlanıb. Hazırda istismarda olan “4-cü zona”-da filiz ehtiyatları 2,4 milyon ton həcmində qiymətləndirilir. Filizdə misin miqdarı 1,47 faiz, qızılın miqdarı isə 1,78 q/t təşkil edir. Ümumilikdə isə, 2025-ci ildə Böyük Britaniya şirkəti yataqdan, təxminən, 400 min ton filiz hasil etməyi nəzərdə tutur.

Xatırladaq ki, “Gilar” yatağı şirkətin emal obyektlərindən, təxminən, 7 kilometr məsafədə, Gədəbəy müqavilə sahəsinin şimal sərhədi yaxınlığında yerləşir. Ərazidə aparılan uğurlu qazma nəticələrinin ardınca 2022-ci ilin sonlarında “Gilar” yeraltı mədəninin inkişafına başlanılıb. Yatağın JORC standartı üzrə ümumi mineral ehtiyatları 54 min ton mis və 255 min unsiya qızıl təşkil edir.

Mədən tikintisi tamamlanan iki yeraltı tuneldən ibarətdir. Uzunluğu 1,462 metr olan əsas kəşfiyyat tuneli gələcək hasilat üçün istifadə olunacaq. Paralel havalandırma tuneli isə mədəni dəstəkləyir. Əsas tunel mart ayının əvvəlində mineral zonasına qədər uzadılıb. Hazırda çoxsəviyyəli hasilat üçün spiral rampaların çəkilməsi də daxil olmaqla əlavə tunel işləri davam edir

Strateji inkişaf planına əsasən, “Anglo Asian Mining” şirkəti 2029-cu ilə qədər orta səviyyəli çoxprofilli mis və qızıl istehsalçısına çevrilməyi planlaşdırır. Həmin vaxta qədər mis şirkətin əsas məhsulu olacaq və hasilat, təqribən, 50–55 min ton həcmində proqnozlaşdırılır. Britaniya şirkəti bu artıma 2025–2029-cu illərdə “Zəfər”, “Gilar”, “Xarxar” və “Qaradağ” yataqlarında 4 yeni mədənin istismara verilməsi hesabına nail olmaq niyyətindədir.

Hazırda isə “Anglo Asian Mining” “Gədəbəy” və “Qoşa” müqavilə sahələrindən qiymətli metal hasil edir. 1997-ci il avqust ayının 21-də imzalanmış hasilatın pay bölgüsü tipli müqavilə 6 yatağın işlənməsini nəzərdə tutub. Müqavilədə Azərbaycanın payı 51 faiz, “Anglo Asian Mining PLC” şirkətinin payı isə 49 faiz təşkil edir. Ümumilikdə isə, şirkət Azərbaycanda 8 müqavilə sahəsini işləmək hüququna malikdir.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# GlobE Şəbəkəsinin Bakı görüşü

## *Ölkəmiz korrupsiyaya qarşı qlobal mübarizənin önündədir*




**Mayın 19-da Azərbaycan Respublikası Prokurorluğu və BMT-nin Korrupsiyaya Qarşı Mübarizə üzrə Hüquq Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin birgə təşkilatçılığı ilə Bakı şəhərində GlobE Şəbəkəsinin İdarəetmə Komitəsinin Görüşü keçirilib.**

Açılış mərasimində iştirak edən Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində əldə edilən mühüm nailiyyətlərə toxunub.

Baş prokuror bu sahədə riskləri minimallaşdırmaqla vətəndaşlara dövlət xidmətlərinin göstərilməsində innovativ yanaşmaları özündə cəmləyən Asan xidmət modelini, Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyanı və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsini ətraflı təqdim edib, habelə, xarici nümayəndələrə Azərbaycanın digər institusional, hüquqi və praktiki yanaşmalarını izah edib.

GlobE Şəbəkəsinin fəaliyyətinə də toxunan Kamran Əliyev hazırda 126 ölkədən 235 hüquq mühafizə orqanının fəaliyyətini əlaqələndirən bu beynəlxalq təşkilatın korrupsiya cinayətlərinin qarşısının alınması və araşdırılmasında çevik, işlək və praktiki həllər təqdim etdiyini qeyd edərək, Azərbaycan Respublikasının bu qlobal təsisatın inkişafına verdiyi dəstəyi vurğulayıb.

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin (UNODC) Korrupsiya və İqtisadi Cinayətlər şöbəsinin rəhbəri Brigitte Strobel-Şav, GlobE Şəbəkəsinin İdarəetmə Komitəsinin sədri Nasser Abaalkail və sədr müavini Boni de Moraes Soares tədbirin peşəkar şəraitdə təşkilinə görə təşəkkür edib və Şəbəkənin ötən dövr ərzində həyata keçirdiyi işlərdən, İdarəetmə Komitəsinin cari görüşündə müzakirə olunan məsələlərdən bəhs ediblər.

Baş prokuror Kamran Əliyev Səudiyyə Ərəbistanı Krallığının Nəzarət və Korrupsiyaya qarşı Mübarizə Qurumunun (NAZAHA) prezidenti Mazin Bin İbrahım Əl-Kahmus ilə ikitərəfli görüş keçirib.

Görüşdə Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında mövcud olan güclü tarixi siyasi əlaqələr və hüquq-mühafizə sahəsində əməkdaşlığın inkişafı müzakirə olunub. Kamran Əliyev, korrupsiyaya qarşı mübarizədə təcrübə mübadiləsinin və qarşılıqlı əlaqələrin vacibliyini vurğulayıb.

Mazin Bin İbrahım Əl-Kahmus isə, Səudiyyə Ərəbistanının korrupsiyaya qarşı mübarizədə həyata keçirdiyi ardıcıl tədbirlər və hüquqi mexanizmlərin gücləndirilməsinə önəm verdiyini qeyd edib. O, beynəlxalq əməkdaşlıq, xüsusilə GlobE Şəbəkəsi çərçivəsində təcrübə və məlumat mübadiləsinə açıq olduqlarını və bu istiqamətdə Azərbaycanla əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını bildirib.

*

Dünən Baş prokuroru Kamran Əliyev Vyetnam Sosialist Respublikasının Baş Prokurorunun müavini Nquyen Quanq Dunqun rəhbərlik etdiyi nümayəndə heyəti və Qətər Dövlətinin İnzibati Nəzarət və Şəffaflıq Qurumunun rəhbəri Həməd bin Naserv AI-Misnəd ilə də görüşüb.

***XQ***

# Dini qurum rəhbəri vətəndaşlarla görüşüb

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov mayın 19-da Qazax, Ağstafa, Tovuz, Şəmkir və Gədəbəy rayonlarından olan vətəndaşları qəbul edib.**



Qəbul zamanı Qazax, Ağstafa, Tovuz, Şəmkir və Gədəbəy rayonlarından olan vətəndaşlar İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyinatı, dini təhsil, məscidin dini ədəbiyyatla təmin olunması və digər məsələlərlə bağlı müraciət ediblər. Dövlət Komitəsinin aidiyyəti struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciət və təklifləri diqqətlə dinlənilib, müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

***XQ***

# Dövlət Təhlükəsizliyi Xidməti Mətbuat xidmətinin məlumatı

**Terror qruplaşmasında fəaliyyətində iştirak edən Azərbaycan vətəndaşları ölkəyə gətiriliblər.**

Beynəlxalq terror təşkilatları ilə əlaqəsi olan Azərbaycan Respublikasının vətəndaşlarından ibarət cinayətkar dəstələr formalaşdırma, ölkənin şimal bölgəsində meşə massivində yeraltı sığınacaqlar yaradılması ilə müşayiət olunan terror aktlarına hazırlıq, bu məqsədlə silah-sursat, partlayıcı maddələr, texniki qurğular və digər zəruri ləvazimatlarla təchiz etmə əməlləri ilə bağlı Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) başlanılmış cinayət işləri üzrə kompleks əməliyyat-istintaq tədbirləri davam etdirilir.



Aparılan araşdırmalarla terrorçuluq cinayətlərinin törədilməsi məqsədilə yaradılmış dəstənin üzvləri olan Azərbaycan Respublikasının vətəndaşları – Vüqar Nəcəfli, Camal Gözəlov, Tofiq Yusifli və Dadaş Həşimovun 2024-cü ildə Azərbaycan Respublikasını tərk edərək Pakistan İslam Respublikasının Əfqanıstanla sərhədində yerləşən dağlıq ərazilərdə gizləndikləri təsbit edilmişdir. Onların beynəlxalq terror təşkilatının tərkibində Azərbaycanın hüdudlarından kənarda döyüş təlimlərində və silahlı münaqişələrdə iştirak etmələri, cinayətkar məqsədlərlə silahlı təlimlər keçmələri müəyyənləşdirilmişdir.

DTX tərəfindən tərəfdaş xarici xüsusi xidmət və hüquq-mühafizə orqanları ilə birgə həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində barələrində istintaq aparılan adları qeyd olunan şəxslərin xarici ölkələrin ərazisində ələ keçirilərək Azərbaycana gətirilmələri təmin edilmişdir.

Həmçinin görülən tədbirlərlə Tofiq Yusiflinin və Dadaş Həşimovun terrorçuluq fəaliyyətlərinin Azərbaycan Respublikasının vətəndaşları – Mir Cavad Hüseynli və Tural Ağayev tərəfindən maliyyələşdirildiyi, habelə sonuncuların digər cinayət əməlləri aşkar olunmuşdur.

Cinayətkar dəstənin üzvləri – Vüqar Nəcəfli, Camal Gözəlov, Tofiq Yusifli, Dadaş Həşimov, Mir Cavad Hüseynli və Tural Ağayev müvafiq olaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214-1 (terrorçuluğu maliyyələşdirmə), 283-1.3 (dini məzhəbləri yayma, dini ayinlərin icrası adı altında, dini düşmənçilik zəminində Azərbaycan Respublikasının hüdudlarından kənarda yaradılmış sabit qruplarda, təlimlərdə və silahlı münaqişələrdə iştirak etmə) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilmiş, məhkəmənin qərarı ilə barələrində həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

***XQ***

# Azərbaycan – Oman konsulluq məsləhətləşməsi



**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Oman Sultanlığının Xarici İşlər Nazirliyi arasında video-konfrans formatında ilk konsulluq məsləhətləşmələri keçirilib.**

Məsləhətləşmələrdə Azərbaycan nümayəndə heyətinə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Konsulluq idarəsinin rəisi Emil Səfərov, Oman nümayəndə heyətinə isə Oman Sultanlığının Xarici İşlər Nazirliyinin Konsulluq departamentinin rəisi Mohammed Bin Nasir Al-Mabsali rəhbərlik edib.

Məsləhətləşmələr zamanı Azərbaycan Respublikası və Oman Sultanlığı arasında konsulluq sahəsində əməkdaşlığın perspektivləri, bu sahədə ikitərəfli müqavilə-hüquq bazasının genişləndirilməsi imkanları müzakirə olunub.

***XQ***

# “Ankara dünya nizamında vacib diplomatik oyunçudur”

## *Böyük Britaniyanın sabiq səfiri Ərdoğanın xarici siyasətini belə dəyərləndirib*



**Bu günlərdə “TRT Global” telekanalının saytında nüfuzlu böyük britaniyalı diplomat, publisist İon Proudun “Ərdoğan parçalanmış dünya nizamında əsas güc vasitəçisi kimi ortaya çıxır” adlı analitik yazısı yerləşdirilib. Məqalənin aktuallığını nəzərə alaraq onu qısa ixtisarlara təqdim edirik:**

“Qərb diplomatiyası zəiflədikcə, Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyəni Ukraynadan tutmuş Yaxın Şərqə qədər, şəxsi iştirak və strateji müstəqilliklə dəstəklənən qlobal sülh səylərində əsas aktor kimi yerləşdirir.

Diplomatik irəliləyişlər, adətən, o halda baş verir ki, dövlət xadimləri rəqabət aparan ölkələr arasında kompromis əldə etmək üçün az vaxt sərf edirlər. Mayın 16-da İstanbulda başlayan Rusiya–Ukrayna danışıqları Prezident Ərdoğanın şəxsi iştirakı olmadan baş tutmayacaqdı. Qərbin diqqətinin getdikcə bölündüyü bir vaxtda Ankara yenidən vacib diplomatik oyunçu kimi önə çıxdı.

Ukrayna və Rusiya arasında 3 il əvvəl İstanbulda yarımçıq qalan birbaşa dialoqun bərpa olunması şübhəli görünürdü. Qlobal mediada aramsız ittihamlar və əks-ittihamlar artmaqda idi. İstanbul görüşünə Ukrayna Prezidenti Volodimir Zelenski, nəhayət, “prezident Tramp və prezident Ərdoğana hörmət edərək” Türkiyəyə danışıqlar heyətinin göndərilməsinə razılıq verdi.

Ağır müharibə edən tərəflər arasında mümkünsüz görünən dialoqun davam etdirilməsi böyük uğur sayıla bilər. Bu, regionda gedən proseslərdən təcrid olunmuş adi, təsadüfi bir uğur deyil, Türkiyənin artan diplomatik iddialarını və Ərdoğanın dünya səhnəsində fəaliyyət göstərən dövlət xadiminə çevrilməsini əks etdirən daha geniş modelin bir hissəsidir.

D.Tramp ABŞ-ın yenidən dövlət başçısı seçiləndən sonra deyib: “Prezident Ərdoğan ağıllı adamdır, onunla yaxşı anlaşıram”. İki lider bundan sonra Suriya və Qəzza da daxil olmaqla, Türkiyənin diplomatik imkanlarını daha da genişləndirəcək sahələrdə gələcək əməkdaşlığı müzakirə ediblər.

Ərdoğanın aparıcı beynəlxalq dövlət xadimi kimi ortaya çıxması strateji atributların, suveren çevikliyin və nəticəyə yönəlmiş diplomatik yanaşmanın birləşməsini əks etdirir.

Türkiyənin coğrafiyası, əhalisi, iqtisadi nüfuzu və hərbi potensialı əsas strateji sərvətlərdir. BVF-nin məlumatına görə, 2025-ci ildə Türkiyə G20-də İslam ölkələri arasında ən böyük iqtisadiyyata sahibdir. O, həmçinin güclü və təcrübəli qlobal qurumlar tərəfindən dəstəklənir və ABŞ-dan sonra NATO-nun ən böyük ordusuna sahibdir.

Bir vaxtlar bu atributlardan bəzilərini paylaşan Böyük Britaniya indi Avropa və Amerikanı ayıran qütbləşmə arasında sıxılaraq, aktuallığını təsdiqləmək üçün mübarizə aparır.

Ərdoğanın yanaşmasının mərkəzində “Yurdda sülh, dünyada sülh” prinsipinə əsaslanan xarici siyasət dayanır. Əvvəlcə Atatürk tərəfindən ifadə edilən bu doktrina daxili sabitliyi beynəlxalq əlaqənin əsası kimi görür.

İngiltərədən Almaniyaya, Fransadan Rumıniyaya qədər Avropa dövlətləri siyasi təlatümlərə məruz qalır. Ukraynada vəkalət müharibəsinin təşviqi qitədə iqtisadi inkişafı zəiflətdi və siyasi nifaq toxumları səpdi. Türkiyə kimi regional güclər istər Ukraynada, istər Suriyada, istərsə də qlobal ticarətdə mürəkkəb qlobal problemlərin həllində daha təsirli rol oynamağa başladıqca, Fransa, Almaniya kimi dövlətlər kənarda qaldı. Onların səsi beynəlxalq tribunalardan eşidilmədi.

Avropa liderlərindən fərqli olaraq, Ərdoğan blok konsensusu və ya ən aşağı ortaq məxrəc diplomatiyasının öhdəlikləri ilə bağlı deyil. O, Avropa və Asiyanın kəsişməsində yerləşən qüdrətli suveren dövlətin başçısı kimi tez və qətiyyətlə hərəkət edə bilir.

Trampın ikinci dönüşü ilə Avropanın beynəlxalq məsələlərdə əvvəlki çəkisini qoruyub saxlamadığı bir vaxtda, ABŞ Türkiyə ilə daha etibarlı və çevik tərəfdaş kimi işləməyə getdikcə daha həvəsli görünür.

Son illərdə Ərdoğan dünyanın ən mürəkkəb diplomatik çağırışlarından bəziləri ilə bağlı nəzərəçarpacaq nəticələr əldə edib.

Diqqətəlayiq nümunələrdən biri 2022-ci ilin iyulunda qlobal ərzaq qiymətlərinin sürətlə yüksəldiyi bir dönəmdə Ankaranın vasitəçilik etdiyi Qara dəniz taxıl təşəbbüsüdür. BMT-nin Baş katibi Antonio Quterreşin də dəstəyi ilə İstanbulda əldə edilən razılaşma, Ukraynadan taxıl ixracını asanlaşdırdı

2024-cü ildə Türkiyə Somali və Efiopiya arasında Ankara Sazişinə vasitəçilik etdi. Bu, Efiopiyaya iqtisadi dirçəlişi təmin etmək üçün Qırmızı dəniz limanlarına girişini mümkün edən, Somalinin isə separatçı hücumlarla ilə bağlı narahatlıqlarını həll edən iddialı bir razılaşma idi. Türkiyə həmin il Rusiya ilə Ukrayna arasında məhbus mübadiləsinin asanlaşdırılmasında da mühüm rol oynayıb.

R.T.Ərdoğan həm də uzun müddətdir davam edən regional münaqişələrin həllində potensial transformasiya rolunu oynayır. 40 illik zorakılıqlardan sonra PKK terror qruplaşması Türkiyə ilə daha geniş sülh təşəbbüsünün bir hissəsi olaraq, silahlı qarşıdurmadan imtina edir. Bəşər Əsədin devrilməsindən sonra Suriyanın beynəlxalq təcriddən çıxması regional tarazlığın yenidən formalaşmasına imkan yaradır.

Türkiyə Ukrayna və Rusiya ilə yaxşı münasibətləri olan və “hamı ilə danışa bilən, lakin heç kimə bağlı olmayan” çox az ölkələrdən biridir. XXI əsrin əvvəlləri dünya ictimaiyyəti Qərb dünyasında dövlət xadimliyinin fəlakətli “buxarlanması”nın şahidi oldu. İstər Qəzzadakı “soyqırımı”n həllində, istərsə də Ukraynada dağıdıcı müharibənin dayandırılmasında Qərb siyasi liderləri, bütövlükdə, bəşəriyyətin xeyrinə olan nəticələri axtarmaq əvəzinə, tərəfləri seçməyə çalışıblar.

Ərdoğan, əksinə, Türkiyəni diplomatik çağırışlara diqqətlə yanaşıb, qarşılıqlı hörmət və mümkün olan güzəştlər vasitəsilə fikir ayrılıqlarını aradan qaldırmağa çalışır.

İstənilən davamlı sülh hər iki tərəfin ədalətli nəticə əldə etdiklərini hiss etməsindən asılıdır. Avropa siyasətçiləri Ukraynada dəfələrlə bu həqiqəti gözdən qaçırıblar. Bu arada Tramp administrasiyası Baydenin ağır mirasından və ondan əvvəl Obama dövrünün normativ xarici siyasətindən imtina edərək, Ankaraya münasibətdə daha realist yanaşmaya üstünlük verir.

Güman ki, bu dəyişiklik Türkiyənin regional sabitliyin mühüm dayağı kimi statusunu gücləndirəcək. Bəli, bir daha vurğulayaq ki, Rusiya və Ukrayna nümayəndə heyətlərinin İstanbulda bir masa arxasına qayıtmalarına nail olması Ərdoğanın pərdə arxasında davamlı, səbirli səyləri nəticəsində mümkün olan böyük diplomatik uğurdur.

***Təqdim etdi:***
***Məsaim ABDULLAYEV***
***XQ***

Ziyəddin Göyüşov – 105

# Həyat fəlsəfəsinin tərcümanı

**Fəlsəfə elmləri doktoru, professor, Elmlər Akademiyasının müxbir üzvü Ziyəddin Göyüşov Azərbaycanda fəlsəfi-etik fikir tarixi problemlərini araşdırmış alim kimi yaddaşlarda yaşayır. O, zəngin elmi irsi ilə bərabər, ilk çoxcildli milli ensiklopediyanın yaradılmasında da fəal iştirak etmiş ziyalılarımızdan olub.**



Əslən qarabağlı olan Ziyəddin Göyüşov 1920-ci ilin may ayının 20-də Ağdam rayonunun Boyəhmədli kəndində dünyaya göz açıb. Ağdam Pedaqoji Texnikumunu bitirib doğma kənddə müəllimlik edib, sonra İkinci Dünya müharibəsinə yollanıb, yaralanıb və tərxis edilib. Müharibədən sonra Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) tarix fakültəsinin nəzdindəki fəlsəfə şöbəsinə daxil olub və 1950-ci ildə oranı bitirib. Ardınca Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun aspiranturasında oxuyub. Bütün ömrünü elmə həsr edib.

Ziyəddin Göyüşovun başlıca məramı qədim tarixi və mədəniyyəti olan Azərbaycanda əxlaqi ənənələri, etik baxışların inkişaf mərhələlərini sistemli şəkildə öyrənib tədqiq etmək idi.

Bütün yaradıcılığının ana xəttini özünüdərk təşkil edən Ziyəddin Göyüşov "Azərbaycan maarifçilərinin etik görüşləri", "Müasir burjua əxlaqının iflası", "XX əsrin əvvəllərində Azərbaycan maarifçilərinin əsərlərində əxlaq məsələləri", "Əxlaqi sərvətlər", "XIX – XX əsrlərdə Azərbaycanda etik fikir", "Həzz və iztirab", "Fəzilət və qəbahət", "Daxilə pəncərə" və s. kimi sanballı fəlsəfi-etik əsərləri ilə dəyərli irs qoyub getmişdir.

150 il əvvəl "Əkinçi"nin nəşrə başlaması ilə dövri mətbuatımızın əsası qoyulub. Böyük maarifçi demokrat, təbiətşünas, ictimai xadim Həsən bəy Zərdabinin yaratdığı, Azərbaycan fikir tarixində mühüm yer tutan ilk milli qəzetimiz millətin dirçəlişini özünə yenilməz bayraq etmiş olsa da, müəyyən tədqiqatlar nəzərə alınmasa, Zərdabi irsi geniş şərh edilməmişdi. Doğrudur, Əziz Mirəhmədov, Abbas Zamanov, Mirəli Axundov, Cəfər Cəfərov, Şıxəli Qurbanov kimi milli düşüncəli ziyalıların Zərdabi və başqaları haqqında ciddi tədqiqat işləri olub. Amma uzun illər onun yazdığı əsərlər, məqalələr qəzet və jurnalların saralmış vərəqlərində qalmışdı. Bu ideya sərvətini toplu halda xalqa çatdırmaq kimi mühüm vəzifəni öz üzərinə götürənlərdən biri məhz filosof Ziyəddin Göyüşov idi.

O, Həsən bəyin rus və Azərbaycan mətbuatı səhifələrindəki elmi-kütləvi əsərlərini toplayaraq iki kitab halında çap etdirib. Bu əsərlərdə XIX əsrin 2-ci yarısı və XX əsrin əvvəlində Azərbaycanın ictimai siyasi mühiti, xalq kütlələrinin həyat tərzi geniş işıqlandırılıb. Hər iki kitaba tərtibatçının daxil ediyi müqəddimə, qeydlər və lüğət əlavə vasait kimi əhəmiyyətlidir.

Ziyəddin Göyüşovun "H.B.Zərdabinin dünyagörüşü" əsəri zərdabişünaslıq elminə qiymətli töhfədir. Filosof alimin zəhməti sayəsində Həsən bəyin irsindən "Dil və din", "İttihadi-lisan" məqalələri kimi üzə çıxarılan çox əsərlərini misal gətirmək olar. Kitabın məziyyətlərindən biri də Zərdabi haqqında zəngin arxiv sənədlərindən, qəzet və jurnal məqalələrindən yaradıcı istifadə edilməsidir.

Onu da deyək ki, Ziyəddin Göyüşov, Abbas Zamanov və Murəli Axundov Zərdabinin nəşinin tapılıb Fəxri xiyabana köçürülməsi, məzarının abadlaşdırılması və büstünün qoyulması üçün də zəhmət sərf ediblər. Həmkarım, Əməkdar jurnalist Tahir Aydınoğlu yazır ki, onlar 30-cu illərdə Zərdabi ailəsinin də repressiyalara düçar edildiyinə görə incik düşmüş qızı Qəribsoltan xanımı birtəhər yola gətirərək məzarın yerini öyrəniblər...

Dolğun elmi yaradıcılığı bu gün də fikir adamlarının karına gələn maarifçi filosof 1982-ci ildə Bakıda dünyasını dəyişib. 62 illik ömründə həyat fəlsəfəsi səhifələrini diqqətlə araşdırmış Ziyəddin Göyüşovun əsərləri elmi fikir tarixində sanballı təhlilləri ilə ümumoxucu kütləsinin maraq mərkəzində qalmaqdadır.

***Ə.ƏLİYEV***
***XQ***

# Bir gün müəllimdir, bir gün də rəssam...

**Bəzən incəsənət kuluarlarında deyirlər ki, gənc rəssamların və heykəltəraşların özlərini göstərməsi üçün platformalar azdır. Fırça tutan gənclər üçün sərbəst meydan verilmir. Bu fikirlərdən rənglərin bir qədər qatılaşdırıldığı qənaəti yaranır. Yəni istedad varsa, hər hansı bir şəraitdə mütləq boy göstərəcək. Bunu fırçası ilə kətanlara həyat verən, dərsliklərə isə rəngli düşüncələrini köçürən rəssam-müəllim Təranə Əhmədovanın nümunəsində görmək olar.**



Təranə xanım Akademik Zərifə Əliyeva adına liseydə və Bakı Dövlət Universitetinin nəzdindəki "Gənc İstedadlar" liseyində təsviri sənət müəllimi kimi çalışır. Eyni zamanda Azərbaycan Dövlət İqtisad Universitetinin "Menecment sahələri üzrə idarəetmə ixtisası" üzrə təhsil alır. Onun həyatı incəsənətin biliklə necə bir ahəng yaratdığının bariz örnəyidir. Müəllim kimi onun üçün hər bir dərs, şagirdlərinin qəlbinə toxunan bir rəsm, təlim və sənət isə bir-birini tamamlayan iki sevgidir desək, yanılmarıq.

Kiçik yaşlarından rənglərlə danışan, boyaların dilini anlayan Təranə Əhmədova 1986-cı ildə Bakıda anadan olub. 246 nömrəli məktəb-liseyin məzunudur. Rəssam olmağı qəlbən arzu edən gənc xanım Azərbaycan Dövlət Pedaqoji Universitetə "Təsviri incəsənət müəllimliyi" ixtisası üzrə yüksək nəticələrlə qəbul olub. Universitet illərində rəssamlığın texniki incəliklərini mənimsəyib, yaradıcılığında müxtəlif üsullardan istifadə etməklə özünəməxsus dəstxətt formalaşdırdığını deyə bilərik. Onun diplom işi olan "Azərbaycan – doğma diyar" adlı kətan üzərində yağlı boya ilə təsvir etdiyi tablo təkcə rəssamlıq baxımından deyil, ideya zənginliyi ilə də diqqət çəkə bilib. Bu əsərdə rəssam milli simvollarımızı – üçrəngli bayrağımızın fonunda qədim qaya təsvirləri, Azərbaycanın tarixi abidələri, xalq çalğı alətləri və milli geyimdə olan gənclərimizi bir araya gətirərək uğurlu kompozisiya yaradıb. Tanınmış rəssam Rais Rəsulzadənin "Bu qızın fırçasında vətən sevgisi var" – dediyi o an, taleyinin rəngləri də dəyişdi. Əməkdar rəssamımız həmin əsəri yüksək dəyərləndirərək rəy verdi. "Azərbaycan – doğma diyar" tablosu Təranə xanımın yaradıcılıq dünyasının manifestinə çevrildi.



Rəssamın pedaqoji fəaliyyəti ilk olaraq Laçın rayonu Mehman Səfərov adına məktəbdə başlayıb. İndi Bakıdadır və daim yaradıcılıq axtarışları aparır. Qrafikanın dəqiq xətlərini rəngkarlığın canlı palitrası ilə birləşdirir. Onun "Nar ilə natürmort", "Qızılgüllərlə natürmort", "Pəncərədən görünüş", "Azərbaycan bir rəssamın gözündə" kimi yağlı boya işləri, eləcə də "Novruzun ətri", "Rəsmlərdə Nəsimi" və "Meksika" və s. kimi qrafik əsərləri rəng harmoniyası və ideya dərinliyi ilə seçilir.Azərbaycan Rəssamlar İttifaqının (ARİ) üzvü olan Təranə Əhmədova bir çox beynəlxalq və yerli sərgilərdə iştirak edib, müxtəlif mükafatlara layiq görülüb. Onun üçün rəssamlıq təkcə texnika deyil, dünyaya fərqli baxmaq sənətidir. Həmişə çalışır ki, şagirdlərinə bu sənəti ürəkdən sevdirsin, onların qəlblərinə rənglər vasitəsilə ehtizaza gətirsin. Buna nail olmağı özünün ən böyük uğuru sayır.

Onun uşaqlar üçün təşkil etdiyi tanınmış rəssamlarımızla görüşlər, sərgilər və yaradıcılıq düşərgələri onların həm bacarıqlarını, həm də milli mənlik şüurunu inkişaf etdirir. Təranə müəllim ənənəvi üsullardan uzaqlaşaraq, şagirdlərinə dünyanı özəl baxışlarla "görməyi" öyrədir. Müəllim hər zaman şagirdlərinə deyir: 'Bayrağımızın üç rəngi kimi siz də üç istiqamətdə inkişaf etməlisiniz – bilik, yaradıcılıq və məhəbbətlə.

Bəlkə də elə Təranə xanım üçün hər bir şagird özünəməxsus rənglərlə işlənən bir tablodur. Buna görə də onun yetişdirdiyi hər bir uşaq, yalnız rəssam deyil, həm də dünyanı gözəlliklə qəbul edən bir sənətsevər kimi böyüyür. Palitrasında milli rənglər, fırçasında vətən sevgisi, dərslərində isə gələcəyin istedadlarına həsr olunan bir ömür yolu...

***Ziyarət CABAROVA,***
***Azərbaycan Dövlət Rəsm Qalereyasının böyük elmi işçisi, sənətşünas***

# Məktəblərdə bilik yoxlanışı



**Mayın 17-də ölkə üzrə bütün dövlət ümumi təhsil müəssisələrinin IV, mayın 18-də isə VI siniflər üzrə, ümumilikdə, 310 mindən çox şagird arasında monitorinq keçirilib, tədris dili, riyaziyyat və təbiət fənləri üzrə bilik səviyyəsi öyrənilib.**

Monitorinqin məqsədi həm müəllimlərə, proqram tərtibçilərinə, də təhsili idarəetmə orqanlarına vacib olan təhlilləri aparmaq üçün məlumat toplamaqdır. Monitorinqin nəticəsi şagirdlərin summativ qiymətləndirmə ballarına, eləcə də onların sinifdən-sinifə keçmələrinə təsir göstərmir. Hədəf şagird nailiyyətlərinin yaxşılaşdırılması, müvafiq standartlar üzrə bilik və bacarıqların hansı səviyyədə formalaşdığının müəyyən edilməsi və tədrisin keyfiyyətinin artırılması istiqamətində tədbirlərin görülməsidir.

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini Vəfa Yaqublu bildirib ki, monitorinq prosesi uğurla yekunlaşıb, iştirakçılıq təmin olunub: "Ölkə üzrə ümumi təhsil müəssisələrinin IV və VI siniflərində təhsil alan şagirdlərin, təxminən, 98 faizi monitorinqdə iştirak edib. Həm agentliyin, həm də regional təhsil idarələrinin əməkdaşları tərəfindən prosesin təşkili izlənilib. İştirakçılığın təmin olunması, eyni zamanda, hər hansı xoşagəlməz halların baş verməməsi üçün müvafiq addımlar atılıb".

İlk dəfə Ağdam rayonunun Sarıcalı, Ağdərə rayonunun Həsənriz, Suqovuşan kəndlərinin və Xankəndi şəhər N.Gəncəvi adına 4 nömrəli tam orta məktəblərdə 9603 şagirdin iştirakı ilə VI siniflərdə monitorinqi keçirilib.

Təhsil eksperti Kamran Əsədov "Xalq qəzeti"nə deyib ki, monitorinq imtahanları tədrisin keyfiyyətinə dair diaqnostik məlumat toplamaq alətidir. "Dünyanın bir çox ölkəsində də bu tip imtahanlar (məsələn, İngiltərədəki "SATs", Sinqapurda aparılan "Checkpoint tests", Estoniyada "Digiproov") şagirdləri cəzalandırmaq üçün deyil, sistemin nəbzini tutmaq üçün keçirilir. Bu imtahanlar gələcəkdə daha keyfiyyətli dərsliklərin hazırlanması, təlimin daha məqsədyönlü aparılması və ümumi təhsil strategiyasının təkmilləşdirilməsi üçün əvəzsiz məlumat mənbəyidir".

Qeyd edək ki, bu ildən etibarən monitorinqin müəyyən bir hissəsinin kompüter əsaslı formatda təşkilinə start verilib. Bakı Şəhəri üzrə Təhsil İdarəsi və Abşeron-Xızı Regional Təhsil İdarələrinin tabeliyində olan bir sıra ümumi təhsil müəssisələrində təxminən 10 000 şagird kompüter əsaslı monitorinqə cəlb olunub. Elektron qaydada təşkil edilən monitorinqdə 96 faiz iştirakçılıq təmin edilib.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

Replika

# Vağzalın başına yenə "dolan gəl..."

**Paytaxtın ən gur yerlərindən birində – Bakı Dəmiryol Vağzalının və metronun "28 May" stansiyasının qarşısında aparılan abadlıq və yenidənqurma işləri aylar öncə bitmişdi. Xatırlayırıq ki, Prezident İlham Əliyev ərazidə yaradılan şəraitlə tanış olmuşdu.**



Bakı sakinlərinin və qonaqların rahatlığını təmin etmək üçün orada minik avtomobillərinin hərəkəti ləğv olunub, avtobus, piyada və velosiped zolaqları yaradılıb, dekorativ yaşıllıqlar salınıb, oturacaqlar qoyulub və s. Camaat "Həsiri basma, dolan gəl" havası ilə metroya və vağzala uzun, dar yol qət edə-edə gedib-gəlməyi təmir səbəbindən anlayışla qarşılayırdı ki, axırda rahatlıq təmin ediləcək. Deyəsən, elə də oldu. Hətta noyabrın əvvəlində açılan meydandakı yeniliklərə bir müddət baxıb fərəhləndik də.

Amma artıq neçə gündür ki, meydanın bəzi yerləri yenidən qırmızı lentlərlə "çəpər"lənib və yerə döşənmiş plitələr qopduğu üçün dəyişdirilir.

Sözügedən ərazidə təmir işləri aparan podratçıların dediyinə görə, daşların bərkidilmə müddətinə riayət edilmədiyindən bəzi yerlərdə təkrar bərkidilməyə və digər zəruri korreksiya işlərinə ehtiyac yaranıb:





"Bunu nəzərə alaraq, mütəxəssislər tərəfindən əraziyə baxış keçirilib və nöqsanlar aradan qaldırılır".

Əgər cəmi 6 ay keçməmiş cari təmirə başlanıbsa, daha bunun nəyi əsaslı təmir-yenidənqurma olub ki?! Hələ bir müddət öncə burada – Puşkin küçəsində yolun bir hissəsinin çökdüyünü və yamandığını demirik. Ətək-ətək vəsait xərclənib, işlərin niyə tam keyfiyyətlə aparılmaması isə haqlı suallar doğurur.

"Dolayı gəl, dolayı" xalq mahnısını camaat bu meydanda nə qədər oxuyacaq?

***Ə.DOSTƏLİ***
***XQ***

Yeni kitab

# Dumanları yaran savaş

**Hərbi jurnalist Səxavət Məmmədin "Savaş və duman" romanı işıq üzü görüb. Kitabda 44 günlük Vətən müharibəsi dönəmində şahidi olduğu və yaşadığı hadisələr, Azərbaycan Ordusunun uğurlu hərbi əməliyyatları və savaş sırasında ortaya çıxan çətinliklərin peşəkarlıqla dəf edilməsindən, həmçinin şəxsi heyətin qəhrəmanlıqlarından bəhs olunur.**




Müəllifin özünəməxsus şəkildə nəql etdiyi hadisələr zəncirinin əhəmiyyətli hissəsi bu günə qədər heç bir yerdə yayımlanmamış, onun özünün adları çəkilən birinci şəxslərdən öyrəndiyi və ictimaiyyətə açıqlanmayan gerçəklərdir.

Səxavət Məmmədin bu kitabı Vətən müharibəsi haqqında yazılmış ilk sənədli romandır. Kitaba hərbi ekspert Elxan Şıxəliyev rəy verib, redaktorları Araz Zeynalov və Aqil Bəkir, məsləhətçiləri Tərlan Eyvazov və Rövşən Məhərrəmovdur.

**Müəllifin dedikləri:**

– Bu kitab təkcə mənim gördüklərimdən, yaşadıqlarımdan ibarət deyil. Kitabın ərsəyə gəlməsi üçün korpus komandirləri, yüksək rütbəli zabitlər, Xüsusi Təyinatlıların zabitləri, mühəndis-istehkam, istiqamətlər üzrə tabor komandirləri, artilleriya rəisləri ilə dəfələrlə görüşmüşəm, sənədlər üzərində, xəritələr üzərində işləmişəm. Bir hadisəni azı bir neçə yerlə dəqiqləşdirmişəm. İlk Murov əməliyyatı, xüsusilə artileriya, "Spike" və "TOS"ların fəaliyyəti, həmlə taborunun qanlı döyüşləri, Füzuli-Cəbrayıl, Hadrut, Yazı düzü istiqaməti, Şuşakənd, Daşaltı, XTQ-nin bir taborunun Şuşa əməliyyatını detallı işləmişəm.

Müəllif bir əsgər, bir manqa, bir tağım, bir tabor haqqında deyil, ümumən müharibədən yazmağa, bir növ risk edib və öhdəsindən bacarıqla gəlib. İstisna olaraq Vətən Müharibəsi Qəhrəmanı Adil İbrahimlinin fəaliyyəti və şəhid olmasını da faktiki və bədii fərqləndirib.

***XQ***

# "Xalq Əmanəti" layihəsinin 25-ci nəşri Güney Azərbaycan poeziyasına həsr olunub




**Xalq Bank "Xalq Əmanəti" layihəsi çərçivəsində 25-ci kitabını təqdim edir. Bu nəşr Cənubi Azərbaycan poeziyasına həsr olunub. Kitabda Güney Azərbaycanda doğulmuş, müxtəlif ədəbi təmayül və cərəyanları təmsil edən, XX əsrin əvvəllərindən günümüzə qədərki dövrdə yazıb-yaratmış 50 azərbaycanlı şairin fərqli mövzularda və janrlarda qələmə aldıqları seçmə şeir və poemaları, eləcə də qəzəlləri toplanıb. Müəlliflərin sırasında adını Azərbaycan ədəbiyyatı tarixinə yazmış böyük şairlərimizlə yanaşı, çağdaş dövrün istedadlı gənc ədiblərinin də isimləri vardır. XX-XXI əsrlər bütöv Azərbaycanın ədəbi mənzərəsini görmək üçün vasitə olaraq ərsəyə gələn "Güney Azərbaycan poeziyası. Seçmələr" kitabı həm də keşməkeşli tariximizi əks etdirir.**

"Xalq Əmanəti" layihəsi ASC "Xalq" Bankı tərəfindən 2010-cu ildən etibarən həyata keçirilir. Layihə Azərbaycan xalqının mədəni irsinin qorunub gələcək nəsillərə ötürülməsi, mənəvi dəyərlərinin dünyaya tanıdılması məqsədini daşıyır. Layihə çərçivəsində nəşr olunan kitablar – Azərbaycan, ingilis, rus dillərində çap olunur. Nəşrlər ölkənin ali və orta təhsil müəssisələri, uşaq evləri və kitabxanalar, müxtəlif fondlar, dövlət müəssisələri, xarici ölkələrin Azərbaycanda və Azərbaycanın xaricdə fəaliyyət göstərən səfirlik və konsulluqlarına, dünyanın böyük muzeylərinə, kitabxanalarına, eləcə də sənətsevərlərə hədiyyə olunur. Bugünədək Xalq rəssamları Böyükağa Mirzəzadə, Maral Rəhmanzadə, Səttar Bəhlulzadə, Xalidə Səfərova, Mikayıl Abdullayev, xalça rəssamı Lətif Kərimov, eləcə də Ələkbər Rzaquliyev, Tağı Tağıyev, Mahmud Tağıyev, Vəcihə Səmədova, Kamal Əhməd, Şamo Abasov, Cahid Camal, Fazil Əliyev, Rza Məmmədov, Gennadi Brijatyuk, Qorxmaz Sücəddinov, şəhid-heykəltaraş Samir Kaçayevin əsərlərindən ibarət sərgilər təşkil edilib və bədii albomlar nəşr olunub. Xalq şairləri Məmməd




Araz, Hüseyn Arif, Xəlil Rza Ulutürk, Zəlimxan Yaqub, unudulmaz Mikayıl Müşfiqin və Hökumə Billurinin seçilmiş əsərləri, görkəmli alim-numizmat, professor Əli Rəcəblinin "Azərbaycan sikkələri" kitabı, "Aşıq ədəbiyyatı antologiyası" üççildliyi, həmçinin dünya şöhrətli şair-mütəfəkkir Mirzə Şəfi Vazehin Azərbaycan, alman və rus dillərində "Bütün əsərləri" işıq üzü görüb.

# Ali təhsilli gənclərə karyera dəstəyi



**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının IV kurs tələbələri üçün "Akademiyadan peşəkar həyata: Uğurlu karyera strategiyalarının sirləri" mövzusunda təlim keçirildi.**

Dövlət İdarəçilik Akademiyasının professor-müəllimlərinin, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının, Nazirlər Kabineti Aparatının, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin, Elm və Təhsil Nazirliyinin nümayəndələrinin iştirak etdiyi toplantıda giriş sözü ilə çıxış edən akademiyanın rektoru akademik Urxan Ələkbərov təlimin hədəfini açıqladı. O bildirdi ki, məqsəd son kurs tələbələrinin ali təhsildən sonra uğurlu karyera qurmalarına təkan vermək, onları bu mövzuda maarifləndirməkdir. Məzunlar qazandıqları nəzəri bilikləri əmək fəaliyyətində tətbiq etmək və öz peşəkar karyeralarını qurmaqda bir sıra çətinlikərlə üzləşirlər. İşəgötürənlərin təcrübəli işçi axtarması kimi amilləri nəzərə alaraq akademiyada nəzəri biliklərlə yanaşı, praktiki təcrübələrə də xüsusi əhəmiyyət verilir.

Çıxış edən natiqlər uğurlu karyera qurmağın əsas mərhələləri, süni intellekt və texnologiyanın əmək bazarına təsiri, eləcə də şəxsi inkişaf yolları barədə fikir və mülahizələrini bölüşdülər. Düzgün karyera planlaması, peşəkar CV tərtibatı, işə müraciət qaydaları, iş müsahibəsinə praktik hazırlıq, karyera yüksəlişi və digər mövzularda geniş fikir mübadiləsi aparıldı.

Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin şöbə prokurorları Rəşad Qasımov və Nigar Əskərova məzunların prokurorluq orqanlarına işə qəbulu ilə bağlı təşkil edilən müsabiqələr barədə də ətraflı açıqlama verərkən gənclərin öz potensiallarını kəşf etmə, fürsətləri görmə və onlardan maksimum yararlanma yollarından söz açdılar.

Elm və Təhsil Nazirliyinin əməkdaşı, Azərbaycan Yazıçılar Birliyinin üzvü Rövşən Ağayev Təhsilin İnkişafı Fondunun təşəbbüsü ilə gerçəkləşdirilən "Maarifçi" tələbə-məzun təcrübə proqramı barədə məlumat verdi. O bildirdi ki, bu proqramın məqsədi elm və təhsil sahəsində insan resurslarının formalaşdırılmasına, tələbə və məzunların müasir yanaşmaları öyrənmələrinə dəstək olmaqdır. Natiq öz təcrübəsindən də danışarkən qeyd etdi ki, uğurlu karyera qurmaq istəyən tələbələr ali təhsili başa vurduqdan sonra da bilik və bacarıqlarını, peşəkarlıqlarını daim artırmalıdırlar. R.Ağayev Akademiyanın kitabxanasına ümummilli lider Heydər Əliyevin və Prezidenti İlham Əliyevin fəaliyyəti ilə bağlı kitabları, son illərdə çap olunmuş ədəbi əsərlərini hədiyyə etdi.

Sonda tələbələri narahat edən sualları cavablandırdılar.

*İ.RÜSTƏMOV*
*XQ*

# "NEFTMAŞTƏMİR" ASC-nin 2024-cü il dekabrın 31-nə maliyyə hesabatı

*manatla*

| AKTİVLƏR | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| *Uzunmüddətli aktivlər* | | |
| Torpaq, tikili və avadanlıqlar | 436 616 | 264 185 |
| Qeyri-maddi aktivlər | - | - |
| İnvestisiyalar | - | - |
| | **436 616** | **264 185** |
| *Qısamüddətli aktivlər* | | |
| Ehtiyatlar | 38 287 | 393 304 |
| Qısamüddətli debitor borcları | 1 215 728 | 193 208 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 4 183 | 152 |
| Sair qısamüddətli maliyyə aktivləri | - | - |
| Sair qısamüddətli aktivlər | 624 169 | 1 050 455 |
| | **1 882 367** | **1 637 119** |
| **CƏMİ AKTİVLƏR** | **2 318 983** | **1 901 304** |
| KAPİTAL | | |
| Səhmdar (nizamnamə) kapitalı | 291 880 | 291 880 |
| Kapital ehtiyatları | - | - |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 778 859 | 1 025 487 |
| **CƏMİ KAPİTAL** | **1 070 739** | **1 317 367** |
| ÖHDƏLİKLƏR | | |
| *Qısamüddətli öhdəliklər* | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 389 100 | 395 009 |
| Qısamüddətli kreditor borcları | 673 792 | 5 976 |
| Sair qısamüddətli öhdəliklər | 185 352 | 182 952 |
| | **1 248 244** | **583 937** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **1 248 244** | **583 937** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **2 318 983** | **1 901 304** |

**MƏNFƏƏT, ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT**

| | | |
|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 7 123 140 | 4 406 838 |
| Əsas əməliyyat xərcləri | (4 978 624) | (3 117 778) |
| Əməliyyat mənfəəti (zərəri) | **2 144 516** | **1 289 060** |
| Sair əməliyyat gəlirləri | 33 051 | 17 951 |
| Sair əməliyyat xərcləri | (9 078) | (8 098) |
| Fövqəladə gəlirlər | - | 50 253 |
| Fövqəladə xərclər | (636 647) | (13 643) |
| **Vergitutmadan əvvəl mənfəət (zərər)** | **1 531 842** | **1 335 523** |
| Mənfəət vergisi | (433 698) | (259 783) |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **1 098 144** | **1 075 740** |

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

**"Neftmaştəmir" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarına və rəhbərliyinə**

**Rəy**

Biz,**"Neftmaştəmir" ASC-nin** (bundan sonra şirkət) 2024-cü il dekabrın 31-nə maliyyə vəziyyətinə aid hesabatından, mənfəət-zərər və digər məcmu gəlirlərə dair hesabatından, kapitalda dəyişikliklər hesabatından, göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından və maliyyə hesabatlarına izahlı qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

**Bizcə, əlavə edilmiş maliyyə hesabatları şirkətin 2024-cü il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəicələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.**

**Rəy üçün əsaslar**

Biz, auditi Beynəlxalq audit standartlarına (BAS-lara) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz, Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun şirkətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Bizcə, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və şirkətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik, maliyyə hesabatlarının, Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına, düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik şirkəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, rəhbərlik şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər şirkətin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına aid kafi əminlik əldə etmək və rəyimizin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər, dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda ,yaxud məcmu olaraq, istifadəçilərin maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda əhəmiyyətli hesab olunur.

**"ANR Audit" MMC-nin**
**direktor-auditoru Namiq Abbaslı**
**Bakı şəhəri, Azərbaycan Respublikası,**
**14 mart 2025-ci il.**

## Beynəlxalq həyat

# Rumıniya Avropanı seçdi

## *Bu, radikal populizm üzərində qələbə oldu*

**Rumıniyada mayın 18-də keçirilən prezident seçkilərinin ikinci turunda Buxarestin meri Nikuşor Dan rəqibi Corc Simion qalib gəldi. Seçki məntəqələrinin protokollarının 100 faizi hesablandıqdan sonra qərbyönlü namizəd, Buxarest meri Nikuşor Danın qalib gəldiyi rəsmən təsdiqləndi. Cənab Danın qələbəsi "Qoca qitə"də müsbət qarşılandı, çünki anti-Avropa bəyanatları ilə tanınan Corc Simionun qələbəsi Qərb üçün arzuolunmaz hesab olunurdu.**



Xatırladaq ki, mayın 4-də keçirilən birinci turda cənab Simion 40,96 faiz toplayaraq rəqibini xeyli qabaqlamışdı. Nikuşor Dan isə 20,99 faiz səs toplamışdı. Ancaq ikinci turda paytaxt meri rəqibini 10 faiz səsçoxluğu ilə üstələyərək president seçildi. Nikuşor Dana dəstək səviyyəsinin artması ikinci tura keçməyən namizədlərin elektoratının onun tərəfinə keçməsi ilə izah olunur. Söhbət ilk növbədə Buxarest merinə bir faizdən də az fərqlə uduzan hakim koalisiyanın vahid namizədi Krin Antoneskunun tərəfdarlarından gedir. Məğlubiyyətindən sonra Baş nazir Marsel Çiolaku, ardında da hökumət istefa verdi və Milli Liberal Partiya cənab Dana dəstəyini bildirdi. Ona Rumıniyanın Qurtuluşu İttifaqı və Rumıniyadakı Macarların Demokratik İttifaqı qoşuldu. Parlamentdə ən böyük qüvvə olaraq qalan Sosial Demokrat Partiyası isə hər bir namizədə dəstək verməkdən imtina etdi.

"Rumınların Birləşməsi Alyansı" lideri Corc Simion isə kampaniyasını "Öncə Rumıniya" şüarı ilə keçirilən sabiq baş nazir Viktor Pontanın tərəfdarlarının səslərinə arxalanırdı. Bundan əlavə, Corc Simion Rumıniya diasporuna da ümid edirdi, bu da əbəs yerə deyildi, ona görə ki, xaricdə o, ilk turda səslərin 60 faizdən çoxunu toplamışdı. Corc Simionun qələbəsi Brüssel və Kişinyovda narahatlıq yaradırdı. Çünki siyasətçi Ukrayna münaqişəsi ilə bağlı Rumıniyanın neytral mövqeyini müdafiə edirdi, buna görə də, Avropa İttifaqı onun Kiyevə yardıma mütəmadi olaraq qarşı çıxan ölkələr – Macarıstan və Slovakiya ilə yaxınlaşa biləcəyindən narahat idi.

Bundan başqa, Rumıniyanın Ukraynaya silah tədarükünün logistikasında əsas rol oynaması Avropanın narahatlığını artırırdı. Ölkə NATO və Aİ üçün mühüm tranzit mərkəzidir, onun ərazisindən sursat və silahlar keçir. 2024-cü ilin noyabrında Buxarest "Patriot" hava hücumundan müdafiə sistemini Kiyevə təhvil vermişdi. Rumıniyada alyansın şərq sərhədlərinin hava patrulunda iştirak edən üç hava bazası fəaliyyət göstərir və Rumıniya Hərbi Hava Qüvvələri ukraynalı pilotlara F-16 qırıcılarını idarə etməyi öyrədir.

Eyni zamanda, Corc Simion uzun müddətdir Kiyevdə, eləcə də Moldova ilə bağlı mövqeyinin xeyli qıcıq doğurduğu Kişineuda persona non-qrata elan edilmişd. Belə ki, 2015-ci ildən onun ölkəyə girişi qadağan olunmuşdu. 2024-cü ildə Ukrayna da analoji qadağa tətbiq etmişdi. On ildən artıqdır ki, Corc Simion ardıcıl olaraq Rumıniya və Moldovanı "süni dövlət" adlandıraraq birləşdirilməsi ideyasını irəli sürür. Belə bir mövqe, əgər namizəd qalib gələrdisə, Moldovanın Avropaya inteqrasiyası prosesini çətinləşdirə bilərdi. Ukraynaya gəlincə, Corc Simion digər məsələlərlə yanaşı, onu "etnik rumınlara zülm etməkdə" günahlandırırdı.

Bundan başqa, "Rumınların Birləşməsi Alyansı"nın lideri ABŞ Prezidenti Donald Trampa və MAGA hərəkatına açıq simpatiya bəsləyir. O, siyasi proqramını Amerika liderinin kursu ilə müqayisə edirdi və Rumıniyanı Vaşinqtonun yaxın müttəfiqinə çevirəcəyini bildirirdi. ABŞ-da onun açıqlamaları müsbət qarşılanırdı.

İndi Avropa rahat nəfəs ala bilər. Seçkilərin qalibi Nikuşor Dan Rumıniyanın Avropayönlü kursunun sabitləşməsinə, Aİ və NATO ilə əməkdaşlığının möhkəmlənməsinə töhfə verəcəyini açıqlayır. Bildirilir ki, cənab Dan əsas diqqətini qanunun aliliyi sahəsində islahatların davam etdirilməsinə və korrupsiya ilə mübarizə siyasətinin gücləndirilməsinə yönəldəcək. Onun seçilməsi Ukrayna və Moldovaya da müsbət siqnal oldu: Dan dövründə Rumıniyanın Kiyevə yardım daşıyan tranzit qovşağı statusunu saxlayacağı və hər iki ölkənin ərazi bütövlüyünü şübhə altına almadan Kişineunun Avropaya inteqrasiyasını dəstəkləməyə davam edəcəyi gözlənilir.

*Səbuhi MƏMMƏDOV*
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 103 (30797) 20 may 2025-ci il, çərşənbə axşamı

# Əminə, sənin qələbən ruhumuzu ucaltdı!

*İtaliyada bayrağımız Prezidentin nəvəsinin şərəfinə qaldırıldı*







**Ötən həftəsonu İtaliyanın Peruca şəhərində Çin döyüş sənəti olan "Kunq Fu" üzrə XXI Dünya çempionatı və kuboku keçirilib.**

"Pala Barton" arenasında təşkil edilən yarışda 100-dən çox klub və 1000-dən çox idmançı qüvvəsini sınayıb. Təşkilatçıların fikrincə, bu, tədbirin beynəlxalq miqyasını və mədəniyyətlərarası əlaqələri gücləndirən bir platforma olduğunu göstərir.

Perucadakı turnir Azərbaycan idmançısı Əminə Əliyevanın çempion titulunu qazanması ilə əlamətdar oldu. Bu barədə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sosial şəbəkə hesabındakı paylaşımda məlumat verib.

Azərbaycan Prezidenti İlham Əliyevin 11 yaşlı nəvəsi light sanda döyüş növü üzrə mübarizədə bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxdı.

Qeyd edək ki, yarışa yollanan Azərbaycan nümayəndə heyətində Arzu Əliyeva, Azərbaycan Kunq-Fu Federasiyasının prezidenti Nurlan Aslanov, federasiya rəsmiləri, məşqçilər və gənc idmançılar yer alıblar. Aslanov yarışın açılışında çıxış edərək Prezident İlham Əliyevin idmana verdiyi dəstəyin uğurların əsasını təşkil etdiyini vurğulayıb.

Xalq artisti, "Agalarov Development" şirkətinin təsisçisi Emin Ağalarov sosial şəbəkə hesabında qızı Əminənin uğuru ilə bağlı paylaşıb edərək, belə yazıb: "Fəxrim, Əminəm! Bu gün sizinlə bir sevinci bölüşmək istədim. Bütün uşaqlara qələbələr, özlərinə inam və sevdikləri işlə məşğul olmaqdan həzz almalarını arzulayıram".

## Azərbaycan Kunq-Fu komandası İtaliyadan zəfərlə qayıdır

Dünən Azərbaycan Kunq-Fu Federasiyası sosial şəbəkədə yerləşdirdiyi məlumatda bildirib ki, Peruca şəhərində keçirilən dünya çempionatında light sanda növü üzrə idmançılarımız parlaq nəticələr əldə ediblər.

**Qızıl medallar:**

- Əminə Əliyeva (11 yaş, 38 kq)
- Rəsul Əsgərov (11–12 yaş, 36 kq)
- Hüseyn Əliyev (13–15 yaş, 48 kq)
- Toğrul Mikayılov (böyüklər, 65 kq)
- Eller Orucov (böyüklər, 75 kq)

**Gümüş medallar:**

- Əli Baxışov (11–12 yaş, 33 kq)
- Əkbər Əhmədzadə (13–15 yaş, 70 kq)

Komanda hesabında Azərbaycan 3-cü yerin sahibi olub! İdmançılarımızı təbrik edir, uğurlarının davamını arzulayırıq!

Azərbaycan Kunq-Fu Federasiyası da sosial şəbəkə hesabında Əminənin çempionluğunu belə təqdim edib: "Hər zərbədə iradə, hər hərəkətdə Vətən sevgisi! İtaliyanın Peruca şəhərində keçirilən Dünya çempionatında Əminə Əliyeva möhtəşəm çıxışı ilə qələbəyə imza atdı! Onun əzmkarlığı və gücü bütün Azərbaycana qürur yaşatdı! Əminə, sən təkcə döyüşmədin – sən bir millətin ruhunu ucaltdın!"

Bəli, 11 yaşlı Əminə əlində tutduğu üçrəngli bayrağımızla yanaşı, himnimizin sədalarlı altında sayğı duruşu ilə dövlətimizin adını, millətimizin qürurunu da göylərə yüksəltdi. Uğurların bol olsun, Əminə!

***Rasim MÖVSÜMOV***

## Sağlamlığa doğru qaçış



**Azərbaycan Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin təşəbbüsü və təşkilatçılığı, Azərbaycan Atletika Federasiyası (AAF) və "Zəfər" Qaçış Klubunun dəstəyi ilə Şamaxı rayonunda səhiyyə işçiləri arasında "Sağlamlığa doğru qaç" adlı qaçış layihəsinin növbəti mərhələsi təşkil olunub.**

Yarışda Şamaxı, İsmayıllı, Ağsu, Qobustan, Qəbələ, Şəki, Balakən, Zaqatala, Oğuz və Qax rayonlarının Səhiyyə İşçiləri Həmkarlar İttifaqı (SİHİ) şura üzvləri, eləcə də Şəki Tibb Kollecinin tələbələri olmaqla, ümumilikdə, 140 nəfər iştirak edib.

Sonda qadın və kişi iştirakçılar arasında ilk üçlükdə yer alanlara diplom, medal və hədiyyələr təqdim olunub. Qaliblər iyunun 8-də Xankəndi şəhərində keçiriləcək final mərhələsinə vəsiqə qazanıblar.

Tədbirin bədii hissəsində "Şamaxı təranələri" qrupu və uşaqlardan ibarət ansamblın ifaları səsləndirilib.

***XQ***

## Avstriya "Avroviziya–2025"in qalibi oldu



**Avroviziya Mahnı Müsabiqəsinin builki qalibi müəyyən olub. Avstriya təmsilçisi JJ "Wasted love" mahnısı ilə münsiflər heyəti və tamaşaçıların rəğbətini qazanıb. Səsvermənin yekun nəticəsinə əsasən, iştirakçı 436 xal toplayaraq birinci yerə layiq görülüb.**

Qeyd edək ki, bu il müsabiqə İsveçrənin Bazel şəhərində təşkil olunmuşdu. Finalda ümumilikdə 26 iştirakçı – iki yarımfinalın 20 qalibi, əlavə, "Böyük beşlik" ölkələrinin - Böyük Britaniya, İtaliya, İspaniya, Almaniya və Fransanın nümayəndələri iştirak edirdilər.

***S.FİDAN***
***XQ***

## Sumqayıt səhnəsində "Sehrli yaylıq"

**Sumqayıt Dövlət Dram Teatrında yazıçı Kərim Həsənovun "Sehrli Yaylıq" əsəri əsasında eyniadlı birhissəli uşaq tamaşasının təqdimatı olub.**




Yeni səhnə əsərinin quruluşçu rejissoru Fuad Cavadzadə, quruluşçu rəssamı Nizami Dadaşov, musiqi tərtibatçısı Zaur Rəşidov, xareoqrafı Kamil Ağazadə, rejissor assistenti Fazilə Rzayevadır.

Tamaşa balaca teatrsevərlərə ətraf mühitə qayğı ilə yanaşmağı, ev işlərində valideynlərinə kömək etməyi, dərslərini yaxşı oxumağı, dövlətinə , millətinə yararlı vətəndaş olmaq hisslərini aşılayır.

Tamaşada rolları Əməkdar artistlər Sədaqət Nuriyeva, Elmira Kərimova, aktyorlar Sevda Cəlilova, Vəfa Qurbanova, Rövşən Əsgərov, Ceyhun Məhərrəmov, Şəhla Məmmədova, Şəmistan Süleymanlı, Elay Xasıyev, İlahə Səfərova, Elmir Mehdiyev, Kamran Muradlı, Məryəm Hüseynli və başqaları ifa edirlər.

***F.SALMANOVA***
***XQ***

## Ovuc əlin aynasıdır...



**Barmaqların tam olaraq açılmasında çətinlik varsa, ovuc içində keylik hiss olunursa, bu, "Düpüytren kontrakturası" – ovuc fibromatozu adlı xəstəliyin əlamətləri ola bilər. Bu barədə türkiyəli cərrah Kadir Uzel məlumat verib. O, jurnalistlərə açıqlamasında deyib ki, "Düpüytren kontrakturası"na daha çox kişilərdə rast gəlinir:**

– Bu xəstəlik ovuc içində dərinin altında yerləşən və fasya adlanan toxumanın qalınlaşması və qısalması nəticəsində yaranır. Əmələ gələn sərtləşmiş fibrotik maneə və düyün barmaqların açılıb-bükülməsini çətinləşdirir. Səbəbi dəqiq bilinməyən bu xəstəlik əsasən, 40 yaşdan sonra, kişilərdə qadınlara nisbətən təxminən 10 dəfə çox rast gəlinir. Diabet xəstələrində, epilepsiya, xroniki qaraciyər xəstəliyi olanlarda və alkoqol aludəçilərində bu fəsad daha çox müşahidə edilir.

Həkim bildirib ki, hər 2 əldə də yarana bilən bu xəstəliyin ilkin mərhələsində ovuc içində ağrısız düyünlər peyda olur. Xəstəlik irəlilədikcə barmağın bükülməsi və tam açılmaması kimi şikayətlər yaranır. Bu səbəbdən də xəstə barmağını qaldırmaq, alqışlamaq, əlini cibinə salmaq, əşyaları tutmaq kimi gündəlik işləri yerinə yetirməkdə çətinlik çəkir.

Mütəxəssis onu da vurğulayıb ki, gecikmiş əməliyyatın müsbət nəticəsi az olur. Ona görə ovucda hər hansı sərtləşmə hiss olunanda mütəxəssisə müraciət etmək tövsiyə edilir.

***Z.HÜSEYNLİ***
***XQ***

**HAVA**

## Abşeronda yağmursuz, bölgələrdə yağış, duman və külək...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən,mayın 20-də Bakıda və Abşeron yarımadasında gecə yağış yağacağı, yarımadanın bəzi yerlərində qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var.**

Gün ərzində dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 15-18° , gündüz 21-26° isti olacaq. Atmosfer təzyiqi 764 mm civə sütunundan 759 mm civə sütununa yüksələcək,nisbi rütubət gecə 70-80 , gündüz 55-60 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Axşam bəzi rayonlarda tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 13-18°, gündüz 22-27°, dağlarda gecə 5-10°, gündüz 12-17° isti olacaq.

***QQ ASIMOV***
***XQ***

## "Maştağa-Aqrotexservis"ASC səhmdarların nəzərinə!

2 iyul 2025-ci il saat 14.00-da "Maştağa-Aqrotexservis" ASC-nin inzibati binasında səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. "Maştağa-Aqrotexservis" ASC-nin 2024-cü ilə aid illik maliyyə hesabatlarının müzakirəsi və təsdiqi.
2. "Maştağa-Aqrotexservis" ASC üzrə cari vəziyyətin müzakirəsi.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün həftənin iş günləri saat 10.00-dan 13.00-dək cəmiyyətin icra orqanının rəhbərinə müraciət edə bilərlər.

Əlaqə telefonları- 012- 455--35-55, 050-324-30-07.

Ünvan- Bakı şəhəri, Sabunçu rayonu, Maştağa qəsəbəsi, Nizami küçəsi 4.

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov "Space" televiziyasının rəhbəri Vado Korovinə anası

**LYUDMİLA KOROVİNANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**

**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

**ÜNVANIMIZ:**
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3468
SİFARİŞ 982
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV
Çapa imzalanmışdır 00:00